Xalqın qəzeti!

# Xalq qəzeti

№ 153 (30269) 23 iyul 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Azərbaycanda davam edən media islahatları medianın müasir standartlara uyğunlaşdırılmasına və qlobal tələblərə cavab verən kreativ ideyaların təşviqinə yol açıb.**

# Şuşa Qlobal Media Forumunun sülh gündəliyi

## Bakı–İrəvan münasibətlərinin tənzimlənməsi üzrə rəqabət, vasitəçilik missiyası və bəşəri maraqlar



**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusundakı Şuşa Qlobal Media Forumunun açılış mərasiminə qatıldı. Dövlətimizin başçısı bu mötəbər toplantının iştirakçılarının suallarını cavablandırarkən fikirlərini kifayət qədər əhatəli formada açıqladı. Cənab Prezidentin toxunduğu bütün məqamlar müstəsna əhəmiyyətə malikdir. Bu yazıda onlardan birinin üzərində dayanacağıq. Söhbət Azərbaycan-Ermənistan münasibətlərindən və mövcud xüsusda cərəyan edən proseslərdən gedir.**

"Biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq". Prezident İlham Əliyevin nitqindəki ilk məqam budur və onun məsələyə diqqət yetirməsi məntiqidir. Çünki dövlətimizin başçısı həmin revanşist qüvvələrin Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə mənfi təsirini hesablayır.

Nəzərə alaq ki, bu təsir bütövlükdə Cənubi Qafqazda sabitliyin və əmin-amanlığın formalaşmasına təhdid törədən ciddi faktordur. Təhdid inkişafa maneədir. Azərbaycan isə regionun inkişafında maraqlı tərəfdir. Həm maraqlı tərəfdir, həm də inkişafın qarantıdır. Deməli, ölkəmiz Ermənistanla münasibətləri də təminat altına almalıdır ki, inkişafın əngəllənməsi potensialı aradan qalxsın.

*(ardı 3-cü səhifədə)*

# Bakı bəyan edir: Ankara tamhüquqlu tərəfdir



**Kənar qüvvələrin, üçüncü tərəfin bu məsələyə necə yanaşmasından asılı olmayaraq həqiqət bundan ibarətdir: Qarabağ Azərbaycan ərazisidir və Azərbaycanla Türkiyə arasında 44 günlük müharibədən sonra imzalanan müttəfiqlik barədə Şuşa Bəyannaməsi bizim ərazimizlə bağlı məsələlərdə Ankaranı hüquqi tərəfə çevirib.**

Əslində, Türkiyə təkcə siyasi yox, həm də hüquqi baxımdan tərəfdir. Ona görə də Ankaranın Qarabağ iqtisadi rayonumuzda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qalma müddəti başa çatanda Qarabağdan çıxmasını istəməsinin hüquqi əsasları var.

*(ardı 4-cü səhifədə)*

# Mina xəritələrinin gizlədilməsi də terrordur

**Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində törətdiyi cinayətlərdən biri də 30 ilə yaxın davam edən işğal dövründə torpaqlarımızı minalarla çirkləndirməsidir. Bu, əslində, insanlıq, bəşəriyyət əleyhinə cinayət kimi qiymətləndirilməyə layiq hərəkətdir. Çünki söhbət yaş kateqoriyasından asılı olmayaraq, günahsız, dinc insanların qətlə yetirilməsindən gedir.**




**Bəşəriyyət bu gün nasist Almaniyasının törətdiyi müharibə cinayətlərini lənətləyir. Buraya İkinci Dünya müharibəsinin başladılması, o cümlədən bu çərçivədə "yəhudi məsələsinin birdəfəlik həlli", Avropa yəhudilərinin üzləşdikləri fəlakətlər (Holokost), SSRİ-nin dinc əhalisinə qarşı müharibə cinayətləri, Hans Günter adlı psevdoalimin irqçilik nəzəriyyəsi, qaz kameraları, Osvensim (Auşvits), Buhenvald düşərgələri, insanlar üzərində ağlasığmaz tibbi təcrübələr və sair kimi dəhşətli əməllər daxildir. Nasistlərin başlatdıqları müharibə onların məğlubiyyəti ilə bitdi. Müharibə başa çatandan az sonra – 1945-ci il noyabrın 20-də Nürnberq şəhərində qurulan Beynəlxalq Hərbi Tribunalda Hitler Almaniyasının 24 yüksək vəzifəli şəxsi dörd maddə ilə ittiham olundular. Bu maddələr dünyaya təcavüz, bəşəriyyətin sülh və təhlükəsizliyinə qarşı cinayətlər, müharibə cinayətləri və insanlığa qarşı cinayətlər idi. Hərbi tribunal təqsirləndirilən şəxslərin bəziləri barəsində ölüm hökmü çıxardı, bəziləri uzun müddətə və ya ömürlük azadlıqdan məhrum edildilər. Beləliklə, gec də olsa, haqq-ədalət öz yerini tapdı.**

(ardı 4-cü səhifədə)

# Mərkəzi Asiya ölkələrinin Qarabağın dirçəldilməsinə töhfəsi



Səhifə ⇨ 7

# Həyatımızın 10 illik "Ədəbi proses"i



Səhifə ⇨ 10

# Krım körpüsü Ukraynanın hədəfindədir

Səhifə ⇨ 11

# "Masdar" Azərbaycan və Özbəkistan üçün "yaşıl" istiqraz buraxıb



Səhifə ⇨ 7

# Şuşa tezliklə Azərbaycanın və Qafqazın deyil, dünyanın da gözəl şəhəri olacaq



Səhifə ⇨ 8

# Qlobal Media Forumunda panel müzakirələr




**"Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" Qlobal Media Forumu iyulun 22-də işini sessiyalarla davam etdirib.**

Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə keçirilən Forumun ikinci gününün birinci sessiyasında əvvəlcə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət Hacıyev** çıxış edib. O, 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən əsası qoyulan Azərbaycan mediasının maarifçilik prinsipləri əsasında böyük tarixi yol keçdiyini, xalqımızın ictimai-siyasi fikrinin, həmçinin müstəqillik amallarının formalaşmasında "Əkinçi" qəzetinin böyük rolunun olduğunu bildirib.

Beynəlxalq xəbər aparıcısı, jurnalist Maria Ramosun moderatorluğu ilə keçirilən "Medianın gələcəyi: Rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər və medianın rolu" adlı sessiyada medianın gələcəyi, ənənəvi media üçün növbəti addımlar, rəqəmsal transformasiya məsələsi diqqət mərkəzində olub.

"Global Policy" İnstitutunun prezidenti **Paolo von Schirach** çıxışında müasir dövrdə texnologiyada baş verən yeniliklərin xəbərlərin hazırlanmasına mənfi təsirlərindən danışıb. Diqqətə çatdırılıb ki, texnologiya sahəsindəki inkişaf media qarşısında da yeni çağırışlar yaradır. Bir qrup təşkilatların yalan informasiyaları insanların xəbərlərə olan inamını itirib.

Media sahəsində dəyişikliklərin çox sürətlə getdiyini deyən kanadalı jurnalist, televiziya, sənədli film, podkast və debat prodüseri **Dana Volfe** dəyişikliklərə uyğunlaşmağın zəruriliyini, əks halda, bu sahəni tərk etməli olduqlarını bildirib.

"Forward Thinking" şirkətinin həmtəsisçisi və direktoru **Oliver Makternan** qeyd edib: "Xəbərləri əyləncəli təqdim etmək onun əhəmiyyətini itirir. Demək olar ki, xəbərlərdə dəqiqlik yoxdur. Biz bunu daha çox sosial mediada müşahidə edirik. Sosial media sahəsində problem ondan ibarətdir ki, biz xəstə təfəkkürlü insanların əlinə silah vermişik".

"Azad Azərbaycan" Teleradio Yayım Şirkətinin sədri **Azər Xəlilov** çıxışında informasiyaları əyləncəli təqdim etməklə onların əhəmiyyətini itirdiyini düşünmədiyini, bu xəbərləri yaradan səbəblərin aktuallığını itirdiyini vurğulayaraq deyib: "Xəbərlər elə hazırlanmalıdır ki, içərisində əyləncə də olsun".

Sessiyada Forum iştirakçıları, həmçinin səmərəli kommunikativ əlaqələrin inkişafı, ənənəvi medianın rolu və gələcəyi, yeni tendensiyalar fonunda jurnalistikada yaranan çətinliklər və aktuallaşan yeni istiqamətlər, eləcə də bu sahədə rəqəmsal alətlərin tətbiqinin yaratdığı nəticələri müzakirə edib, sualları cavablandırıblar.

Forumun ikinci sessiyası isə "Mediada investisiya və istehlak tendensiyaları" mövzusuna həsr olunub. Xəbər aparıcısı Caffar Hasnainin moderatorluğu ilə keçirilən sessiyada müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı (dezinformasiya və feyk nyusla mübarizə üsulları) məsələləri nəzərdən keçirilib.

Sessiyanın panel müzakirəsində çıxışı zamanı jurnalist, media meneceri **Bora Bayraktar** deyib: "Bir sıra məsələlər var ki, onlara həssas yanaşmırıq. Jurnalist olaraq vəzifəmiz ondan ibarətdir ki, biz digərlərindən fərqlənək, insanlara zərər verəcək xəbər yaymayaq. Eyni zamanda, müəyyən regionlar haqqında reportaj hazırlayarkən sosial həyatı, ətraf mühiti nəzərə almalıyıq".

Strateji Araşdırmalar Forumunun təsisçisi və prezidenti, Serbiya parlamentinin sabiq deputatı **Neven Cvetiçanin** çıxışında vurğulayıb ki, Azərbaycan bütün dillərdə danışmağın mümkün olduğu nadir yerlərdən biridir. Prezident İlham Əliyev ötən gün Qoşulmama Hərəkatı barədə danışdı. Mən də elə bu Forumu "Qoşulmama Mediası" adlandıra bilərəm.

"TASS" informasiya agentliyinin baş direktorunun birinci müavini **Mixail Qusman** çıxışında peşəkar, klassik jurnalistikanı sosial və internet-medialarından ayırıb. O deyib: "Bunlar iki fərqli fenomendir, hər birinə diqqət və hörmətlə yanaşmaq, lakin bir-biri ilə qarışdırmamaq lazımdır".

Xəbər jurnalistləri barədə danışarkən M.Qusman bildirib ki, onlar üçün yalnız bir qayda mövcuddur – aydın, "zəhərlənməmiş", düzgün məlumat.

Sonra çıxış edən "Economyfirst Limited London" şirkətinin direktoru **Klaus Jürgens** agentliklərin marketinq fəaliyyətindən danışıb. Yaxşı gəlir əldə etmək üçün agentliklərin müasir düşüncəyə malik peşəkar komandaya ehtiyaclarının olduğunu diqqətə çatdırıb.

Yerli və xarici media nümayəndələrinin, eyni zamanda, ekspertlərin iştirakı ilə keçirilən Forumun ikinci sessiyada media məhsullarının istehsalı və istehlakı ilə bağlı dəyişən trendlər, mediada investisiya məsələləri, media savadlılığının peşəkar medianın inkişafında rolu, yeni mediada dəyər zəncirinin yaradılması və biznes modellərinin inkişafı ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

Qeyd edək ki, Şuşa Qlobal Media Forumuna 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb. Forumda, həmçinin 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edir.

Forum işini iyulun 23-də yekunlaşdıracaq.

***AZƏRTAC***

# Qonaqlar qala şəhərin tarixi məkanlarında

**Azərbaycan milli mətbuatının 148 illiyi münasibətilə keçirilən "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Qlobal Media Forumunun iştirakçıları Şuşa şəhərinin tarixi məkanları və təbiət gözəllikləri ilə tanış olublar.**




Qonaqlar əvvəlcə Şuşa qala divarlarını ziyarət ediblər. Burada onlara Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq və qeyrət rəmzi olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.



Sonra qonaqlar Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi Şuşa şəhər mərkəzi meydanına gəliblər. Onlara şəhər və güllələnmiş heykəllərin bəlalı tarixçəsi barədə məlumat verilib.

Forum iştirakçıları Şuşada Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Şuşa qalasının Gəncə qapısı, Yuxarı Gövhər Ağa məscidi, Mehmandarovların malikanə kompleksi və Qazançı kilsəsində də olublar. Gəzinti zamanı işğal dönəmində mədəniyyət abidələrimizə ermənilər tərəfindən vurulan ziyan, qədim artefaktlarımızın saxtalaşdırılması barədə də bilgiləndiriliblər.

Bildirilib ki, Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. İnfrastrukturun qurulması ilə yanaşı, şəhərin əsl simasının, tarixi və mədəniyyət abidələrinin bərpasına start verilib. Qeyd olunub ki, tarixi, dini və memarlıq abidələrinin bərpa və yenidən qurulmasında Heydər Əliyev Fondu yaxından iştirak edir.

Sonda Cıdır düzünə gələn qonaqlar buradan açılan möcüzəli mənzərəni – Şuşa kanyonunu seyr ediblər. Şuşa şəhəri ilə tanışlıq hər kəsdə zəngin təəssürat yaradıb.

Axşam Forum iştirakçılarına qala-konsert proqramı təqdim olunub.

***"Xalq qəzeti"***

# Prezident İlham Əliyevin Şuşa mesajları dünya mediasında geniş əks-səda doğurub

**Azərbaycan Prezidenti İlham Əliyevin "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumundakı çıxışı dünya mediasının diqqət mərkəzindədir.**




ABŞ-ın **"The Associated Press"** agentliyi və **"New York Insider"** xəbər portalı Şuşa Qlobal Media Forumunun keçirilməsinin əsas məqsədi, Prezident İlham Əliyevin tədbirdəki çıxışının əsas məqamları ilə bağlı yazılar dərc edib. Məqalələrdə bildirilib ki, Forum 4-cü Sənaye İnqilabının media sənayesinə transformativ təsirini araşdırmaq üçün dünyanın hər yerindən media mütəxəssislərini, hökumət rəsmilərini, vətəndaş cəmiyyəti nümayəndələrini və ekspertləri bir araya gətirib.

Xəbərlərdə diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Forumdakı çıxışında əsas mövzuları, o cümlədən, yeni media sahəsində irəliləyişləri və Azərbaycanın regionda strateji əhəmiyyətini vurğulayaraq deyib: "Azərbaycanda davam edən media islahatları medianın müasir standartlara uyğunlaşdırılmasına və qlobal tələblərə cavab verən kreativ ideyaların təşviqinə yol açıb".

Şuşa Qlobal Media Forumu ilə xəbərlər Rusiya mediasının da diqqət mərkəzindədir. Bu ölkənin rəsmi **TASS** agentliyi, habelə **"Vestnik Kavkaza"** xəbər portalı Prezident İlham Əliyevin Rusiya–Azərbaycan münasibətləri, Azərbaycanın Moskva ilə Vaşinqton arasında münasibətlərin bərpası üzrə danışıqlar məkanı ola biləcəyi barədə fikirləri yer alıb. Qeyd olunub ki, dövlət başçısı Moskva ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində olduğunu, həmçinin konkret nəticələrə əsaslandığını bildirib.

Gürcüstanın **"1tv.ge"** saytı da Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda Gürcüstan, Azərbaycan, Rumıniya və Macarıstan arasında Qara dənizdə strateji əhəmiyyətə malik sualtı elektrik kabelinin çəkilməsi haqqında imzalanmış sazişin uğurla həyata keçirilməsi, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, cənubi Qafqazın regional inkişafı ilə bağlı fikirlərinə xüsusi yer verilib.

Pakistanın **"DND"** xəbər portalı bildirib ki, Prezident İlham Əliyev Şuşada xarici KİV nümayəndələri ilə 3 saatdan çox davam edən səmimi söhbətində Azərbaycana müstəsna iqtisadi yüksəliş, diqqətəlayiq ictimai-siyasi sabitlik, nümunəvi müdafiə və strateji uğurlar gətirən siyasi, inzibati və xarici siyasət fəlsəfəsinə geniş aydınlıq gətirib.

Misirin **MENA** xəbər agentliyinin saytında və nüfuzlu "**Əl Əhram**" qəzetində "Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin inkişafının prioritet məsələ olduğunu bildirib" sərlövhəli məqalə dərc edilib. Yazıda diqqətə çatdırılıb ki, Şuşa Qlobal Media Forumunda iştirak edən dünyanın müxtəlif ölkələrindən gəlmiş jurnalistlərin suallarını cavablandıran Azərbaycanın dövlət başçısı uzun illər işğaldan əziyyət çəkən ölkəsinin sülhə və inkişafa nail olmaq istədiyini bildirib.

Kanadanın **"Digital Journal"**, Fransanın **"France11"**, İspaniyanın **"Informe Espana"**, Belarusiyanın **"SB-BY"** eləcə də digər xarici KİV-lərdə də yayımlanan materiallarda qeyd edilib ki, Şuşa Qlobal Media Forumunda mühüm qlobal və regional məsələlərə toxunub. Xəbərlərdə 49 ölkədən 200-dək xarici qonağın qatıldığı Şuşa Qlobal Media Forumunun əhəmiyyəti qeyd olunub, bu mötəbər tədbirin açılış mərasimində Azərbaycan Prezidentinin iştirakı və dövlətimizin başçısının fikirləri diqqət mərkəzində saxlanılıb.

**Birləşmiş Krallığın "Daily Trends"** qəzetinin dərc etdiyi **"Şuşa Qlobal Media Forumu: Dünyanın media liderləri arasında ilhamverici birlik"** sərlövhəli xəbərdə bildirilib ki, tədbirin məqsədi qlobal media meyillərini təhlil etmək, milli imkanları gücləndirmək, beynəlxalq əməkdaşlığı inkişaf etdirmək və media sektorunda dördüncü sənaye inqilabı dövründə təqdim olunan çağırışları və imkanları araşdırmaqdır. Xəbərdə Prezident İlham Əliyevin əsas mövzularla, o cümlədən yeni media sahəsində irəliləyişlər və Azərbaycanın regionda strateji əhəmiyyəti ilə bağlı fikirləri yer alıb.




Hindistanın **"BusinessLand"** xəbər portalı işğaldan azad olunmuş ərazilər və müharibə məsələlərinə toxunan Prezident İlham Əliyevin aşağıdakı fikirlərini oxucularının diqqətinə çatdırıb: "İkinci Qarabağ müharibəsi başa çatandan bu günədək təxminən, 3 il keçib, biz getdikcə daha çox sayda birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın ərazisidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı. Təəssüf ki, uzun illər - 28 il ərzində Minsk qrupu çərçivəsində gedən danışıqlar heç bir nəticə vermədi. Ümumiyyətlə, həll üçün hər hansı düstur ortaya qoyulmadı".

Rumıniyanın nüfuzlu KİV-ləri – "**AGERPRES**" milli xəbər agentliyi, **"Ziare Live"**, **"Agerpres"**, "**news-24hours**" xəbər portallarında, "**Ultima ora**" qəzetində Azərbaycan Prezidenti İlham Əliyevin Forumda çıxışından əsas məqamlar dərc olunub. Məqalələrdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən Forumda verdiyi açıqlamalarda Cənubi Qafqazda vəziyyətin sabitləşdirilməsinin, davamlı sülhə nail olunmasının və təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğulayıb.

Albaniyanın **"Agjencia Telegrafike Shqiptare"** nəşrinin yaydığı xəbərdə Prezident İlham Əliyevin Forumda İkinci Qarabağ müharibəsindən sonrakı vəziyyətlə bağlı səsləndirdiyi fikirlər yer alıb. Xəbərdə diqqətə çatdırılıb ki, Prezident İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycanın və Türkiyənin münasibətlərinin rəsmiləşməsi, məşhur Şuşa Bəyannaməsindən bəhs edib: "Prezident Ərdoğanla şəxsi dostluğumuz, məncə, artıq təkcə regionda deyil, dünyada tanınır. Bu, həqiqətən də regional inkişafın və sabitliyin mühüm amilidir".

Şuşa Qlobal Media Forumu Moldova mətbuatının da gündəmində yer alıb. Belə ki, **"Noi.md"** və **"Yam News"** saytlarında yer alan yazılarda Prezident İlham Əliyevin regional inkişafın Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılı olması barədə fikrinə yer verilib: "Biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, gələcək üçün təhlükəsizlik təmin edilməlidir.

***"Xalq qəzeti"***

# Azərbaycan Prezidentinin beynəlxalq ünvanlı mesajları

**Cənab Prezidentin bütün çıxış və nitqləri kimi, iyulun 21-də Şuşadan səsləndirdiyi bəyanatlar da dünya mətbuatı tərəfindən maraqla qarşılandı. Təbii ki, beynəlxalq mətbuatı təmsil edən jurnalistlərin, ekspert və politoloqların dövlət başçımıza verdiyi sualların cavablandırılması təkcə Azərbaycan reallıqlarını əks etdirmirdi, həm də regionda və beynəlxalq aləmdə gedən proseslərə rəsmi Bakının münasibətinin öyrənilməsi baxımından da əhəmiyyətli idi. Diqqətlə izlədiyimiz məqamlardan biri də o idi ki, tədbir iştirakçılarının əksəriyyəti dövlət başçımızdan eşitdiyi fikirləri dərhal öz redaksiyalarına və lazımi ünvanlara ötürürdülər. Müasir informasiya texnologiyaları hər şeyi asanlaşdırıb.**



***İkinci Qarabağ müharibəsi dövründə və müharibədən sonra Ermənistana yaxınlığı ilə seçilən ölkələr öz ermənipərəst mövqelərini daha gizlədə bilmədilər, yaxud da bunu istəmədilər... Ancaq bu o demək deyil ki, bu, əbədi belə olacaq. Bu mərhələ də başa çatacaq, yeni, mərhələ açılacaq. Əsas odur ki, sənin gündəliyin olsun. Biz postmüharibə dövründə hər şeyi ardıcıllıqla etmişdik, bir addım əvvəlki addımın məntiqi davamı idi. Biz hədəfə doğru gedirdik, gedirik və bir çox hədəflərə çatmışıq. Bəzi hədəflər var, onlara çatmamışıq, amma onlara da çatacağıq.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Şuşa, 21 iyul 2023-cü il**

Söhbət Prezident İlham Əliyevin iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumundakı çıxışından və sualları cavablandırmasından gedir. Prezidentin tapşırığına əsasən, "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən bu forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu təmsil olunurdu. Bundan başqa, tədbirdə 60 yerli media rəhbəri və nümayəndəsi də iştirak edirdi.

Şuşada keçirilən forumda yaddaqalan və maraqlı olan məqamlar çox idi. Cənab Prezident dedi ki, biz işğalçı dövlət üzərində qələbə çalsaq da, ərazilərimizi düşmən tapdağından azad etsək də, arxayınlaşıb oturmur, ordu quruculuğunu daha prinsipial şəkildə davam etdiririk. Bu isə yeni çağırışlara lazımi cavab verdiyimizin göstəricisidir. Bu gün Azərbaycanın daxili işlərinə qarışmaq istəyənlər də var, erməniləri revanşa ruhlandıranlar da, yeni qarşıdurmalar yaradaraq "bulanıq suda balıq tutmaq istəyənlər" də. Ona görə də Azərbaycan Ordusu indi daha güclü olmalıdır.

Əslində, bizim ordu quruculuğumuz ötən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyev tərəfindən başlanmış və ölkəmizdə mükəmməl nizami ordu formalaşdırılmışdır. Prezident İlham Əliyev isə həmin ordunu dünyanın qabaqcıl silahlı qüvvələri sırasına qaldırmışdır. Ona görə də bu gün söhbət Azərbaycan Ordusunun maddi-texniki bazasının daha da möhkəmləndirilməsindən, arsenalının müasirləşdirilməsindən və şəxsi heyətin peşəkarlığının artırılmasından gedir. Qətiyyətlə deyə bilərik ki, Silahlı Qüvvələrimizin bu istiqamətlərin hamısında möhtəşəm uğurları var.

Mənim üçün maraqlı olan digər məqam isə Azərbaycanda sənaye istehsalının yeni istiqamətinin yaradılması barədə eşitdiklərim oldu. Dövlət başçımız dedi ki, Ermənistan ordusu işğal dövründə ərazilərimizdə bir milyondan çox mina basdırmışdır ki, bu da Azərbaycan xalqına qarşı törədilmiş çoxsaylı terror aktlarının davam etdirilməsidir. O qədər minaların hamısının təhlükəsizləşdirilməsi üçün çox sayda müvafiq texniki vasitələr lazımdır.

Prezident xatırlatdı ki, biz həmin texniki vasitələri həm xaricdən alırıq, həm də artıq özümüz istehsal etməyə başlamışıq. Əlavə edim ki, əvvəllər Azərbaycanda belə istehsal müəssisəsi yox idi. Yəni biz artıq yeni silahlar istehsal etməklə yanaşı, yeni minatəmizləyən texnikalar da hazırlayırıq. Təbii ki, ölkə ərazisində minatəmizləmə prosesi başa çatdıqdan sonra biz həmin texnikaları həm sata, həm də müttəfiqlərimizə göndərə bilərik.

Başqa bir məqam isə İkinci Qarabağ müharibəsi dövründə bəzi ölkələrin Ermənistanı dəstəkləməsinin, hətta ona hərtərəfli yardım etməsinin unudulmasına çağırış idi. Dövlət başçımız əminliklə söylədi ki, biz həmin tarixə qayıtmaq istəmirik. Yeni mərhələ açılacaq və Azərbaycan öz məqsədlərinə nail olacaq. Necə ki, indiyədək nail olub.

Xüsusilə xatırladılmalı məsələlərdən biri də dövlət başçımızın rusiyalı politoloq Sergey Markovun sualını cavablandırarkən nümayiş etdirdiyi qətiyyət idi. Doğrudur, cənab Prezident bütün məqamlarda özünəməxsus qətiyyət nümayiş etdirir, ancaq Şuşada, bilavasitə Rusiya təmsilçisinin sualını cavablandırarkən (mən bu məqamda həmin cavabın yayılacağı ərazinin miqyasını xatırlatmağa çalışıram) nümayiş etdirdiyi qətiyyət qürurverici idi: "Hazırda danışıqlar masasında əsas məsələlərdən biri Ermənistanın rəsmi olaraq Azərbaycana qarşı ərazi iddialarından əl çəkməsidir. Onlar bunu şifahi şəkildə ediblər, bu, onların mövqeyidir. Biz onu qəbul etdik. Onların baş naziri dedi, "Qarabağ Azərbaycandır". Kaş ki, o, bunu 2019-cu ildə deyəydi. Amma o, Xankəndidə tamamilə başqa bir söz demişdi. Ancaq o, bu gün həmin sənədə öz imzasını qoymalıdır. Bizim sülh sazişimizin layihəsində belə bir bənd var ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası yoxdur. Çünki hazırda onların mövqeləri qeyri-müəyyəndir. Bir tərəfdən deyirlər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, amma digər tərəfdən də deyirlər ki, Qarabağdakı erməni icması da sülh danışıqlarına hər hansı bir şəkildə daxil edilməlidir. Bu məsələ mümkünsüzdür".

Bu arqumentləri eşitmək xoşdur. İnanırıq ki, ermənilər də bu xəbərdarlığı unutmayacaqlar. Ancaq İrəvan rəhbərliyi cənab Prezidentin təxminən, üç ay əvvəl səsləndirdiyi fikirləri də yadda saxlamalıdır: "Bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür. Ancaq, eyni zamanda, yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq. Ona görə bu sahədə – ordu quruculuğu və müdafiə potensialımızla bağlı olan bütün məsələlər əsas vəzifədir".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Şuşa Qlobal Media Forumunun sülh gündəliyi

**(əvvəli 1-ci səhifədə)**

Bəli, hər bir halda İrəvan sülhə gəlməlidir. Yalnız ona görə yox ki, mahiyyətini dərk etməsə də, bu onun üçün vacibdir. Eyni zamanda, o səbəbdən ki, Cənubi Qafqazda sülhün olması dünyaya lazımdır. Hətta, o qədər lazımdır ki, ona əngəl törədən qüvvələri belə sıradan çıxarmaq prioritet sayılır.

Deməli, hazırda sülhə gəlməkdən boyun qaçıran Ermənistan, necə deyərlər, odla oynamaqdadır. Prezident İlham Əliyev isə erməni avantürizminin mənfi təmayülünü hiss edəcək qədər tədbirlidir. İkinci Qarabağ müharibəsi bitən kimi ölkəmizdə müdafiə sahəsində dərin islahatlara başlanmasında da məqsəd tədbirli davranmaqdır: "Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür".

Bəli, Azərbaycan güclü olmağa məhkumdur. Ona görə ki, tarixin bizə verdiyi acı dərslər var. O dərslərdə ölkəmizə, xalqımıza qarşı ədalətsizliklər yer alır. Prezident İlham Əliyev bunlardan da geniş bəhs etdi. Ermənistan tərəfindən torpaqlarımızın işğalını, mövcud müstəvidə beynəlxalq hüquqa əhəmiyyətsiz yanaşmaları, BMT-nin qətnamələrinin saya salınmamasını, işğalın leqallaşdırılması istiqamətindəki cəhdləri vurğuladı. Dövlətimizin başçısı, həmçinin ölkəmizin belə mənfi hallara mətanətlə sinə gərdiyinə, çətinlikləri aradan qaldırdığına dair ayrı-ayrı epizodlara aydınlıq gətirməklə, 44 günlük müharibədəki Zəfərimizin əhəmiyyətini xüsusi vurğuladı.



***

Ölkə rəhbərinin fikirləri zəfərimizin verdiyi üstünlüklərin Azərbaycanla Ermənistan arasındakı sülh prosesinin hazırkı dinamikasını xarakterizə edir. Bilavasitə həmin prosesə gəldikdə isə Prezident İlham Əliyev ona vasitəçilik baxımından müxtəlif qütblərin mövcudluğu üzərində dayanır: "Hazırda üç beynəlxalq tərəf var ki, bu prosesdə dəstək olurlar – ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur. Çünki düşünürəm ki, Ermənistan son addımını atmalıdır".

Əlbəttə, dövlətimizin başçısı "nəticə yoxdur" deyərkən, heç də sülh prosesinin səmərəsizliyini vurğulamır. Sadəcə olaraq, haqlı maksimalist mövqedən çıxış edir. Bu mövqe qazanılmış müsbət nəticələrin rəsmiləşməsi zərurətini əsas götürməkdədir. Digər tərəfdən, "nəticə yoxdur" məntiqi həm də ona görə dövriyyəyə girir ki, Ermənistan hakimiyyəti sülh yoluna öz xoşu ilə gəlmir, buna məcbur qalır: "Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır".

Prezident İlham Əliyevin də vurğuladığı kimi, Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi qəbul edib. İndi qalır bu qəbullanmanın kağız üzərinə köçürülməsi. Dövlətimizin başçısının bildirdiyi kimi, bu, sonuncu mühüm məqamdır və ona çatmaq həm də regional sabitliyin və təhlükəsizliyin qərarlaşması prizmasında başlıca şərtdir. Hazırda Azərbaycan və Ermənistan arasındakı vasitəçilik institutu həmin şərtin ödənməsinin təminatı baxımından mühüm platformadır. Azərbaycan Prezidenti bu platformanın üç tərəfi üzərində dayanır – ABŞ, Rusiya və Avropa İttifaqı.

Mövcud xüsusda diqqətçəkən məqam cənab İlham Əliyevin tərəfləri fərqləndirməməsidir. Bu isə o deməkdir ki, Bakı üçün sülh yolunda hansı vasitəçiliyin uğur qazanmasının elə bir əhəmiyyəti yoxdur. Əsas olan Ermənistanın razılaşması, Azərbaycana qarşı ərazi iddialarından əl çəkməsi və 2023-cü ilin sonunadək sülh müqaviləsinin imzalanmasıdır: "Lakin, bu olmasa, biz onları məcbur edə bilmərik. Biz 28 il onları məcbur edə bilməmişik ki, beynəlxalq hüquqa riayət etsinlər. Yalnız bunu güc hesabına məcbur etdik. Lakin, bu halda sülh olmayacaq. Bu, bölgə üçün heç də yaxşı ssenari deyil, sabitliklə, təhlükəsizliklə nəticələnməyəcək. Lakin, eyni zamanda, çox həssas geosiyasi vəziyyəti nəzərə alsaq, gələcəkdə də çətinliklər yaradacaq. Beləliklə, bildiyiniz kimi, üç vasitəçi var. Bunların hər biri kifayət qədər beynəlxalq səviyyədə mexanizmlərdən istifadə edə bilər ki, müstəqil olaraq fəaliyyət göstərsin. Biz ümid edirik ki, bu üçündən birində təkamülü, irəliləyişi görəcəyik".

Azərbaycan Prezidentinin indi diqqətə çatdırdığımız iqtibasdakı fikirləri bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi, Cənubi Qafqaz platforması rəqabət meydanı olmamalıdır. İkincisi, vasitəçilər nüfuzludurlar və təsir imkanlarına malikdirlər. Onların bu imkanlardan maksimum yararlanması şərtdir. Həm də ona görə ki, beynəlxalq hüquq və ona əsaslanan mexanizmlər var. Üçüncüsü, əgər vasitəçilər nəticəyə gəlməyəcəklərsə, Azərbaycanın öz bildiyi yol var…

***

Cənab İlham Əliyev Ermənistanla sülh prosesindən söz açarkən, əsas vasitəçi qismində Rusiya və ABŞ-ı görür. Halbuki, əvvəllər bu sırada Fransa da var idi. İndi, o, prosesdən uzaqdır. Bəs düşünmək olarmı ki, Fransanın yerini Avropa İttifaqı tutur? Azərbaycan lideri qurumu rəsmi vasitəçi qismində görməsə də, onun səylərinin səmərəliliyini vurğulayır: "Ancaq Avropa İttifaqı rəsmi vasitəçi olmasa da, mən onu müəyyən təzyiqləri azaldan, iki liderin bir-biri ilə danışıqlar aparmasına və mövqelərini daha yaxşı başa düşmələrinə imkan verən amil adlandırardım".

Hesab edirik ki, Azərbaycan Prezidenti yuxarıdakı fikirləri səsləndirərkən, kifayət qədər diplomatik yanaşma ortaya qoyur, Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi üzrə vasitəçiliyə münasibətdə, belə demək mümkünsə, mühafizəkarlıq nümayiş edirir. Bəs, mühafizəkarlıq nə üçündür?

Dövlətimizin başçısı, ilk növbədə, vasitəçilik uğrundakı rəqabət mühitini yumşaltmaq yolu tutur. Hərçənd, Prezident İlham Əliyev bu rəqabəti təbii də sayır: "…Bəli, biz vasitəçilər arasında bu rəqabəti görürük. Bu isə qlobal rəqabətin bir parçasıdır, hətta o rəqabətin harada olmadığını tapmaq çətin olardı, yəni, Cənubi Qafqaz və Azərbaycan istisna deyil".

İkincisi, dövlətimizin başçısı ABŞ və Rusiyanın adını çəkməklə, vasitəçilik missiyasına qloballıq qazandırır. Üçüncüsü, Fransanın Aİ-yə ehtimal edilən təsirini hesablayır və sülh prosesini həmin təsirdən sığortalayır. Dördüncüsü, Aİ-dəki Fransa amili səbəbindən artıq keçmiş olan ATƏT-in Minsk qrupu formatının bərpası ilə bağlı nəzəri məqamları uzaqlaşdırır. Beşincisi, Cənubi Qafqazdakı münasibətlərin tənzimlənməmiş qalması müstəvisində məsuliyyət çevrəsini yığcam saxlayır ki, kənardan mümkün müdaxilələr qeyri-leqal xarakter daşısın.

Minsk qrupundan söz düşmüşkən, Azərbaycan lideri Şuşada keçirilmiş Qlobal Media Forumunda bu qrupun bərpası ilə bağlı səslənən iddialara da özünəməxsus diplomatikliklə cavab verdi. Əlbəttə, əvvəlcə hazırkı mərhələdə qurumun lazımsızlığını da əsaslandırdı və 2007-ci ilin "Madrid prinsipləri" adlandırılan sənədin bir çox müddəalarının artıq həllini tapdığını bildirdi. Daha sonra isə elə məqamları vurğuladı ki, onların reallaşdırılması, ATƏT-in Minsk qrupunun, necə deyərlər, yemi deyil. "…Mən hesab etdim ki, onlar fəaliyyətini davam etdirəcəksə, etimad, quruculuq tədbirləri həyata keçirə bilərlər və 10 noyabr 2020-ci il Bəyannaməsinin müddəalarının tam həyata keçirilməsinə nail olsunlar. Bildiyiniz kimi, iki müddəa hələ də həllini tapmayıb. Bunun birincisi, erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması, ikincisi isə Naxçıvana çıxışın təmin edilməsidir. Ermənistan hələ də bu iki müddəanı təmin etməyib. Bu, bir növ geosiyasi toqquşma nəticəsində Minsk qrupu artıq fəaliyyətinə son qoydu", – deyən cənab İlham Əliyev Minsk qrupunun yenidən canlandırılmasının qəbuledilməzliyini də əsaslandırmış oldu.

***

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi, sülh gündəliyi və vasitəçi tərəflər arasında rəqabət mühiti barədə fikirlərini səsləndirərkən, Rusiya amilinin üzərində dayanması da vacib məqamlardan biridir. Dövlətimizin başçısı İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Moskvanın təşəbbüsü öz üzərinə götürdüyünü deməklə, onun 10 noyabr Bəyannaməsinin hazırlanmasındakı rolunu qabartsa da, habelə Rusiyanın Azərbaycan və Ermənistanla bağlarını xatırlatsa da, mətləbi Kremlin vasitəçiliyinin uğur qazanmaması üzərinə gətirdi. Əlbəttə, bunu da özünəməxsus diplomatiklıklə etdi, mövcud müstəvidə də haqqında söz açdığımız qlobal rəqabətin Azərbaycan üçün həlledici faktor olmadığını önə çəkdi: "Daha sonra biz, əlbəttə, gördük ki, Rusiyanın digər məsələlərə bir balaca başı qarışdı və rəqiblər belə demək olarsa, fürsətdən istifadə etdilər. Bu rəqabətin Cənubi Qafqaza hansı təsiri olacağını demək çətindir. Mənim üçün Prezident olaraq hər zaman vacib olub, hətta işğal dövründə də vacib olub ki, Azərbaycan rəqabət meydanına çevrilməməlidir. Bu, bizim üçün və istənilən ölkə üçün ən pis ssenaridir".

Bəli, Azərbaycan özünü hansısa qüvvələrin rəqabət meydanı qismində görmür və buna yol verməməkdə israrlıdır. Ancaq eyni sözləri Ermənistan barədə söyləmək mümkünsüzdür. İrəvanın aydın siyasi xətti yoxdur və buna görə özünü rəqabət üçün təklif edən ampluasındadır. Əlbəttə, bu, son dərəcə təhlükəlidir. Prezident İlham Əliyev aşağıdakı fikirləri ilə, əslində, Ermənistan hakimiyyətinin ölkəni təhlükəli sularda üzməyə sövq etdiyini diqqətə çatdırmış oldu: "Biz bu gün görürük ki, məhz bu, Ermənistanda baş verir. Ermənistan elə bir ölkəyə çevrilir ki, orada ciddi rəqabət gedir və bu, ciddi problemlər yarada bilər. Təkcə Rusiya və Amerika deyil, digər ölkələr də bu prosesə fəal surətdə qoşulurlar. Hesab edirəm ki, Ermənistan hökumətinin hazırda aydın xarici siyasət strategiyası yoxdur. İkinci Qarabağ müharibəsinə qədər müəyyən strategiyaları var idi. Bu gün isə bu, yoxdur və bu da onlar üçün ciddi nəticələr yaradacaq".

Ermənistan iqtidarının qeyri-ciddi obrazından söz düşmüşkən, Prezident İlham Əliyev Şuşadakı Qlobal Media Forumundakı çıxışında bunun Bakı–İrəvan münasibətlərinin hazırkı trayektoriyası baxımından mühüm əhəmiyyət daşıyan bir cəhətinə də toxundu. Söhbət Azərbaycanın ərazi bütövlüyünü tanıyan Ermənistanın sülh sazişinə Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyi ilə bağlı müddəa əlavə etmək cəhdlərindən gedir. "Bizim sülh sazişimizin layihəsində belə bir bənd var ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası yoxdur. Çünki hazırda onların mövqeləri qeyri-müəyyəndir. Bir tərəfdən deyirlər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, amma digər tərəfdən də deyirlər ki, Qarabağdakı erməni icması da sülh danışıqlarına hər hansı bir şəkildə daxil edilməlidir. Bu məsələ mümkünsüzdür. Mətnlə bağlı müəyyən təkliflər var. Onlar milli azlıqların hüquqları və təhlükəsizliyi ilə bağlıdır və bu, hər iki ölkəyə aiddir", – deyən Azərbaycan Prezidentinin mövcud xüsusda Qərbi Azərbaycan məsələsini qabartması tam məntiqidir. Dövlətimizin başçısı vurğulayır ki, Ermənistan Qarabağda yaşayan erməni əhalisinin hüquqları haqqında danışırsa, biz Zəngəzurda və Göyçədə, İrəvanda azərbaycanlıların hüquqları haqqında danışmalıyıq və bu, qarşılıqlı şəkildə olmalıdır.

Sonda bir məqamı da vurğulayaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanla münasibətlər müstəvisində nikbinliyini də ifadə etdi. Bu nikbinliyin danışıqlarla bağlılığını qabartdı. Yekun mərhələyə çatılacağına ümidli olduğunu vurğuladı. Ancaq dövlətimizin başçısının sözlərindən bu da anlaşıldı ki, nəticə üçün nikbin deyil, real olmaq lazımdır. Reallıq isə proqnozlaşdırıla bilən təbiətə malikdir. Ermənistan hakimiyyəti qeyri-ciddi davranırsa, deməli, onun bundan sonrakı hərəkətlərinə dair proqnoz vermək də çətinləşir. Həm də ona görə ki, erməni iqtidarı reallıq hissindən uzaqdır. Bu uzaqlıq ölkəni hansı perspektivə daşıyacaq, gedişatı əlahəzrət zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Mina xəritələrinin gizlədilməsi də terrordur

(əvvəli 1-ci səhifədə)

Torpaqlarımızın ermənilər tərəfindən minalarla çirkləndirilməsi ilə bağlı bu məqaləmizdə nasistlərin cinayətlərindən söz açmağımız təsadüfi deyil. Məsələ ondadır ki, Ermənistanda son 35 ildən artıq dövrdə mövcud olan rejimlərin hamısının törətdikləri əməllər Hitler Almaniyasının etdiklərinin eynidir.

Ermənistanda 2018-ci ilin mayında bərqərar olan Nikol Paşinyan rejiminin Azərbaycana qarşı təxribatları nəticəsində 2020-ci ilin sentyabrın 27-də sübh çağı başlayan Vətən müharibəsi hayların baş nazirinin həmin ilin noyabrın 9-dan 10-na keçən gecə gizli şəkildə kapitulyasiya aktını imzalaması ilə nəticələndi. Ancaq, çox təəssüf ki, azərbaycanlılara qarşı soyqırımları törədən, mülki infrastrukturumuzu məqsədyönlü şəkildə kütləvi miqyasda dağıdan, mədəni irsimizi məhv və talan edən, saxtalaşdıran, ətraf mühitimizə və biomüxtəlifliyə sağalmaz yaralar vuran, mülki əhalimizin, girov və əsir götürülmüş vətəndaşlarımızın başına olmazın oyunlar açan, o cümlədən gələcəkdə azərbaycanlıların həlak olması üçün ərazilərimizi minalarla çirkləndirən Ermənistanda mövcud olmuş rejimlərin başçıları hələ də layiqli cəzalarını almayıblar. O cümlədən mina terroru hələ də həmvətənlərimizi həyatdan məhrum etməyə davam edir, yaxud onların ağır xəsarət almalarına səbəb olur.

***

Ermənistanın mina terroru iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılışında çıxış edən Prezident İlham Əliyevin toxunduğu əsas məsələlərdən biri olub. "Yaxın Şərq" xəbər agentliyinin təmsilçisi Məcid Şalkinin minaların insanların gündəlik həyatına necə təsir etməsi, həm də inkişaf layihələrinə necə mane olması ilə bağlı sualını cavablandıran dövlət başçımız deyib: "Bəli, siz ən vacib məsələyə toxundunuz. Çünki minalar müharibə bitəndən sonra üç yüzdən artıq insanın həyatına son qoyub və ya onları ağır şəkildə yaralayıbdır. Yəni, üç yüzə yaxın minanın partlaması azad olunmuş ərazilərdə baş vermişdir. Bu isə müharibə cinayətidir, minaları basdırmaq müharibə cinayətidir. Amma həmin minaların xəritəsini təqdim etməməsi Ermənistanın bizə qarşı olan terrorunun davamıdır. Biz bilirik ki, o xəritələr onlarda var, çünki minalar məhz belə basdırılır. Minaları basdıranların əlində xəritə olur, çünki onlar özləri həmin minaya düşə bilərlər. Əvvəl onlar ən yüksək səviyyədə Ermənistan baş naziri şəxsən rəsmi bizə deyirdi ki, onlarda belə bir xəritələr yoxdur. Nəhayət, boyunlarına aldılar ki, belə bir xəritələr var. Bəs, nəyə görə bizə yalan deyirdilər? Çünki istəyirdilər ki, azərbaycanlılar ölməkdə davam etsinlər, şikəst olsunlar. Onlar daha sonra bizə mina xəritələrini təqdim etdilər. Amma həmin xəritələrin dəqiqliyi heç 25 faiz deyildi. Yəni, bunun heç bir mahiyyəti yox idi. Bu, çox mənasız xəritələr idi".

Prezident İlham Əliyev qeyd edib ki, biz minalardan azad olmaqla bağlı ciddi səylər göstəririk, tədbirlər həyata keçiririk. Biz avadanlıq almışıq, xüsusi maşınlar gətirmişik. Bizim yerli şirkətlərdən biri artıq Azərbaycanda onları istehsal etməyə başlayıb. Biz özəl şirkətləri dəvət etmişik və bu istiqamətdə bir neçə özəl şirkət yaradılıbdır, onlar da bu prosesə qoşulublar. Bizim dövlət minatəmizləmə agentliyimiz ANAMA Müdafiə Nazirliyinin müvafiq bölmələri və Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri ilə birlikdə gecə-gündüz çalışırlar ki, əraziləri minadan təmizləsinlər. Ancaq bizdə olan hesablamaya görə, ərazilərimizdə bir milyondan artıq mina basdırılıb. Ermənilərin bizə verdiyi xəritə təqribən 400 min minanı əhatə edir. Yəni, onlar etiraf etdilər ki, 400 mindən artıq mina basdırıblar. Ancaq biz bilirik və bu, olduqca dəqiq məlumatdır ki, minaların sayı 1 milyona yaxındır. Biz beynəlxalq şirkətlərdən bir neçə təklif almışıq ki, onlar bu sahədə işləsinlər. Təəssüf ki, qiymət çox yüksək idi. Mən təfərrüata varmaq istəmirəm, ancaq bu rəqəm bizdə olan rəqəmlərlə müqayisədə 8-10 dəfə artıq idi. Yəni, bizim yerli şirkətlərimiz və ANAMA minatəmizləmə fəaliyyətini beynəlxalq şirkətlərlə müqayisədə 8 və ya 10 dəfə ucuz həyata keçirir.



Göründüyü kimi, dövlətimizin başçısı 49 ölkədən 150 qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun iştirak etdiyi forumda Ermənistanın törətdiyi ağır müharibə cinayətlərini diqqətə çatdırıb.

***

Prezident minatəmizlə prosesində dronlardan fəal şəkildə istifadə edildiyini vurğulayıb. Qeyd edib ki, bizim bəzi parlaq zəkaya malik insanların sayəsində artıq belə dronlar var: "Bu, bizə böyük yardım olur. Ancaq biz dərk edirik ki, bu, çox uzun bir prosesdir. Təəssüflər olsun, bilməliyik ki, gələcəkdə də qurbanlar olacaqdır, ermənilərin bizə qarşı terroru davam edir. Minalardan təmizlənməmiş əraziləri biz təcrid etmişik və azad olunmuş ərazilərə hələ də giriş məhduddur. Bu, bizə imkan verir ki, itkilərin qarşısını alaq. Ancaq keçmiş məcburi köçkünlər kütləvi şəkildə qayıdanda çox ehtiyatlı olmalıdırlar. Mən buradan onlara müraciət edirəm ki, icazə olmayan ərazilərə səfər etməsinlər. Bu, olduqca təhlükəlidir. Bu, ən böyük təhlükələrdən biridir. Təəssüf ki, bizi qarşıda uzun illər belə bir təhlükə gözləyir".

Prezident İlham Əliyevin minaların sayının 1 milyona yaxın olması ilə bağlı açıqlaması Ermənistanın faşist dövləti olduğunu, işğal dövründə torpaqlarımızda insanlığa sığmayan əməllər törətdiyini bir daha göstərir. Belə çıxır ki, 30 ilə yaxın davam edən işğal dövründə onların işi-gücü ancaq mina basdırmaqdan ibarət olub. Bu hərəkət, eyni zamanda, hayların azərbaycanlılara necə dərin nifrət hissi bəslədiklərinin daha bir nümunəsidir.

Heyrət doğuran əsas məsələ isə bu nifrətin səbəbsiz olmasıdır. Yəni, azərbaycanlılar hayların bu nifrətinə səbəb olmaq üçün heç nə etməyiblər. Əksinə, onlarla hər zaman xoş davranıblar. Bu xoş davranış qarşılığında hayların etdikləri onların xəyanətkar xislətindən xəbər verir. Ancaq onlar bilməlidirlər ki, müdrik, namuslu və zəhmətkeş Azərbaycan xalqı bu çətinliyin də öhdəsindən gələcək, tarixən cənnət adlandırılan, məhsuldar, barlı-bərəkətli Qarabağ torpağı yenə əvvəlki günlərinə qayıdacaq. Bu gözəl diyar minalardan tam təmizlənəcək, yenə insanlarla dolub-daşacaq. Xain hayların etdiyi pisliklər isə insanlıq adına utanc olmaqla bəşəriyyətin tarixində qara ləkə kimi qalacaq.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**İlqar VƏLİZADƏ,**
**siyasi şərhçi**

– Prezident İlham Əliyevin Şuşadan səsləndirdiyi fikirlər, əslində, çox vacib çağırışlardır. Çünki işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi çox aktualdır. Təəssüf ki, bu məsələ öz aktuallığını hələ bir müddət saxlayacaq. Bu, keçmiş məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması prosesini xeyli ləngidir. Bu baxımdan onlar ehtiyatlı olmalıdırlar. Aydın məsələdir ki, işğaldan azad olunmuş ərazilərə yurd-yuva həsrəti ilə yaşayan yaşlı nəslin nümayəndələri ilə yanaşı, yeni həyat qurmaq, əkin-biçin, quruculuq məqsədilə gənclər də qayıdacaqlar. Bu çağırışlar onların ehtiyatlı davranmaları üçündür.

Hazırda həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonlarında geniş tikinti-quruculuq işləri aparılır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, 10 min kvadratkilometri əhatə edən ərazidə durmadan gecə-gündüz işlər gedir. Azərbaycan ictimaiyyəti də həm planlar, həm də görülmüş işlər haqqında vaxtaşırı məlumatlandırılır. Şəhərlərin baş planları təsdiq olunanda həmin şəhərlərdə yaşamış insanların rəyi də nəzərə alınıb. Dövlətimizin başçısı şəhərlərin bərpasının təməlqoyma mərasimini keçmiş məcburi köçkünlərlə birlikdə həyata keçirib. Bu onu göstərir ki, dövlət otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunmalarını istəyir.

# Bakı bəyan edir: Ankara tamhüquqlu tərəfdir

## İki qardaş ölkə arasında imzalanmış Şuşa Bəyannaməsi isə Azərbaycanın bütün ərazisində Türkiyəni hüquqi tərəfə çevirib

(əvvəli 1-ci səhifədə)

### Sülhməramlılar hansı tərəfin tələbatını ödəyir?

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın NATO-nun Vilnüs Zirvə toplantısından sonra mediaya verdiyi Rusiya sülhməramlılarının 2025-ci ildə Qarabağdan çıxmasına dair açıqlamasına "Ankara üçtərəfli bəyanatın tərəfi deyil" formasında münasibət bildirib. Rəsmi Moskva bununla Ankaraya öz mesajını çatdırmış oldu: "Yəni, Türkiyə Qarabağ məsələsinə qarışmamalıdır".

Amma postmüharibə dövrünün yaratdığı reallıqlar və ortada olan hüquqi və hərbi əsaslar Zaxarovanın dediyindən fərqli həqiqəti diktə edir. Rusiya XİN rəsmisinin açıqlamasında istinad etdiyi 2020-ci il 10 noyabr Bəyanatının 5-ci bəndində qeyd olunur: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır". Məhz həmin razılaşmaya əsasən, Ağdamda Türkiyə–Rusiya Birgə Monitorinq Mərkəzi təşkil edildi, türk əsgəri də qarşılıqlı razılaşmaya uyğun olaraq, bölgəyə daxil oldu. İndi monitorinq mərkəzinin konkret əməli fəaliyyətinin nə qədər səmərəli və effektiv olub-olmaması məsələsini kənara qoyaq. Fəqət üçtərəfli razılaşmaya əsasən, Ağdama əsgər göndərən Türkiyə bu razılaşmanın hüquqi (de-yure) tərəfidir. Qarabağda fəaliyyət qiymətləndirməsinə baş vursaq, onda gərək iki il dörd aydan sonra bölgəni tərk edəcək Rusiya sülhməramlı kontingentinin öz funksiyasını, həmin üçtərəfli bəyanatla boynuna düşən öhdəliyi yerinə yetirmə əmsalına gərək "iki" yazaq. Amma Rusiya XİN-in rəsmi nümayəndəsi brifinqdə bildirir ki, sülhməramlılar regionda mühüm sabitləşdirici rol oynayırlar. Onların əsas funksiyası atəşkəs rejimini qorumaqdır: "Bölgədə gərgin vəziyyətin davam etdiyini nəzərə alsaq, onların fəaliyyətinə daha çox tələbat var. Cənubi Qafqazda sülhün qorunması İrəvan və Bakının, o cümlədən, Ankaranın da daxil olduğu regional oyunçuların maraqlarından irəli gəlir".

Sülhməramlıqları müəmmalı görünən rus hərbçilərinə kimin "tələbat" hiss etdiyini, ya da onların kimin "tələbatını" ödədiyi artıq şübhəli görünür. Xüsusilə son aylar Ermənistan və Azərbaycan arasındakı şərti sərhəddə, eləcə də sülhməramlıların nəzarətində olan Qarabağda erməni separatçılarının törətdiyi hərbi təxribatlar bu şübhələrə əsas verir.

### Ankara konkret sözünü deyir

Türkiyənin rus sülhməramlıların zamanı çatanda Qarabağdan çıxmasını səsləndirməkdə tam hüquqi əsası var. 2020-ci il 10 noyabr Bəyanatının 4-cü bəndində qeyd olunur ki, üçtərəfli razılaşmanı imzalamış tərəflərdən hər hansı biri sülhməramlı missiyanın bitmə müddətinə 6 ay qalmış buna xitam verilməsi üçün müraciət edə bilər. İndi bölgədə hadisələrin dinamikası, sülh danışıqları ətrafında cərəyan edən proseslər məhz bu sonluğa doğru inkişaf etməkdədir. Bu məqamda Ankaranın konkret mövqe sərgiləməsini də həmin reallıq şərtləndirir. Təbiidir ki, bu yerdə Moskva arsenalındakı bütün "diplomatik hücum vasitələrini" işə salmağa məcburdur. Ona görə də narazılıqlarını büruzə verir. Onu da qeyd etməyi zəruri sayırıq ki, hazırda regional və beynəlxalq müstəvilərdə müşahidə edilən ziddiyyətli geostrateji gəlişmələr fonunda Türkiyə–Azərbaycan strateji müttəfiqliyinin önəmi daha aydın şəkildə nəzərə çarpır. Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra bu müttəfiqlik çoxvektorlu xarakter aldı. Müxtəlif platformalarda aparılan sülh danışıqlarında, zirvə görüşlərində Bakı daim yanında Ankaranın mənəvi və siyasi dəstəyini görür, doğma nəfəsini hiss edir. Bu mənada Türkiyə bizim ən yaxın və sadiq müttəfiqimiz, eyni zamanda bölgədə icraçısı və iştirakçısı olduğumuz bütün layihələrdə tərəfdaşımızdır.



Bu da danılmaz həqiqətdir ki, Xəzər və Qara dəniz hövzələrini əhatə edən böyük bir coğrafiyada siyasi proseslərin gedişatını, bölgənin iqtisadi cəhətdən inkişafını, xüsusilə də təhlükəsizlik məsələlərini Azərbaycan-Türkiyə əməkdaşlığından kənarda təsəvvür etmək qeyri-mümkündür. İki qardaş ölkənin öz tərəfdaşları ilə birlikdə həyata keçirdiyi nəqliyyat, enerji layihələri artıq qlobal əhəmiyyət daşıyır, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

### Dünyada bu tərəfdaşlığın analoqu yoxdur

Azərbaycan və Türkiyə arasındakı siyasi, iqtisadi, mədəni, eləcə də başqa sahələrdə əlaqələr dünya ölkələri üçün bir örnəkdir. Aybaay, günbəgün intensivləşən bu münasibətlər dostluğun, qardaşlığın zirvə nöqtəsi sayıla bilər. İki ölkə arasında dostcasına, qardaşcasına formalaşmış qarşılıqlı münasibətlərin anatomiyası hələ XX əsrin əvvəllərində Türkiyənin böyük dövlət xadimi, Qazi Mustafa Kamal Atatürkün ifadə etdiyi "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", XX əsrin sonlarında isə dünya şöhrətli siyasətçi, ulu öndərimiz Heydər Əliyevin dilə gətirdiyi "Bir millət, iki dövlət" kəlamlarda öz əksini tapıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aşağıdakı sözləri isə iki ölkə arasındakı çağdaş əlaqələrin xarakterini tam mənasında ehtiva edir: "Həm siyasi, həm iqtisadi, həm də başqa sahələrdə bizim əlaqələrimiz bütün ölkələr üçün örnəkdir. Mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir. Bu, həm tarixi və etnik köklərə əsaslanan həqiqətdir, eyni zamanda, biz – iki qardaş ölkə öz siyasətimizlə bu birliyi daha da möhkəmləndirdik".

"Bir millət, iki dövlət" prinsipinə söykənərək tərəqqi edən münasibətlərin yüksək səviyyədə olduğunu bildirən Azərbaycan Prezidenti İlham Əliyev hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin ikitərəfli siyasi və iqtisadi əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynadığını xüsusi olaraq vurğulayır: "Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr çox uğurla inkişaf edir. Son iyirmi ilə yaxın müddətdə Türkiyə ilə Azərbaycan arasında əlaqələr daim yüksək səviyyədə olmuşdur. Bu gün bu gözəl ənənələr davam edir və bütün məsələlərdə əməkdaşlığımız yaxşı nəticələr verməkdədir.".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana son səfəri zamanı keçirdiyi görüşlərdə hər iki dövlətin irəli sürdüyü yüksək səviyyədə Strateji Əməkdaşlıq Şurasının qurulması üçün verilən qərar da Türkiyə ilə Azərbaycan arasında gələcəyi əhatə edən və ikitərəfli münasibətlərdə atılan mühüm addımlardan biridir.

Türkiyə Azərbaycan üçün bütün dövrlərdə və bütün məsələlərdə güvənilən tərəf olub. Necə ki Qarabağ münaqişəsinin həllində də tərəf olaraq qəbul edilib. Bölgədə Türkiyə–Azərbaycan əməkdaşlığı, işbirliyi və tərəfdaşlığı olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz. Bunu Cənubi Qafqaza gözlərini zilləmiş heç kəs unutmamalıdır.

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**beynəlxalq münasibətlər üzrə ekspert**

Türkiyə Ağdamda Rusiya ilə Birgə Monitorinq Mərkəzində tərəfdaşdır. Bəyanat üç ölkə arasında imzalanıb və Türkiyə orada yoxdur, – demək qətiyyən doğru deyil. Türkiyə orada var. Hətta adı üçtərəfli sənəddə keçməsə belə, onda niyə Monitorinq Mərkəzində fəaliyyət göstərir? Sadəcə aydındır ki, Rusiya Ermənistan və Azərbaycan arasında məhz postmünaqişə mərhələsini qəbul etmək istəmir. Onun üçün hələ də Ermənistan–Azərbaycan münaqişəsi öz qüvvəsində qalır. Bununla da Kreml Cənubi Qafqazda özünün təsir imkanlarını saxlayacağını düşünür. Amma faktiki olaraq bölgədə cərəyan edən hadisələr onu göstərir ki, Ermənistanın özündə də Rusiyanın təsiri xeyli zəifləyib. Yəni, münaqişə üzərində idarəetmə prinsipi, konsepsiyası artıq işləmir. Moskva həm də ona görə çox narahatdır ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalana bilər və bu faktın özü onun üçün münaqişənin arzuedilən sonluğu deyil. Çünki tərəflər arasında sülh sazişi imzalananda Rusiyanın burada mövqeyi zəifləyəcək, təsir rıçaqlarının effekti də sıfıra enəcək.

# Heydər Əliyev və milli media modeli

**Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.**

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***



Görkəmli dövlət xadiminin "Literaturnaya qazeta"nın 18 noyabr 1981-ci il tarixli nömrəsində dərc olunan "Qoy ədalət zəfər çalsın!" müsahibəsi sovet quruluşundan irəli gələn cəmiyyətdəki eybəcərlikləri – rüşvətxorluq, vəzifədən sui-istifadə, dövlət əmlakını mənimsəmə kimi mənfi hallara qarşı kəskin mübarizə mövqeyindən çıxış etmişdi. Həmin dövrlərdə belə bir görünməmiş addım bütün SSRİ-yə səs salmışdı. Dahi şəxsiyyət Heydər Əliyev sübut etmişdi ki, "ideal" sovet quruluşu, əslində, başdan-başa eybəcərliklər və nöqsanlardan ibarətdir. Ulu öndər böyük cəsarətlə bəyan etmişdi ki, "ədalətli", "humanist" sovet idarəetmə sistemi adı altında illərdir, yığılıb qalan, gizlədilən problemlərin yeganə həlli yolu onları üzə çıxarmaq və həmin eybəcərliklərə qarşı açıq-aşkar mübarizə aparmaqdır.

Bu müsahibə, əslində, SSRİ məkanında ilk dəfə olaraq cinayətkarlığa və korrupsiyaya qarşı açıq meydan oxumaq idi. İdeoloji dayaqlarını özünü dünyadan təcrid etməklə qoruyub saxlayan, məhvərini beynəlxalq mühitə qapalılıqla "sarsılmaz" edən bir ölkədə, özü də kifayət qədər böyük nüfuza malik siyasi rəhbər tərəfindən cəmiyyətdə kök salmış neqativ halların açıq şəkildə təhlil və tənqid olunması o dövr üçün sovet cəmiyyətində qaranlıqlara işıq salan, qulaqlarda gurlayan şimşək effekti vermişdir. Bu müsahibə ilə Sov. İKP Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev ötən əsrin 80-ci illərinin sonlarına yaxın "aşkarlıq", "yenidənqurma" tezislərinin ortaya atılmasından, keçmiş sovet imperiyasının süquta uğramasından çox-çox əvvəl böyük siyasi uzaqgörənliklə bu prosesləri qabaqlayaraq, gələcək müstəqil Azərbaycanın demokratik cəmiyyət quruculuğunun ilk kodekslərini təqdim etmişdir.

Bəzi məsləksiz kütləvi informasiya vasitələrinin də "müstəsna xidmətləri" nəticəsində təhdid, iftira və böhtanlara məruz qalmaq yolu ilə, tutduğu vəzifədən uzaqlaşdırılan, doğma yurdu Naxçıvana yenicə qayıtmış iki dəfə Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan KP MK-nın birinci katibi, Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində işləmiş dahi şəxsiyyət Heydər Əliyevin "Şərq qapısı" qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan "Daha susa bilməzdim" adlı müsahibəsi ulu öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibə kimi xüsusilə diqqəti cəlb edir. O, müsahibədə bir sıra qüvvələrin, xüsusilə də bəzi kütləvi informasiya vasitələrinin ona qarşı ədalətsizliyi, partiya orqanlarının müvafiq dairələrinin əli ilə qarayaxma kampaniyası aparılması haqqında, Azərbaycan Respublikasının Moskvadakı Daimi Nümayəndəliyinə gələrək 20 Yanvar faciəsinə kəskin etirazını bildirdikdən sonra bu təzyiqlərin daha da artması ilə bağlı cəsarətlə məlumat vermişdir. Ulu öndərin böyük cəsarət və qətiyyətlə, siyasi uzaqgörənliklə səsləndirdiyi "İndi hər bir adama, hər bir xalqa, hər bir siyasi təşkilata və siyasi qüvvəyə öz taleyini müstəqil müəyyən etmək imkanı verilməlidir" – fikrinin sovet ideologiyasının, sovet senzurasının hələ "ölmədiyi" bir vaxtda qəzetdə dərc olunması mətbuat orqanı üçün də böyük qətiyyət və cəsarət idi.

Müsahibə görkəmli siyasi xadimin son altı il ərzində ölkədə gedən yenidənqurma proseslərini dərindən təhlil etməsi, ölkədə yaranan siyasi vəziyyəti öz fikrini söyləmək, respublikaların öz suverenliyi və müstəqilliyi uğrunda mübarizə aparmaq imkanı kimi dəyərləndirməsi, "Mən Azərbaycanın iqtisadi və siyasi suverenliyinin, tam müstəqilliyinin tərəfdarıyam" kimi cəsarətli çağırışı, deputatlığa namizəd kimi səsləndirdiyi "Siyasi və iqtisadi cəhətdən suveren, müstəqil Azərbaycan uğrunda mübarizə aparmaq" platformasını bəyan etməsi ilə müasir siyasi tariximizdə müstəsna yer tutur. Dahi Nizaminin "Qoy ədalət zəfər çalsın!" misrası əsrlər sonra daha böyük siyasi məna əxz etmiş, "Daha susa bilməzdim" ifadəsi ilə birgə aforizmə, milli demokratiya şüarına çevrilmişdir.

**Ulu öndər hələ dövlət təhlükəsizlik orqanlarında çalışdığı illərdə, xüsusən də Azərbaycan KP MK-nın birinci katibi olarkən mətbuatla sıx təması öz iş prinsipinin başlıca istiqamətlərindən birinə çevirmişdi. Bu, ondan irəli gəlirdi ki, dahi şəxsiyyət hər zaman güclü təbliğat və təşviqat maşını olan mətbuatın insanları səfərbər etmək, onları təşkilatlandırmaq imkanlarını çox gözəl bilirdi. Ona görə də hələ totalitar sovet rejimi dövründə, sovet senzurasının tüğyan etdiyi bir zamanda mətbuatın cəmiyyətdə demokratik düşüncə, sərbəst fikir və mühakimə formalaşdırmaqdakı roluna böyük əhəmiyyət vermişdir. 70-80-ci illərdə cəmiyyəti düşündürən, narahat edən bütün problemlər məhz onun şəxsi təşəbbüsü ilə bu və ya digər formada mətbuata çıxarılırdı. Bu barədə kifayət qədər fakt olduğu üçün müəyyən konturlara diqqət yönəltməyi məqsədəuyğun hesab etdik.**

Ümummilli lider respublikada hakimiyyətinin hər iki dövründə mətbuata həmişə böyük yaradıcılıq sərbəstliyi, demokratik meydan yaratmış, özünün də dəfələrlə qeyd etdiyi kimi, müstəqil, demokratik mətbuatın inkişafına xüsusi əhəmiyyət vermişdir: "Ölkəmizdə siyasi plüralizmin tələblərinə dönmədən əməl edilir. Söz, fikir və əqidə azadlığının təmin olunması, kütləvi informasiya vasitələrinin hərtərəfli inkişafı, onların sərbəst fəaliyyəti üçün zəruri şəraitin yaradılması Azərbaycanın dövlət rəhbəri kimi mənim qarşımda duran mühüm vəzifələrdəndir".

Ulu öndərimizin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə hüquq islahatlarının ayrılmaz hissəsi kimi kütləvi informasiya vasitələrinin daha da müstəqilləşməsi, demokratikləşməsi istiqamətində davamlı siyasət həyata keçirilməyə başlandı. Mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində də ardıcıl işlər görüldü. Mətbuatın müstəqilliyinə və fikir plüralizminə xidmət edən möhkəm qanunçuluq bazası yaradılması medianın inkişafında da ciddi dönüşə səbəb oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli fərmanı ilə 27 oktyabr 1996-cı ildə Nazirlər Soveti yanında yaranmış Mətbuatda və Digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi.

Dahi şəxsiyyətin demokratik dövlət quruculuğunun mühüm amili kimi ölkəmizdə senzuranın rəsmən ləğv edilməsi ilə bağlı imzaladığı bu fərman cəsarətli, prinsipial addım idi. Böyük uzaqgörənliklə qəbul edilmiş bu qərar kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi. Mətbuat cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməyə başladı. Mətbuat və İnformasiya Nazirliyinin ləğvi kütləvi informasiya vasitələrinin təsis olunmasını və onlardan istifadə qaydalarını asanlaşdırdı.

Azərbaycan Avropa Şurasına üzvlüyə qəbul edildikdən sonra ölkədə aparılan demokratik islahatlar söz və mətbuat azadlığının daha geniş bərqərar olmasına imkan yaratdı. Dahi rəhbərin 1999-cu il 7 dekabr tarixdə "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanun imzalaması bu prosesi daha da sürətləndirdi.

Jurnalistlərlə sıx təmasda olan, kütləvi informasiya vasitələrinin mövcud problemləri ilə yaxından maraqlanan Heydər Əliyevin adı mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsinə, iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi qayğı göstərməsi ilə də böyük siyasi xadim kimi tarixə həkk olunmuşdur. 2001-ci il dekabrın 18-də aparıcı KİV rəhbərləri ilə görüşən ulu öndər jurnalistikanın üzləşdiyi bir sıra çətinliklərin aradan qaldırılması üçün kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında fərman və sərəncamlar imzaladı.

2001-ci ildə Azərbaycan jurnalistlərinin I Qurultayının keçirilməsi və Cənubi Qafqazda ilk dəfə Azərbaycanda Mətbuat Şurası adlanan özünütənzimləmə təsisatı yaradılması da milli mətbuat tarixindəki mühüm hadisələrdəndir.

2001-ci il mayın 11-də ulu öndərin "Kütləvi İnformasiya Vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" imzaladığı fərman müstəqil mətbuatın inkişafında əhəmiyyətli rol oynayan tarixi sənəddir.

Görkəmli dövlət xadiminin bir sıra KİV-lərə dövlət tərəfindən güzəştli kreditlər verilməsi, qəzetlərin əlavə dəyər vergisindən azad edilmələri, onların maddi-texniki bazasının daha da gücləndirilməsi, ölkəyə gətirilən qəzet kağızı üçün dövlət rüsumunun ləğvi, qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının 2005-ci ilədək dondurulması ilə bağlı qəbul etdiyi qərarlar mətbuatla bağlı müasir tələblərə cavab verən qanunvericilik aktlarıdır.

Təsadüfi deyildir ki, 2002-ci ilin martında ABŞ Dövlət Departamentinin yeni müstəqil respublikalarda demokratiyanın vəziyyətini əks etdirən illik hesabatında dahi siyasətçi Heydər Əliyevin Azərbaycanda insan və hüquq azadlıqlarının, o cümlədən söz və mətbuat azadlığının da təmin olunması ilə bağlı fəaliyyəti yüksək dəyərləndirilir.

Azərbaycan milli mətbuatının daha da inkişaf etdirilməsi sahəsindəki bütün bu xidmətlərinə görə dahi şəxsiyyət Heydər Əliyev 2002-ci ilin martın 22-də "Ruh" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi "Jurnalistlərin dostu" mükafatına layiq görülür. Müdrik dövlət rəhbəri Heydər Əliyev fəaliyyəti boyu ölkə mətbuatını təmsil edən jurnalist kollektivləri ilə görüşlərində mətbuatın problemlərini, mövcud nöqsanlarını da göstərir, dəyərli tövsiyələr verirdi. Belə ki, Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi münasibəti ilə 21 iyul 2000-ci ildə milli jurnalistikamızın tanınmış nümayəndələrinin peşə bayramını təbrik edən ulu öndərimiz 2001-ci il dekabrın 18-də Prezident sarayında ölkəmizdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşmüş, 2002-ci il iyulun 25-də Prezident sarayında Bakı Mətbuat Klubunun təsisçilərini qəbul etmişdir.

Peşəkar milli jurnalistikanın inkişafı ölkədə söz və mətbuat azadlığının qarantı olan ümummilli liderin adı ilə bağlıdır. Böyük siyasi xadim xarici səfərlər zamanı brifinqlər, mətbuat konfransları keçirərək respublikanın ictimai-siyasi, sosial-iqtisadi həyatında baş verən hadisələrlə bağlı xalqa operativ və obyektiv informasiya çatdırılmasını təmin edirdi.

Qeyd etmək yerinə düşər ki, Azərbaycançılıq fəlsəfəsinə söykənən və yüzilliklərə hesablanmış Heydər Əliyev siyasi irsinə varisliyi şərəf və ləyaqətlə üzərinə götürən Prezident İlham Əliyev ulu öndərimizin ölkədə azad mətbuatın inkişafı sahəsində müəyyən etdiyi siyasəti də uğurla davam etdirir. Mətbuatımızın qabaqcıl və mütərəqqi ənənələrə əsaslanmaqla, xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayan Prezident İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın əsası hesab edir: "Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda, o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur".

Dövlət başçısının 2005-ci il 20 iyun tarixli sərəncamına əsasən Azərbaycan milli mətbuatının 130 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, ilk dəfə olaraq mətbuat işçilərinin çoxsaylı mükafat, orden və medallarla təltif olunması, "Əməkdar jurnalist" fəxri adının bərpa edilməsi ölkə başçımızın jurnalistlərə doğma münasibətinin və verdiyi dəyərin təzahürüdür. "Kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi haqqında" 2005-ci il 21 iyul tarixli sərəncama əsasən Mətbuat Şurasının maddi-texniki bazasının möhkəmləndirilməsi, 30-dan çox müxtəlif mətbuat orqanı və informasiya agentliklərinin hər birinə 10 milyon manat maliyyə dəstəyi göstərilməsi, qəzetlərin nəşriyyatlara olan borclarının dövlət büdcəsi hesabına ödənilməsi ilə mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası daha da genişləndirildi. Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı sərəncama əsasən redaksiyaların "Azərbaycan" nəşriyyatına olan 400 min manat məbləğində borcu dövlət büdcəsindən ödənildi, ayrı-ayrı mətbu orqanlara dövlət tərəfindən yardım ayrıldı. 2008-ci il 31 iyul tarixli sərəncam ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" KİV-nin müstəqilliyinin təmin edilməsi məqsədilə kompleks tədbirlər nəzərdə tutan mühüm sənəd kimi milli jurnalistikanın sonrakı inkişafına əhəmiyyətli təsir göstərdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 2 iyun tarixli Sərəncamına əsasən milli mətbuatın 140 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi müstəqil Azərbaycanda azad sözə, mətbuatın inkişafına göstərilən qayğının daha bir ifadəsidir. "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli sərəncamı isə mətbuata böyük dəyər olmaqla milli jurnalistikamızın gələcək fəaliyyət istiqamətlərini, ana məramını da müəyyənləşdirmişdir.

Ölkədə aparılan düzgün media siyasətinin nəticəsidir ki, yeni dövrün milli mətbuatımızın inkişafı ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsini zərurətə çevirməsi daim nəzərə alınır, media məkanında sürətli qloballaşma prosesi gedir. Bu baxımdan mövcud qanunvericiliyin təkmilləşdirilməsinin zamanın tələbi olduğunu nəzərə alan Prezident İlham Əliyevin tapşırığı ilə media haqqında qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü iş aparılır. Dövlətimizin başçısının 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılması məqsədilə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı.

2021-ci il 30 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan "Media haqqında Azərbaycan Respublikasının Qanunu" media fəaliyyətini tənzimləmək və standartlaşdırmaq və media orqanlarının etik standartlara uyğun fəaliyyət göstərməsini təmin etmək, milli jurnalistika sahəsində mövcud ənənələrin qorunması və inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyətə malik dövlət sənədidir.

Ölkəmizdə mətbuata dövlət qayğısının mühüm nümunələrindən biri də Mətbuat Şurasının yeni bina ilə təmin edilməsi oldu. Prezident İlham Əliyevin 22 iyul 2010-cu il tarixdə – milli mətbuatımızın 135 illiyində Mətbuat Şurasının yeni binasının açılış mərasimində iştirak etməsi isə bu qurumun fəaliyyətinə dövlətin verdiyi önəmin təzahürü idi. Azərbaycan mətbuatı üçün digər böyük hadisə jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış evlərinin tikintisidir. Dövlət başçımızın 2010-cu iyulun 22-də imzaladığı "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" Sərəncamına əsasən mətbuat işçiləri üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olunaraq istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli sərəncamı ilə jurnalistlər üçün tikilən növbəti – 3 bloklu, 17 mərtəbəli binada media sahəsində çalışanlara 255 mənzil hədiyyə edilmişdir. Həmin binanın tikintisi üçün 22 milyon manatdan çox vəsait sərf olunmuşdur.

Dövlətimizin başçısı 20 iyul 2017-ci il tarixdə həmin binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində şəxsən iştirak və çıxış etmişdir. Media reyestrinin yaradılması, jurnalistlərə vahid vəsiqələrin verilməsi, güzəştli ipoteka şərtlərindən media nümayəndələrinin yararlanmasının təmin olunması və digər üstünlüklər jurnalistlərə göstərilən diqqət və qayğının əməli təzahürüdür. Bunun nəticəsidir ki, Prezident İlham Əliyev 2010 və 2017-ci illərdə "Jurnalistlərin dostu" seçilmişdir.

Bütün bunlar bir daha təsdiq edir ki, əsl Azərbaycanşünas olan ümummilli liderimiz Heydər Əliyev milli jurnalistikamızın inkişafına misilsiz töhfələr vermişdir.

***Mehriban SULTAN,***
***"Şərq qapısı" qəzetinin***
***baş redaktoru***

FORUM TƏƏSSÜRATLARI

# "Şuşa Azərbaycanın qeyrət rəmzidir"

**Türkiyənin NTV kanalının xarici xəbərlər departamentinin rəhbəri Əhməd Yeşiltəpə mediaya açıqlamasında deyib:**



– Şuşa şəhərinə gələrkən yolda iki fərqli mənzərə ilə rastlaşdım. Bir tərəfdə ermənilərin törətdiyi vandallıqlar, digər tərəfdə isə Azərbaycanın bərpa etdiyi Şuşa şəhəri var. Prezident İlham Əliyev isə Forum iştirakçıları ilə görüşü zamanı dünyaya bu torpaqların Azərbaycanın olduğunu, bu səbəbdən sahib çıxdıqlarını və yenidən inşa etdikləri mesajını verdi. Mən də gördüm və əmin oldum ki, Qarabağ Azərbaycanın ürəyi, Şuşa qeyrət rəmzidir.

Ə.Yeşiltəpə daha sonra qardaş ölkədə xalqımızın mədəniyyətinə, musiqisinə, burada baş verən hadisələrə çox böyük marağın olduğunu qeyd edərək bildirib ki, Türkiyə mediası bundan sonra da Türk dünyasının birliyində və həmrəyliyində qovuşdurucu dövlət olan Azərbaycan haqqında həqiqətləri geniş yayımlayacaq.

*"Xalq qəzeti"*

# Qazançı kilsəsinin bərpası tolerantlığın çağdaş örnəyidir

**Şuşa Qlobal Media Forumunda iştirak edən "Economyfirst Limited London" şirkətinin direktoru Klaus Jürgens Qazançı kilsəsində aparılan təmir-bərpa işləri ilə tanışlıqdan sonra deyib:**



– Qazançı kilsəsini bərpa etmək və onun əzəmətini qoruyub saxlamaqla Azərbaycan öz sülhsevərliyini göstərir. Azərbaycan ermənilərdən fərqli olaraq bu əraziləri məhv etmək və ya talamır, əksinə bərpa edərək bütün dünyaya belə vəziyyətdə necə davrandığını göstərir. Bu məsələlərə hörmətlə yanaşmaq yüksək humanizmdir. Azərbaycanın bu mövqeyi məni çox təsirləndirdi. Əminliklə deyirəm ki, Qazançı kilsəsinin bərpası tolerantlığın çağdaş örnəyidir.

*"Xalq qəzeti"*

# Qarabağda baş verənlər dünya üçün olduqca maraqlıdır

**Şuşa Qlobal Media Forumunda iştirak edən "TRT World"ün müxbiri Oubay Şahbandar Qarabağda gördükləri ilə bağlı bildirib:**

– Bu, mənim Şuşaya ilk səfərimdir. Hərbi müxbir olaraq 44 günlük müharibədən dərhal sonra Qarabağa səfər etmək imkanımız oldu. Bu ərazilərdə aparılan yenidənqurma işlərini görmək və Azərbaycan hökumətinin nümayəndələrindən onların buraları bərpa etmək niyyətində olduqlarını eşitmək çox xoşdur.

Bir jurnalist kimi Qarabağdakı faktların şahidi olmaq və reallığı yerində dərk etmək üçün buraya səfərə gəlmək baş verənləri dünyadakı izləyicilərimizə çatdırmaq baxımından əla fürsətdir. Eləcə də Şuşada baş verənlər dünya üçün olduqca maraqlıdır.

*"Xalq qəzeti"*

# Forumda media körpüləri







**Şuşada keçirilən Qlobal Media Forumu çərçivəsində iyulun 22-də Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə üç xarici informasiya agentliyi - Albaniyanın ATA, Bolqarıstanın BTA və Filippinin PNA informasiya agentlikləri arasında əməkdaşlıq haqqında müqavilələr imzalanıb.**

Sənədləri AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev, ATA-nın baş direktoru Valbona Zhupa, BTA-nın baş direktoru Kiril Volçev, PNA-nın Xəbər və informasiya bürosu direktorunun müavini Lee Ann Pattugalan imzalayıblar.

Müqavilələr gündəlik xəbər mübadiləsi, əməkdaşların qarşılıqlı səfərlərinin təşkili və birgə informasiyaların hazırlanmasında dəstəyin göstərilməsini nəzərdə tutur.

Xatırladaq ki, AZƏRTAC və BTA agentliyi arasında əməkdaşlığa dair ilk sənəd 2004-cü ildə, ATA agentliyi ilə isə 2006-cı ildə imzalanıb. Filippinin PNA informasiya agentliyi ilə ilk dəfədir əməkdaşlıq müqaviləsi bağlanır.

***

Şuşada keçirilən Qlobal Media Forumu çərçivəsində Azərbaycanın "ARB 24" telekanalı ilə Qırğızıstanın "Ala Too 24" telekanalı arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Sənədi ARB telekanalının icraçı direktoru Radik İsmayılov və Qırğızıstanın Milli Teleradio Korporasiyasının direktor müavini Ulanbek Satiyev imzalayıblar.

Razılaşma gündəlik xəbər mübadiləsi, əməkdaşların qarşılıqlı səfərlərinin təşkili, birgə informasiyaların hazırlanmasında dəstəyin göstərilməsini nəzərdə tutur.

*"Xalq qəzeti"*

# 79 laçınlının da yurd həsrətinə son qoyuldu



**Dünən növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçın şəhərinə yola salınıb. Bu dəfə Laçına 79 nəfərlik 22 ailə köçürülüb.**

Laçın şəhərinə ailələrin yola salınması mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər.

Xatırladaq ki, indiyədək Laçın şəhərində 503 nəfərdən ibarət 133 ailənin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşırlar.

*"Xalq qəzeti"*

QƏRBİ AZƏRBAYCAN İCMASI

# "Tarixi torpaqlarımıza mütləq qayıdacağıq"





**Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə dünən Göygöl rayonunda "Qərbi Azərbaycanın Basarkeçər rayonunun Zod icmasının ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Tarixi torpaqlarımıza mütləq qayıdacağıq" mövzusunda konfransı keçirilib.**

İcmadan qəzetimizə bildiriblər ki, Heydər Əliyev Mərkəzində keçirilən konfransı giriş sözü ilə açan Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev Ulu öndərin dövlət quruculuğundan və Azərbaycanın tarixi torpaqlarının işğaldan azad olunmasından, ölkə iqtisadiyyatının inkişafı ilə bağlı gördüyü nəhəng işlərdən, Göygöl rayonunun sosial-iqtisadi cəhətdən inkişafına göstərilən dövlət qayğısından danışıb.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Qərbi Azərbaycan məsələsinə ulu öndər Heydər Əliyevin həssas münasibətini qeyd edib. O, qeyd edib ki, Heydər Əliyevin Qərbi Azərbaycan məsələsi ilə bağlı tutduğu mövqe, əsasını qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə və uğurla davam etdirilir. QAİ-nin yaradılması və fəaliyyətinin təşkilinə göstərilən qayğı barədə danışan icma rəhbəri Qərbi Azərbaycan məsələsinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində görülən işlər, Qayıdış Konsepsiyasının mahiyyəti haqqında məlumat verib.

Tədbirdə Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasındakı rolundan, Qərbi Azərbaycan məsələsinə dair əsasını qoyduğu siyasi kursun mahiyyətindən bəhs edib.

İcma ağsaqqalı Azadxan Haqverdiyev və Əməkdar müəllim Dilarə Qazıyeva çıxışlarında Zod kəndindən olan insanların ağır qaçqınlıq həyatından danışıb, əhalinin Qərbi Azərbaycana qayıdacağına güclü inamını ifadə ediblər.

Zod icmasının üzvlərinin fikirləri əsasında akademik Əhliman Əmiraslanovun Zod kənd icmasının rəhbəri seçilməsi təklifi yekdilliklə dəstəklənib.

*"Xalq qəzeti"*

# Sərhəd Xidməti Akademiyasında məzun günü

**Dünən Dövlət Sərhəd Xidməti Akademiyasının magistratura pilləsini bitirmiş məzunların ikinci buraxılışı münasibətilə təntənəli mərasim keçirilib.**



Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən və Döyüş Bayrağının gətirilməsindən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik telefonoqramı şəxsi heyətə çatdırılıb.

Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Əfqan Nağıyev məzunları Dövlət Sərhəd Xidməti Akademiyasında ilk dəfə 2020-ci ildə yaradılmış və hazırda ikinci buraxılışı olan magistratura təhsillərini müvəffəqiyyətlə başa vurmaları münasibətilə təbrik edərək onlara hərbi xidmətlərinin davamında uğur arzulayıb.

Məzunlar adından çıxış edən polkovnik-leytenant Azər Omarov Azərbaycan Sərhəd Mühafizəsinin magistr təhsilli zabitləri olmaları ilə fəxr etdiklərini, sərhədçi peşəsinin sirlərinə dərindən yiyələnməkdə əməyini əsirgəməyən professor və müəllim heyətinə dərin minnətdarlıqlarını bildirib.

*"Xalq qəzeti"*

# Şənbə günü Bakının küçələri yuyulub

**Dünən səhər saatlarından başlayaraq Bakı Şəhər İcra Hakimiyyətinin kommunal təsərrüfat xidmətlərinin texnikası ilə şəhərin 544 əsas küçə və prospektləri təbiətə ziyanı olmayan vasitələrlə yuyulub.**

Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) mətbuat xidmətindən bildiriblər ki, qurumun qərarına uyğun olaraq gün ərzində təmizlik və abadlıqla bağlı növbəti ümumşəhər daxili iməciliyi keçirilib.

Bildirilib ki, paytaxtın bütün rayonlarını əhatə edən belə iməciliklər Bakı şəhərinin daha da gözəlləşdirilməsinə böyük töhfədir.

*"Xalq qəzeti"*

# "Xəzri dalğası" hərbi təlimi uğurla başa çatıb

**Xəbər verdiyimiz kimi, Hərbi Dəniz Qüvvələri (HDQ), Quru Qoşunları (QQ), Hərbi Hava Qüvvələri (HHQ) və Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsi ilə qarşılıqlı əlaqədə keçirilən "Xəzri dalğası" taktiki təlimi dünən başa çatıb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən qəzetimizə bildirilib ki, təlimin yekun mərhələsində Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus ərazi sularında təhdid zamanı şərti düşmən gəmisinin, eləcə də hava və sahil hədəflərinin məhv edilməsi üzrə döyüş atışları icra edilib. Xilasetmə və əlverişli əməliyyat şəraitinin saxlanılması üzrə müxtəlif fəaliyyətlər də yüksək peşəkarlıqla icra olunub.

Ümumilikdə, 1500 nəfər şəxsi heyət, HDQ-nin döyüş, təminat, DSX Sahil Mühafizəsinin gözətçi gəmiləri, HHQ-nin helikopterləri, pilotsuz uçuş aparatları və QQ-nin zirehli döyüş maşınlarının cəlb olunduğu "Xəzri dalğası" taktiki təlimində qarşıya qoyulan bütün tapşırıqlar uğurla yerinə yetirilib.

*"Xalq qəzeti"*

# Mərkəzi Asiya ölkələrinin Qarabağın dirçəldilməsinə töhfəsi

## *Azərbaycanın bu dövlətlərlə illik iqtisadi əlaqəsinin həcmi 1,3 milyard dollara çatıb*




**Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi parlaq Qələbədən dərhal sonra düşmənin viran qoyduğu yurd yerlərimizin bərpasına başladı. İndi xalqımız müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq salnaməsinə imza atır. Erməni vandallarının daşı daş üstdə qoymadığı yaşayış məskənlərimiz müasir şəhərsalma normalarına uyğun, "ağıllı" layihələr əsasında tamamilə yenidən qurulur. Artıq dünya tarixi ədalətin bərpasına nail olan Azərbaycanın quruculuq missiyasını da layiqincə yerinə yetirdiyinə şahidlik edir. Həm də təkcə şahidlik etməklə kifayətlənmir, eyni zamanda, quruculuq işlərinə bu və ya digər dərcədə öz töhfəsini verməyə çalışır. Təsadüfi deyil ki, Qarabağ və Şərqi Zəngəzurda iş görmək istəyən beynəlxalq subyektlərin, əcnəbi şirkətlərin sayı getdikcə artır.**

Son zamanlar Qarabağımızın baş tacı, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa, eləcə də bərpa-quruculuq işlərinin fəal mərhələsində olan digər şəhərlərimiz bir sıra beynəlxalq tədbirlərə evsahibliyi edir. Bu tədbirlər isə beynəlxalq təşkilatlara, nümayəndə heyətlərinə, xüsusən də media mənsublarına erməni vandallarının tarixi torpaqlarımızda törətdikləri vəhşi əməlləri öz gözləri ilə görmək, bu ərazilərdə həyata keçirilən geniş tikinti-quruculuq işləri ilə yaxından tanış olmaq imkanı yaradır. Elə iyulun 21-də Şuşada keçirilən "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Qlobal Media Forumunun da bu baxımdan əhəmiyyəti olduqca yüksəkdir.

Geniş diskussiya və fikir mübadiləsi şəraitində keçən tədbirdə Prezident İlham Əliyev media mənsublarını maraqlandıran sualları ətraflı cavablandırıb. Dövlətimizin başçısı Qırğızıstandan olan Nurcan Qasımalıyevanın Mərkəzi Asiya ölkələrinin işğaldan azad olunmuş ərazilərimizin bərpasında iştirakı, ümumiyyətlə, Azərbaycanın bu dövlətlərlə, xüsusən də Qırğızıstanla münasibətləri barədə sualına cavab olaraq bildirib: "Biz göstərdikləri dəstəyə görə Mərkəzi Asiyadan olan dostlarımıza və qardaşlarımıza təşəkkürümüzü ifadə etmək istəyirik. Siz Füzuli Hava Limanından gələndə binaların inşası layihəsini gördünüz. Orada, həmçinin məktəb var və o, səxavətli şəkildə Özbəkistan tərəfindən inşa edilməkdədir. Həmçinin incəsənət mərkəzi var, Qazaxıstan tərəfindən ianə kimi ayrılıb... Bu, iki dəstək rəmzidir və müharibədən sonra xaricdən aldığımız dəstək bu qədər olmuşdur. Qeyd etməliyəm ki, bu, çox mühüm bir jest idi və həmrəylik nümunəsi idi".

Yeri gəlmişkən, Mərkəzi Asiya ölkələri ilə əlaqələrin, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmiz tarixi müstəqilliyinə qovuşduqdan sonra bu ölkələrlə münasibətlərini müasir dünya düzəninə uyğun olaraq yeni əsaslarla qurmağa nail olub. Məhz bunun nəticəsidir ki, artıq bir neçə ildir Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən türk dövlətləri ilə münasibətlərində böyük canlanma müşahidə olunur.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən sonra Mərkəzi Asiya dövlətləri ilə strateji əməkdaşlıq daha da gücləndirilib. Prezident İlham Əliyevin son illər Mərkəzi Asiya, o cümlədən regionun türkdilli ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin daha da genişlənməsinə və strateji xarakter almasına səbəb olub. Həmin səfərlər zamanı imzalanan müqavilə və sazişlər ölkələrimiz arasında münasibətlərin gələcək konturlarını müəyyənləşdirir.

Şuşa forumunda Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında dinamik münasibətlərin mövcudluğunu vurğulayan Prezident İlham Əliyev son iki ildə dövlət başçılarının qarşılıqlı səfərlərinin əlaqələrimizin inkişafına təkan verdiyini diqqətə çatdırıb, ikitərəfli əsaslarda, xüsusən də sərmayələr və ticarət sahələrində çox fəal iş aparıldığını bildirib. Bütün bunların nəticəsidir ki, son illər dövlətlərimiz arasında iqtisadi əlaqələr xeyli inkişaf edib, qarşılıqlı ticarət dövriyyəsində kəskin artımlar qeydə alınıb. Təkcə bir faktı qeyd etmək yetərlidir ki, 2022-ci ildə Azərbaycanla türk dövlətləri arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 70 faiz artaraq 5 milyard 23 milyon dollardan 7 milyard 170 milyon dollarıdək yüksəlib. Bunun da, təqribən, 1 milyard 328 milyon dolları Mərkəzi Asiya ölklərinin payına düşür.

Ötən il bütün türk dövlətləri ilə ticarət dövriyyəmizdə artım qeydə alınıb. Belə ki, hesabat ilində Qazaxıstanla ticarət dövriyyəmiz əvvəlki ilə nisbətən 4,4 dəfə artaraq 135 milyon 799 min dollardan 598 milyon 486 min dollara çatıb. Ötən il Azərbaycanın Türkmənistanla həyata keçirdiyi idxal-ixrac əməliyyatları 105 milyon 23 min dollardan 535 milyon 397 min dollara yüksəlib. Bundan əlavə, 2022-ci ildə Özbəkistanla ticarət dövriyyəmizdə 64 faizlik artım qeydə alınıb. Azərbaycanın bu ölkə ilə həyata keçirdiyi idxal-ixrac əməliyyatları 111 milyon 903 min dollardan 183 milyon 307 min dollarıdək artıb. İl ərzində Qırğızıstanla ticarət dövriyyəmizdə də artım qeydə alınıb. Belə ki, iki dövlət arasındakı idxal-ixrac əməliyyatları ötən il 17 faiz artaraq 9 milyon 18 min dollardan 10 milyon 809 min dollaradək yüksəlib. 2022-ci ildə Mərkəzi Asiyanın digər dövləti olan Tacikistanla ticarət dövriyyəmiz 6,5 milyon dollar təşkil edib. Yaxın illərdə isə dost və qardaş ölkələrlə ticarət dövriyyəsinin xeyli artırılması hədəflənir.

Azərbaycanın Avrasiya məkanının nəqliyyat-logistika habına çevrilməsi, bu sahədə imkanların genişlənməsi, Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ölkəmizin geosiyasi əhəmiyyətini getdikcə artırır. Təkcə onu qeyd etmək kifayətdir ki, Şərqlə Qərb arasında beynəlxalq yükdaşımaların artdığı hazırkı şəraitdə Çindən və Mərkəzi Asiya ölkələrindən Avropaya gedən ən qısa və təhlükəsiz tranzit daşımalar məhz ölkəmizin ərazisindən həyata keçirilir. Bu da Azərbaycana beynəlxalq marağı getdikcə artırır.

Şuşada keçirilən media konfransında bu məsələyə toxunan dövlətimizin başçısı hazırda Mərkəzi Asiya ölkələri ilə rabitə və nəqliyyat əlaqələrinin qurulması üzərində fəal iş aparıldığını vurğulayıb. Prezident İlham Əliyev bir qədər əvvəl Özbəkistanın və Qazaxıstanın baş nazirlərinin Azərbaycana səfərləri zamanı Xəzər dənizindən keçməklə nəqliyyat yollarının Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya çıxması ilə bağlı ətraflı müzakirələrin aparıldığını bildirib. Bu yolun Mərkəzi Asiya ölkələri üçün ən mühüm nəqliyyat marşrutlarından biri olacağını diqqətə çatdıran dövlətimizin başçısı müasir nəqliyyat infrastrukturuna malik Azərbaycanının yükdaşıma potensialının çox yüksək olduğunu vurğulayıb.

Dövlətimizin başçısı, həmçinin Azərbaycanın Qırğızıstanla münasibətlərinin çox yaxşı və dostluq səviyyəsində olduğunu vurğulayaraq qarşılıqlı səfərlərin, eləcə də Türkdilli Dövlətlər Təşkilatının və MBD ölkələrinin sammitlərində keçirilən görüşlərin əlaqələrin getdikcə dərinləşməsinə təkan verdiyini bildirib.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

## Qazaxıstan Orta Dəhlizdə önəmli ölkədir

***Qazaxıstan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə yük daşımalarını artırmağı planlaşdırır. Bu barədə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev birinci "Mərkəzi Asiya + Körfəz Ərəb Dövlətləri Əməkdaşlıq Şurası" sammitində çıxışı zamanı deyib.***



Dövlət başçısı, həmçinin qeyd edib ki, Qazaxıstan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirir. Hazırda region dövlətləri tərəfindən marşrutların şaxələndirilməsi, müxtəlif infrastruktur və logistika layihələrinin inkişafı istiqamətində fəal tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran Qazaxıstan lideri ölkəsinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun potensialının artırılmasına üstünlük verdiyini bəyan edib. "Biz bu marşrutla yük axınını sistematik şəkildə artırmaq və 2030-cu ilə qədər onu ildə 500 min konteynerə çatdırmaq niyyətindəyik. Bundan əlavə, Qazaxıstan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üçün də tədbirlər görür", – deyə Prezident Kasım-Jomart Tokayev əlavə edib.

## Bakı Limanında yükaşırma 13 faiz artıb



***"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətindən verilən məlumata görə, limanda bu ilin I yarısında 3 milyon 539 min tondan çox yük aşırılıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12,5 faiz çoxdur.***

Xatırladaq ki, 2018-ci il mayın 14-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olmuş yeni Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteyner təşkil edir.

***"Xalq qəzeti"***

## Özəlləşdirmədən 6 ayda büdcəyə 60,5 milyon manat vəsait daxil olub

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin yanvar-iyun ayları ərzində özəlləşdirmədən dövlət büdcəsinə ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə çox – 60,5 milyon manat vəsait daxil olub.**

Dövlət Xidmətindən bildirilib ki, 2023-cü ilin yanvar–iyun ayları ərzində 28 hərrac keçirilib. Hərraclarda 7 səhmdar cəmiyyətin səhm paketi, 11 kiçik dövlət müəssisəsi, 2 yarımçıq tikili sahəsi, 259 nəqliyyat vasitəsi özəlləşdirilib. Bu ilin ilk 6 ayı ərzində hərraca çıxarılmış dövlət əmlakı üzrə 148 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hər-



rac" proqram təminatı vasitəsilə 31 onlayn qoşulma reallaşıb. 2023-cü ilin birinci yarımilliyi ərzində hərrac vasitəsilə 18 faydalı qazıntı yatağı sahibkarların istifadəsinə verilib.

İnvestisiya müsabiqələri vasitəsilə özəlləşdirilmiş müəssisələrə 2023-cü ilin birinci yarımilliyində ümumilikdə 10,4 milyon manata yaxın investisiya qoyulub və həmin müəssisələrdə 50-dən çox yeni iş yeri yaradılıb.

Cari ilin yanvar-iyun ayları ərzində özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar 60,5 milyon manat təşkil edib və yarımillik büdcə proqnozuna 122,5 faiz əməl olunub. Dövlət əmlakının özəlləşdirilməsindən dövlət büdcəsinə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə çox olub.

***"Xalq qəzeti"***

# "Masdar" Azərbaycan və Özbəkistan üçün "yaşıl" istiqraz buraxıb



## *750 milyon dollarlıq qiymətli kağızın 250 milyonu ölkəmizə yönəldiləcək*

**Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tezliklə Azərbaycanda inşa etdiyi 230 MVt-lık Qaradağ Günəş Elektrik Stansiyası layihəsinin maliyyələşdirilməsini "yaşıl" istiqraz hesabına aparacaq. "Masdar"ın baş maliyyə direktoru Nayl Hanniganın sözlərinə görə, şirkət 750 milyon ABŞ dolları dəyərində "yaşıl" istiqrazlarının debüt buraxılışını həyata keçirib. Bu da şirkətə Azərbaycanda "Qaradağ" Günəş Elektrik Stansiyası və Özbəkistanda qoyuluş gücü 500 MVt olan dəniz külək enerjisi layihələrinin hər birinə cəlb edilən 250 milyon ABŞ dollarlıq keçid kreditlərini bağlamağa imkan verəcək. Qalan 250 milyon ABŞ dolları isə Özbəkistandakı 3 günəş enerjisi layihəsinə yönəldiləcək və bu layihələrin maliyyələşdirilməsi tezliklə yekunlaşdırılacaq.**

N.Hannigan qeyd edib ki, Şimali Amerikada, xüsusən də ABŞ bazarında əhəmiyyətli dərəcədə böyüməyi planlaşdırırıq. Bu region kritik bir bazardır. "Masdar" ABŞ-dakı potensial satınalma hədəfləri ilə bağlı müzakirələr aparır və həmçinin Avropada, Körfəz və digər ölkələrdə fəaliyyətini genişləndirmək niyyətindədir. Mərkəzi Asiya, Asiya-Sakit okean və Afrika da gələcək inkişaf istiqamətlərimiz arasında yer alır.

Xatırladaq ki, Qaradağ Günəş Elektrik Stansiyası layihəsi 2023-cü ildə kommersiya fəaliyyətinə başlayacaq. Stansiya ildə 0,5 milyard kVt/saat elektrik enerjisi istehsal etməyə kömək edəcək. Bu da 110 mindən çox evin ehtiyaclarını ödəməyə və karbon emissiyalarını ildə 200 min tondan çox azaltmağa, həmçinin yerli əhali üçün yeni iş yerlərinin yaradılmasına imkan verəcək.

Yeri gəlmişkən, bu məqamda onu da xatırladaq ki, respublikamızda iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün güclü bərpaolunan enerji mənbələri hesabına yeni elektrik stansiyalarının istifadəyə verilməsi nəticəsində hazırda ölkəmizin ümumi elektrik enerjisi istehsalı gücü 7 min 953,9 meqavata çatıb. Bununla da ötən illə müqayisədə 392,4 meqavat və ya 4,9 faiz artım yaranıb.

Hazırda respublikamızda elektroenergetika sistemində ümumi gücü 6 min 642 meqavat olan 22 istilik elektrik stansiyası, ümumi gücü 1158,1 meqavat olan 30 su elektrik stansiyası, 37 meqavat gücündə bərk məişət tullantıları elektrik stansiyası, 63,3 meqavat gücündə 4 külək elektrik stansiyası, ümumi gücü 46,1 meqavat olan 8 günəş elektrik stansiyası və ümumi gücü 7,4 meqavat olan 3 hibrid elektrik stansiyası fəaliyyət göstərir. Su elektrik stansiyaları daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1311,9 meqavatdır ki, bu da ümumi istehsal gücünün, təxminən, 16,5 faizini təşkil edir.

Növbəti illərdə elektrik enerjisinin istehsal dinamikası artıq bərpaolunan enerji mənbələrinə əsasən formalaşacaq. Bunun üçün zəngin potensial, bərpaolunan enerjinin inkişafını prioritetləşdirən dövlət siyasəti, yeni qanunvericilik bazası və xarici investisiyaların cəlbi kimi bütün zəruri şərtlər mövcuddur.

Azərbaycanın bərpaolunan enerji mənbələrindən əldə etdiyi elektrik enerjisinin ixracı və bunun üçün yeni texnologiyaların tətbiqi, eyni zamanda, bu sahədə təcrübə mübadiləsi vacibdir. Azərbaycanlı mütəxəssislərin vaxtaşırı müxtəlif beynəlxalq tədbirlərdə iştirakı, ölkəmizin əldə etdiyi təcrübə bu məqsədin reallaşmasında mühüm rol oynayır.

Prezident İlham Əliyevin müxtəlif enerji mənbələrinin inkişafı üçün həyata keçirdiyi siyasət, uzaqgörən siyasi qərar və qətiyyətli addımların ardıcıllığı, bir-birini tamamlaması nəinki Azərbaycanın, eyni zamanda, tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfə verir və "yaşıl enerji"yə problemsiz keçidə təminat yaradır.

Dövlətimizin başçısının müxtəlif müzakirələrdə diqqətə yönəltiyi bərpaolunan enerji potensialının reallaşdırılması ilə bağlı bir məqamı xatırlatmaq istərdim. Əvvəlcə onu deyim ki, ötən ilin dekabrında Buxarestdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya tərəfindən Avropa Komissiyası sədrinin iştirakı ilə "yaşıl enerji"nin ötürülməsinə dair saziş imzalanıb. Həmin saziş əsasında Azərbaycandan Avropaya dənizdəki külək enerjisi stansiyalarından ötürmə xəttinin çəkiləcəyi təsdiqlənib. Bu ötürmə xəttinin bir hissəsinin Qara dənizin dibi ilə gedəcəyi qərara alınıb. Bununla bağlı hazırda respublikamızda texniki əsaslandırma prosesinə başlanılıb.

Ötən müddətdə Azərbaycan dünyanın bir neçə aparıcı enerji şirkəti ilə müqavilə və anlaşma memorandumları imzalayıb. Bunun nəticəsində respublikamızda Günəş və külək enerjisindən 25 qiqavat həcmində "yaşıl enerji" əldə olunacağı proqnozlaşdırılıb.

Respublikamızda bərpaolunan enerji potensialının reallaşdırılması istiqamətində icra olunan layihələr xüsusilə diqqət çəkir. Son dövrlərdə "Masdar", "ACWA Power" və "Fortescue Future Industries" şirkətləri ilə 25 QVt həcmində "yaşıl enerji" layihələri üzrə əməkdaşlıq sənədlərini imzalanması bunun bariz ifadəsidir. 2040-cı ilədək mərhələli şəkildə istifadəyə verilməsi planlaşdırılan bu istehsal gücləri tələbatımızdan, potensialımız isə yaradılacaq güclərdən dəfələrlə çoxdur. 157 QVt külək enerji potensialı olan Xəzər dənizinin ölkəmizə aid sektoru, azad edilmiş ərazilər və Naxçıvan "yaşıl investisiya" üçün ən cəlbedici məkanlardır.

Sonda vurğulayaq ki, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdəndir. Mütəxəssislərin araşdırmalarına görə, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə isə 157 qiqavat təşkil edir. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı isə 27 qiqavat təşkil edir ki, bunun da 3 min meqavatı külək, 23 min meqavatı günəş enerji, 380 meqavatı isə bioenerjinin payına düşür. Bununla yanaşı, ölkə ərazisindəki dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Hazırda Azərbaycanın ümumi enerji istehsalında bərpaolunan enerjinin payı 17,3 faiz təşkil edir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsinə də xüsusi yer ayrılıb. Belə ki, ümumi enerji istehsalında bərpaolunan enerjinin payının 2025-ci ildə 24 faiz, 2030-cu ildə isə 30 faizə çatdırılması nəzərdə tutulur.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Dünya Azərbaycanın iqtisadi qüdrətinə heyran qalır

## Qlobal Media Forumunda da ölkəmizin tərəqqisi diqqət mərkəzində oldu



**Şuşa şəhəri erməni işğalından azad olunduqdan sonra bir sıra mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edib. İndi isə qədim mədəniyyət paytaxtımızda "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumu keçirilir. "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü münasibətilə reallaşan bu beynəlxalq tədbirdə bir sıra önəmli məsələlər, o cümlədən ölkəmizin iqtisadi uğurları bir daha dünyaya bəyan edilir.**

Prezident İlham Əliyev forumda Transxəzər Qaz Boru Kəməri ilə bağlı fikir bildirərkən, bu infrastrukturun Azərbaycan tərəfindən irəli sürülən bir layihə olmadığını deyib və əlavə edib ki, ölkəmizin müəllifliyi ilə tanınan təşəbbüslər, əsasən, respublikamızın resurslarına əsaslanır. Məsələn, Cənub Qaz Dəhlizi layihəsi bunun bariz ifadəsidir: "Biz o layihənin təşəbbüskarıyıq, əsas səhmdarlarından biriyik və əslində, biz o layihənin bütün dövlətlərarası, hökumətlərarası sazişlərinin də əlaqələndiricisi kimi çıxış edirik. Bildiyiniz kimi, bu layihə müvəffəqiyyətlə icra olunmuşdur və artıq iki ildir ki, Azərbaycan Avropaya əhəmiyyətli qaz tədarükçüsünə çevrilmişdir və Avropa Komissiyasının Prezidenti Azərbaycanı etibarlı tərəfdaş adlandırır…".

Xatırladaq ki, 2018-ci il mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib və Azərbaycan təbii qazı bu dəhlizin sisteminə vurulub. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qurulan "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birgə qaz hasilatına başlanılıb. 2018-ci il iyulun sonunda isə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunduğu vaxtdan hasilat tədricən artıb. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü gündəlik 56 milyon (ildə 20 milyard) standart kubmetr təşkil edib.

Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı və əsas səhmdarlarından biri olan Azərbaycanın bu sahədəki səmərəli fəaliyyəti dövlətimizin başçısının Şuşa Qlobal Media Forumunda vurğuladığı kimi, Avropa İttifaqının enerji komissarı tərəfindən də yüksək dəyərləndirilib və respublikamız Avropanın qaz tədarükçüsü adlandırılıb. Forumda, eyni zamanda, Avropaya qaz tədarükümüzün coğrafiyasının getdikcə genişləndiyi və ilin sonuna qədər əlavə iki Avropa ölkəsinin də Azərbaycan qazının alıcısına çevriləcəyi xatırladılıb.

Amma Transxəzər layihəsi ilə bağlı belə bir fikir yürüdülməsinin heç bir əsası yoxdur. Çünki bu layihə bir ideya olaraq Türkmənistanın qaz ehtiyatlarına əsaslanır. Odur ki, bu təşəbbüsün irəli sürülməsi və yaxud ona sərmayə yatırılmasının Azərbaycanla heç bir bağlılığı yoxdur. Belə bir fikri səsləndirən dövlətimizin başçısının forumda bununla əlaqədar dedikləri məqamlar da diqqət çəkir: "Biz nə edə bilərik? Biz tərəfimizdən mövcud infrastrukturumuzu təklif edə bilərik və yaxud müəyyən ərazi təklif edə bilərik ki, yeni infrastruktur inşa edilsin. Lakin, eyni zamanda, onu unutmamalıyıq ki, bu gün Azərbaycan üç il əvvəl inşa edilən boru kəmərinin genişləndirilməsi ilə məşğuldur. Nəyə görə? Çünki tələbat artır. TAP boru kəməri 10 milyard kubmetrə hesablanmışdısa, 20 milyard kubmetrə qaldırılmalıdır. TANAP 16-dan 32-yə qaldırılmalıdır…".

Belə bir şərait isə Azərbaycanın "mavi yanacağ"ına olan tələbatdan xəbər verir. Hazırda ölkəmizin gələcəkdə daha çox qaz istehsal edəcəyi və hər yeni il əvvəlki ildən daha çox istehsal göstəricilərinin əldə olunacağı barədə proqnozlar səsləndirilir. Məsələn, forumda dövlətimizin başçısının bildirdiyi kimi, 2021-ci ildə Azərbaycan 19 milyard kubmetr ixrac edirdisə, keçən il bu, artıq 22 milyard kubmetrə yüksəlib. Bu il ixrac isə 24 milyard kubmetr olacağı proqnozlaşdırılır.

Prezident İlham Əliyev forumda bildirib ki, Azərbaycan bu yaxınlarda, ən azı, 300 milyard kubmetr ehtiyata malik "Abşeron" qaz yatağının kəşfinin elan edildiyini və artıq ilk quyunun "Şahdəniz"dəki bütün quyulardan daha məhsuldar olduğunu vurğulayıb. Beləliklə, dövlət başçısı ölkəmizin boru kəmərləri sisteminin genişlənməsinin öz resurslarımızın artması ilə bağlı olduğunu qeyd edib.

Xatırladaq ki, ölkəmizin qaz ehtiyatlarının həcminə görə, ikinci böyük yatağı olan "Abşeron"dan hasilatın başlanması ilə ixracın artırılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılıb. Cari il iyulun 10-da Fransanın "TotalEnergies" şirkəti Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə əməkdaşlıq çərçivəsində Xəzər dənizində yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində təbii qaz hasilatına başlandığını elan edib.

Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

Bununla da bir az əvvəl adıçəkilən Transxəzər layihəsi barədə indiyədək deyilənlərə ölkə rəhbəri konkret münasibət bildirib: "Xəzər dənizinin Şərq sahillərindən əlavə qaz ehtiyatlarına gəldikdə, bunun üçün Transxəzər sualtı qaz boru kəməri inşa edilməlidir və ikincisi, Bakıdan Avropa istiqamətində Cənub Qaz Dəhlizi kimi yeni infrastruktur lazımdır. Sual yaranır ki, bu mühüm layihəni kim maliyyələşdirəcək? Bu sualın hələlik cavabı yoxdur. Bu suala cavab tapana qədər layihənin icrası və yaxud da bu məsələ haqqında düşünmək bir o qədər real olmayacaq. Eyni zamanda, biz bilirik ki, Avropa bankları mədən yanacağı ilə əlaqədar layihələri maliyyələşdirmir. Odur ki, bu layihə üçün ciddi vəsait cəlb etmək çətin olacaq. Məsələn, Cənub Qaz Dəhlizini inşa edəndə biz korporativ maliyyə ilə bərabər, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankından, Avropa İnvestisiya Bankından, həmçinin Asiya İnkişaf Bankından və Asiya İnfrastruktur İnvestisiya Bankından vəsait cəlb etmişdik. Lakin indi isə bunlardan ikisi – Avropa institutları mədən yanacağı ilə əlaqədar layihələri hazırda maliyyələşdirmir. Onlar "yaşıl keçid" layihələrini maliyyələşdirirlər. Bu da sözsüz ki, vəziyyəti daha çətinləşdirir…".

*V.BİNYƏTOĞLU, "Xalq qəzeti"*

### *Ekspert rəyi*



**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**

Prezident İlham Əliyev Şuşa Qlobal Media Forumunda Transxəzər layihəsinin maliyyələşdirilməsindən bəhs edərkən beynəlxalq maliyyə qurumları tərəfindən mədən yanacağı ilə əlaqədar layihələrin maliyyələşdirilmədiyini, bu məsələdə daha çox "yaşıl keçid" təşəbbüslərinə üstünlük verildiyini bildirib.

Yeri gəlmişkən, qeyd edim ki, Beynəlxalq Maliyyə Korporasiyasının hesabatına əsasən, təkcə Xəzər dənizində 157 qiqavat həcmində potensial var. Yeni bərpaolunan enerji sahəsində bir neçə şirkət artıq fəaliyyət göstərir. Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında saziş imzalanıb və Avropa İttifaqının Prezidenti də həmin mərasimdə iştirak edib. Bu layihəyə əsasən, Azərbaycandan Avropaya Qara dənizin dibi ilə yaşıl enerji xəttinin inşa ediləcəyi qərara alınıb. Artıq ilkin hesablama aparılıb və texniki-iqtisadi əsaslandırmanın yəqin ki, sentyabr-oktyabr aylarında təqdim olunacağı gözlənilir.

Dövlətimizin başçısı forumda daha sonra bu gün qeyri-neft sektorunun inkişafının prioritet olduğunu diqqətə çatdırıb: "Biz ümumi daxili məhsulda iqtisadiyyatımızın qeyri-neft sektorunun payını ildən-ilə artırırıq. O, artıq 50 faizdən yüksəkdir. Bu gün biz həm də qeyri-neft ixracını artırırıq…Hazırda kapital və sərmayə proqnozlaşdırıla bilən və sabit məkanlara gedir, belə bir məkan məhz Azərbaycandır. Hətta işğal dövründə də Azərbaycan sabitlik məkanı idi…".

Ölkə rəhbərinin bu fikrinə əsaslanaraq deyə bilərəm ki, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmayıb. Bu dövr ərzində iqtisadiyyat 3 dəfədən çox artıb, valyuta ehtiyatları 65 milyard dollara çatıb, xarici borc isə ümumi daxili məhsulun 10 faizi səviyyəsinə düşüb.

Təkcə yuxarıda sadalanan göstəricilərə əsaslanıb bildirim ki, son 20 il Azərbaycanın müasir tarixinə iqtisadi, sosial, siyasi və mədəni inkişafının dönüş mərhələsi kimi daxil olub. Bu dövrdə uğurla həyata keçirilən islahatlar nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf yolu keçən iqtisadiyyatı kimi tanınıb, özünün nadir iqtisadi inkişaf modelini təqdim edib. Ölkənin maliyyə imkanları tarixi maksimuma çatdırılıb. Azərbaycan Cənubi Qafqazın və ətrafın iqtisadi coğrafiyasını dəyişdirməyə qadir olan möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürüb.

Respublikamız regional iqtisadiyyatın lokomotivinə çevrilib, Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təqdim edib, beynəlxalq Şərq–Qərb, Şimal–Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirib. Bütün bunların sayəsində təbii olaraq respublikamızın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib. Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət nəticəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib.

Yeri gəlmişkən, dövlətimizin başçısının prezidentlik fəaliyyəti illərində iqtisadi sahədə əldə edilən digər göstəricilərə də diqqət yetirmək istərdik. Əvvəlcə onu vurğulayım ki, Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) nominal həcmi son 20 il ərzində 22 dəfə artaraq 133,8 milyard manata çatıb. Bu dövrdə ölkə əhalisinin gəlirləri 13,7 dəfə, strateji valyuta ehtiyatları isə 2023-cü ilin aprel ayında 2003-cü ilə nəzərən 41 dəfədən çox artıb (2003-cü ildəki 1,6 milyard dollardan 65,9 milyard dollara çatıb).

Dövlətimizin başçısının forumda vurğuladığı kimi, bu gün ticarət dövriyyəmiz də böyük profisitlə həyata keçirilir. Son altı ay ərzində ixrac-idxalla müqayisədə Azərbaycanın profisiti 10 milyard dollar təşkil edib. Siyasi vəziyyət sabitdir. Azərbaycan özünü neft-qaz sahəsində etibarlı tərəfdaş kimi sübut edib və hazırda coğrafi yerləşməni, artıq çox müasir nəqliyyat infrastrukturunu nəzərə alaraq əlaqələndirmə məsələlərində fəal çalışır.

# Şuşa tezliklə Azərbaycanın və Qafqazın deyil, dünyanın da gözəl şəhəri olacaq

## *23 binadan ibarət ilk yaşayış kompleksinə 450 ailə köçəcək*

**Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda vurğuladığı kimi, Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda, Qələbəmizin, sülhün rəmzidir. Bu şəhərin azad olunması ilə İkinci Qarabağ müharibəsinin başa çatması da bunu deməyə əsas verir.**

Ölkə rəhbəri hazırda şəhərdə quruculuq işlərinin sürətlə aparıldığını, Şuşada tarix, mədəniyyət, memarlıq və iqlim vəhdət təşkil etdiyindən gələcəkdə bura gələn qonaqların da sayının davamlı şəkildə artacağını əminliklə bildirib və "bu, bizim böyük sərvətimizdir. Əlbəttə ki, bu şəhər qaya üzərində qurulubdur, qədim şəhərdir və bu, həqiqətən də Qafqazın incisidir və Qarabağın tacıdır" kimi dəyərləndirib.

Prezident İlham Əliyev qədim mədəniyyət paytaxtımızda reallaşdırılan quruculuq layihələrindən bəhs edərkən, hazırda erməni faşizminin dağıtdığı tarixi memarlıq abidələrinin bərpa edildiyini, burada 3 məscidin yenidən qurulduğunu, dahi şair və Qarabağ xanlığının vəziri Vaqifin məqbərəsinin əvvəlki görkəminə qaytarıldığını da diqqətə çatdırıb.

Ölkə rəhbəri fikrini davam etdirərək mərasim iştirakçılarının bu şəhərə gələrkən azad olunmuş ərazilərdən keçdiklərini xatırladaraq deyib: "Siz Füzuli Hava Limanından Şuşaya elə bir yolla gəlmisiniz ki, biz onu Zəfər yolu adlandırmışıq. Bu yol nə sovet dövründə, nə də ki, işğal dövründə mövcud deyildi. Bu yol bizim qəhrəmanlarımızın cəsarəti və ruhu sayəsində açılıbdır. Biz buraya məhz bu şəkildə gəlmişik, şəhərlərimizi və kəndlərimizi azad edə-edə gəlmişik. Bu şəhər həm də bizim cəsarətimizin rəmzidir. Şuşada artıq bir neçə beynəlxalq tədbir keçirilibdir. Bu şəhərdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, bir neçə beynəlxalq idman tədbiri keçirilib və nəhayət, bu gün Qlobal Media Forumu keçirilir. Yəni, bu şəhər öz kimliyini qoruya bilmişdir. Baxmayaraq ki, işğal dövründə o, məqsədli şəkildə, qəsdən dağıdılmışdır".

Bir müddət öncə şəhərin Baş planının təsdiqləndiyini və indi artıq ilk yaşayış binaları layihəsinin icra edildiyini bildirən Azərbaycan Prezidenti həmin tikintilərdə iş yekunlaşandan sonra sakinlərin yenidən evlərinə qayıdacaqlarını vurğulayıb.

Xatırladaq ki, hazırda şəhərdə 23 binadan ibarət yaşayış kompleksində tikinti işləri sürətlə aparılır. Bu kompleksdə, ümumilikdə, 450 mənzil inşa edilir. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzilin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Şəhərin Qarabağ küçəsində isə 10 qeyri-yaşayış binası tikilir. "A" və "B" korpuslarından, həmçinin ofis binasından ibarət tikilinin ümumi sahəsi 5 min 745 kvadratmetr nəzərdə tutulur. Gələn il bu vaxt təhvil verilməsi nəzərdə tutulan həmin obyektlərdə ofis və ticarət mərkəzlərinin, həmçinin təmir olunan keçmiş poçt binasında DOST, "ASAN xidmət", "Azərpoçt" və KOBİA kimi qurumların fəaliyyətə başlaması sakinlərin ehtiyaclarının və yüksək sosial təminatının ödənilməsi məqsədi daşıyır.

Dövlətimizin başçısının tapşırığına əsasən, Qarabağ küçəsinin abadlaşdırılması ilə bağlı ilkin vəsait ayrılıb. Abadlıq və infrastruktur layihələri binaların inşası prosesi ilə paralel aparılır. Görülən işlərin bir qismi Prezident İlham Əliyevin tapşırığı ilə dövlət-özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir.

Şuşalı keçmiş məcburi köçkünlərin yaxın gələcəkdə doğma şəhərlərinə qayıdışından sonra Prezident İlham Əliyevin tapşırığı ilə burada, əsasən, yerli sakinlərin işə götürülməsi nəzərdə tutulur. Bu baxımdan əhalinin məşğulluğunun təmin olunması istiqamətində də fasiləsiz iş aparılır, siyahılar dəqiqləşdirilir. Şuşada fəaliyyət göstərmək məqsədilə qeydiyyatdan keçən şirkətlər tərəfindən yerli sakinlər üçün təşkil olunan 3 əmək yarmarkasında 200-dək şuşalı gənc siyahıya alınıb. Hazırda onlar üçün treninqlər təşkil olunur.

Dövlətimizin başçısı Şuşada infrastrukturun bərpasından danışarkən, ermənilərin müharibə vaxtı burada supaylayıcı şəbəkəni dağıtdıqlarını qeyd edərək, işğaldan sonra şəhərdə sıfırdan yeni supaylayıcı sistem qurulduğunu, ümumiyyətlə, Baş plan çərçivəsində mədəniyyət paytaxtımızın bütün infrastrukturunun yenidən qurulduğunu, yeni yollar salındığını, bu ilin sentyabr ayında min şagird yerlik məktəbin açılışının reallaşacağını, həmçinin 90 çarpayılıq xəstəxananın da cari ilin sonuna qədər hazır olacağını bildirib.

Şübhəsiz ki, bütün bunlardan sonra Şuşa daha gözəl, çox rahat, müasir şəhər olacaq. Eyni zamanda, təbii ki, bütün tarixi-memarlıq abidələrinin orijinallığı qorunacaq, hər dəfə bura səyahət edən hər bir qonaq mədəniyyət paytaxtımızda tez-tez nəzərə çarpan dəyişiklikləri görəcək. Bir sözlə, 3-4 il ərzində Şuşa təkcə Azərbaycanın və Qafqazın deyil, dünyanın ən gözəl şəhəri kimi şöhrət qazanacaq.

Prezident İlham Əliyev mərasimdə inşa etdik. Ümid edirəm ki, qonaqlarımız burada özlərini rahat hiss edirlər. Bu, Şuşanın necə sürətlə inkişaf etdiyini göstərir".

Qlobal Media Forumunda Şuşanın bərpası ilə bərabər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan tikinti-quruculuq layihələri ilə bağlı da ətraflı danışılıb. Əvvəlcə işğal dövründə erməni faşizminin torpaqlarımızda törətdiyi vandal əməllər xatırladılıb. Ermənistan tərəfindən şəhər və kəndlərimizin



Şuşanın bərpa-quruculuq layihələri barədə bəhs edərkən bir məqama da toxunub. Dövlətimizin başçısı mərasimin keçirildiyi mehmanxananın tamamilə yeni olduğunu, burada tikintinin sıfırdan başlandığını vurğulayıb. Ölkə rəhbəri deyib: "Bu mehmanxana ilə bağlı maraqlı bir fakt ondan ibarətdir ki, burada separatçılar özlərinə qondarma parlamentin binasını inşa edirdilər. Mən Şuşa azad olandan sonra buraya ilk dəfə gələndə gördüm ki, bina tam yekunlaşmamışdı. Onlar öz qondarma "parlament"ini buraya köçürmək istəyirdilər və bu şəhəri–Şuşanı erməniləşdirməyə davam etməyə çalışırdılar. O binanın qarşısında dayanarkən onu şeytan yuvası adlandırdım. Şeytan yuvası söküldü və biz bu 5 ulduzlu gözəl oteli

yerlə-yeksan edildiyi, qəbirlərin dağıdıldığı, ölülərin sümüklərinin çıxarıldığı diqqətə çatdırılıb.

Birinci Qarabağ müharibəsindən Vətən savaşınadək olan işğal dövründə Azərbaycan ərazilərində erməni barbarlığının, terror və vandalizmnin acı mənzərəsi indi də diqqət çəkir. Başdan-başa xarabalığa çevrilən şəhər və kəndlərimizin dəhşətli vəziyyəti ürək ağrıdır. Maddi-mədəniyyət abidələrimizin mənimsənilməsi, tarixi-mədəni təyinatına uyğun gəlməyən şəkildə istifadə olunması, məscidlərdə ev heyvanlarının saxlanılması, inanc yerlərinin əksər hallarda yerlə yeksan edilməsi, yaşıllıqların məhv olunması işğalçının qəddarlığının miqyasından xəbər verir.

Düşməndən təmizlənən ərazilərdəki dağıntılar qeyd edildiyi kimi, Birinci Qarabağ müharibəsindən sonrakı dönəmdə törədilib. Əvvəlcə evlərin və sosial obyektlərin tikinti materialları, dam örtükləri və pəncərələri oğurlanıb, daha sonra isə Azərbaycanın mədəni irsi dağıdılıb, təbii sərvətləri talan olunub. Bütün bunları nəzərdə tutan dövlətimizin başçısı çıxışlarının birində deyib: "Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, bir-bir evlərin kərpiclərini, daşlarını söküb aparıb özləri üçün daxmalar tikiblər".

Xarici ekspertlər tərəfindən ermənilərin Azərbaycanda törətdikləri bu dağıntlar, vandal əməllər nəticəsində şəhər və kəndlərin yerlə bir edilməsi Xirosima və Naqasakiyə atılan atom bombasından yaranan dəhşətli vəziyyətə bənzədilib. Lakin Qarabağın atom silahı ilə deyil, Azərbaycan xalqına yönələn nifrətin gücü ilə bu hala salındığı vurğulanıb.

Talan və məhv edilən dəyərlər nəinki ölkəmizin, həm də bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir. Buna baxmayaraq, bu cür barbarlığı, təəssüf ki, dünya birliyi susqunluqla qarşılayır, biganə münasibət sərgiləyir.

Vətən müharibəsindən ötən dövr ərzində də Ermənistanın Azərbaycana qarşı yönələn təxribatları ara vermir. Bu, əsasən, işğaldan azad edilən sahələrin uzun illər Ermənistan tərəfindən sistemli qaydada, Vətən müharibəsi dövründə isə xaotik şəkildə minalanması ilə bağlıdır. Hazırda düşməndən təmizlənən torpaqlarımız "barıt çəlləyi"ni xatırladır. Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda bununla bağlı dedikləri diqqət çəkir: "Minatəmizləmə prosesi ən böyük əngəldir. Çünki bu iki il yarım ərzində gördüyümüz işlər təkcə onu göstərmir ki, bizim maliyyə imkanlarımız var. Onu göstərir ki, bizim çox ciddi təcrübəmiz və peşəkar kadrlarımız var. Bu miqyasda layihələri iki il yarım ərzində həyata keçirmək, məncə, heç kimin ağlına gəlməzdi. Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə – 10 min kvadratkilometri əhatə edən ərazidə durmadan gecə-gündüz işlər gedir".

Şuşa Qlobal Media Forumunda Böyük Qayıdış Proqramının icrası vəziyyətinə də toxunulub. Tədbirdə Azərbaycanın 30-dan çox şəhər və kəndinin Baş planının təsdiqləndiyi, bir çox kəndin təməlinin də qoyulduğu və artıq həm Qarabağ, həm də Şərqi Zəngəzur rayonları üzrə, təxminən, növbəti 3 il ərzində 150 mindən çox insanın dogma yurdlarına qaytarılacağı diqqətə çatdırılıb.

*"Xalq qəzeti"*

# Ölkəmizin sığorta bazarı sürətlə böyüyür

## Ödəmələrin hər il 10 faiz artması nəzərdə tutulur

**Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynayan sığorta bazarı rəqabətin kəskin, biznesin isə mürəkkəb olduğu bir sahədir. Buna görə də hökumət bu sektorun üzləşdiyi problemlərin həllini daim diqqət mərkəzində saxlayır. Məhz bunun nəticəsidir ki, son 5 ildə sığorta bazarı həcminin davamlı şəkildə yüksəldiyi müşahidə edilir. Son illər ərzində hər il sığorta haqlarının həcmi orta templə 15-18 faiz artır.**



Respublikamızda sığorta bazarının davamlı inkişafı mühüm strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə də maliyyə sahəsi qarşısında çeviklik, rəqabətqabiliyyətlilik və innovativlik kimi yeni vəzifələr durur.

Mərkəzi Bank sığortalıların hüquq və vəzifələri barədə məlumatlandırılmasına, sığortaya olan inamın artırılmasına hər zaman xüsusi diqqət yetirir, daim sığortaçıların sığorta ödənişləri ilə bağlı bütün öhdəliklərinin tam və vaxtında həyata keçirilməsi üçün onların maliyyə dayanıqlığının gücləndiirlməsi üçün mütəmadi tədbirlər gerçəkləşdirir. Hazırda sığorta hadisəsi gerçəkləşdikdə sığorta zərərinin ödənilməsi ilə bağlı heç bir problem yaşanmır. Bu, riskin ortadan qaldırılması üçün sığortaçıların maliyyə dayanıqlığının gücləndirilməsi istiqamətində gerçəkləşdirilən tədbirlərin nəticəsidir.

Respublikada sığortaçıların sığortalılara qarşı ədalətli münasibətinin reallaşdırılmasına da xüsusi əhəmiyyət verilir. Bundan əsas məqsəd isə sığorta hadisəsi baş verdiyi zaman onun düzgün qiymətləndirilməsini, zərərin düzgün müəyyənləşdirilməsini, ödənişin vaxtında həyata keçirilməsini, prosesdə sığortalılara qarşı sığortaçıların ədalətli rəftarını həyata keçirməkdir. Mərkəzi Bank icbari sığorta sahəsində qanunvericiliyin tənzimlənməsi çərçivəsində həm beynəlxalq, həm də xarici təcrübələr əsasında qanunları, eyni zamanda, nəzarət mexanizmlərini mütəmadi şəkildə təkmilləşdirir.

Mərkəzi Bank və Sosial Tədqiqatlar Mərkəzinin dəstəyi, Sığortaçılar Assosiasiyası ilə Mediasiya Şurasının təşkilatçılığı ilə keçirilən “Sığorta mübahisələrinin həllində mediasiyanın rolu” adlı elmi-praktiki konfransda bütün bunlar barədə ətraflı danışılıb. Toplantıda “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinə əsasən, sığorta sektorunda 2026-ci ilə qədər “Sığorta sektorunda risk əsaslı nəzarət və tənzimləmə çərçivəsinin güclənməsi” və “Sığorta bazarının inkişaf etməsi və dayanıqlığının artması” kimi yekun nəticələr nəzərdən keçirilib. Eyni zamanda, strategiya çərçivəsində sistemli institusional islahatlar, bazar infrastrukturunun müasirləşdirilməsi, rəqəmsal transformasiya və intensiv maarifləndirmə tədbirləri vasitəsilə sığorta bazarı həcminin hər il 10 faiz artırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Orucun sözlərinə əsasən, bu gün ölkəmizdə icbari və könüllü icbari sığorta siniflərinin hər biri yeni “yol xəritəsi” ilə müəyyənləşir. Mərkəzi Bankın 2022-ci il hesabatına görə, ölkənin sığorta bazarında 20 sığorta və 1 təkrarsığorta şirkəti fəaliyyət göstərir. Sığorta şirkətlərindən 5-i həyat, 15-i qeyri-həyat sığorta şirkətidir. Sektorun fəaliyyəti həmçinin 29 sığorta brokeri və 652 sığorta agenti vasitəsilə təmin edilir.

Z.Oruc bildirir ki, son 10 ildə dünya iqtisadiyyatında və maliyyə sektorunda yaşanan dalğalanmalar Azərbaycanın sığorta bazarına da təsirsiz ötüşməyib. 2015-ci ildə manatın devalvasiyasından sonra maliyyə sektorunda yaşanan belə bir vəziyyət sözügedən sektorda fəaliyyətini dayandıran sığorta şirkətlərinin sayını 8-ə çatdırıb. Buna baxmayaraq, Mərkəzi Bankın sığorta bazarının genişləndirilməsi və onun dayanıqlığının təmin edilməsi ilə bağlı gördüyü tədbirlər sayəsində sığorta haqlarının artım tendensiyası reallaşıb. Belə ki, son 6 il ərzində sığorta haqlarının illik artım tempi 12,2 faiz olub. Müvafiq göstəricilər həyat sığorta sinifləri üzrə 15,7 faiz, qeyri-həyat sığorta sinifləri üzrə isə 5,6 faiz təşkil edib.

Sosial Tədqiqatlar Mərkəzi rəhbərinin məlumatına görə, 2021-ci ildə sığorta haqlarının həcmi 844 milyon manat, 2022-ci ildə isə 15 faiz və ya 127 milyon manat artaraq 971 milyon manata çatıb. Dövr ərzində könüllü sığorta növləri üzrə 24 faiz artım (141 milyon manat), icbari sığorta növləri üzrə isə 6 faiz azalma (14,6 milyon manat) müşahidə edilib. Könüllü sığorta növləri üzrə artımın əsas drayveri kimi həyatın yaşam sığortası qeydə alınıb.

Ötən il Azərbaycan sığorta bazarı ümumi daxili məhsulun (ÜDM) cəmi 0,7 faizi həcmində olub. Bu, 2021-ci ilə nisbətən 0,2 faiz azalma deməkdir. Avropa ölkələri üzrə sığorta sektorunun ÜDM-də payı 3,9 faizdir. Azərbaycan sektorun inkişafı baxımından Avropa ölkələrindən 5 dəfədən çox geri qalır.

Sığorta haqlarının yarısından çoxu 3 sığorta sinfi üzrə toplanır–yaşam (40,9 faiz), avto icbari (11,7 faiz), tibbi (11,6 faiz). Onların əsas sığorta siniflərinin ümumi haqlarda payı isə 64 faiz təşkil edir.

Yeri gəlmişkən, burada bir məqama da diqqət yönəltmək istərdik. Son illər ərzində vətəndaşlar arasında sığorta hadisəsi ilə bağlı şikayətlər daha çox icbari sığorta ilə bağlıdır. Mərkəzi Bankın baş direktoru Ziya Əliyev deyir ki, il ərzində təmsil etdiyi maliyyə qurumunun araşdırdığı 90 min sığorta hadisəsi üzrə 2700-2800 şikayətin böyük qismini icbari sığortada, o cümlədən avtomobillərin icbari sığortasında üzləşilən nöqsanlar təşkil edir.

Düzdür, artıq avtomobillərin icbari sığortası ilə bağlı zərərlərin birbaşa tənzimlənməsinin tətbiqi ilə əlaqədar şikayətlərin azalması müşahidə edilir. Yeni qayda tətbiq edildikdən keçən 9 ayda 40 mindən çox hadisə üzrə Mərkəzi Banka 75 şikayət daxil olması bunun bariz ifadəsidir.

Sığorta hadisəsi ilə vətəndaşlardan daxil olan şikayətlərin azalmasının bir səbəbi isə Mediasiya Şurasının bu sahədə səmərəli fəaliyyəti ilə bağlıdır. Başqa sözlə, adıçəkilən şura ilə Azərbaycan Sığortaçılar Assosiasiyasının birgə əməkdaşlığı nəticəsində sığorta hadisələrinin məhkəmə çəkişmələri ədalətlə təhlil olunur və müvafiq qərarlar çıxarılır. Dövlət Statistika Komitəsinin hesabatında bu aydın nəzərə çarpır.

Belə ki, sadəcə 2021-ci ildə iqtisadi fəaliyyət sahələri üzrə qeydə alınmış məhkəmə işlərinin sayı 1223 olub. Bunun da 564-də digər istisna sahələrlə yanaşı, sığorta sahəsi də yer alıb. Bu mənada mediasiya institutunun sığorta mübahisələrinin alternativ həlli mexanizmi kimi aktivləşdirilməsi həm bu sahədə məhkəmə işləri ilə bağlı 40 faizə yaxın olan faiz nisbətinin kiçilməsinə, həm mübahisələrin ədalətli həllinə, həm də sığortalılarda sığorta savadlılığının daha dərindən formalaşmasına zəmin yaradır.

Mərkəzi Bankın baş direktorunun proqnozuna əsasən, cari il Azərbaycanın sığorta bazarının həcmi 1,2–1,3 milyard manata qədər böyüyə bilər. Çünki 2019-cu ildə Azərbaycanda 650 milyon manat sığorta haqqı toplanılmışdı. Bu il ərzində həmin rəqəmin 1,2–1,3 milyard manat olması isə o deməkdir ki, son 4 il ərzində sığorta bazarı təxminən 2 dəfə böyüyəcək.

***V.BAYRAMOV, “Xalq qəzeti”***

# Qlobal iqtisadiyyat tədricən dirçəlir

## İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozları nikbinlik doğurur

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) hesabatına əsasən, qlobal iqtisadiyyat tədricən yaxşılaşır. Qlobal ÜDM artımı 2022-ci ildəki 3,3 faizdən 2023-cü ildə 2,7 faizədək azalsa da, gələn il 2,9 faizə yüksələcək.**



Hesabatda bildirilir ki, enerji qiymətlərinin aşağı düşməsi ilə ev təsərrüfatlarının büdcəsindəki gərginlik azalmağa başlayır. Biznes və istehlakçı əhval-ruhiyyəsi tədricən bərpa olunur, Çinin məhdudiyyətləri tam aradan qaldırması qlobal iqtisadi fəaliyyəti canlandırır.

İƏİT əsas inflyasiyanın 2022-ci ildəki 9,4 faizdən 2023-cü ildə 6,6 faizə və 2024-cü ildə 4,3 faizə enəcəyini proqnozlaşdırır. İnflyasiyanın azalması daha sərt pul siyasətinin qüvvəyə minməsi, enerji və ərzaq qiymətlərinin aşağı düşməsi ilə əlaqədardır. ABŞ-də ÜDM artımının sərt pul və maliyyə şərtlərinə cavab olaraq 2024-cü ildə 1 faizə enməzdən əvvəl, 2023-cü ildə 1,6 faiz olacağı proqnozlaşdırılır.

Avro zonasında inflyasiyanın azalması real gəlirləri artırmağa və ÜDM artımının 2023-cü ildəki 0,9 faizdən 2024-cü ildə 1,5 faizədək artmasına kömək edəcək. ÜDM-nin ən çox artımı isə Hindistanda (6 faiz) və Çində (5,4 faiz) gözlənilir. Rusiya və Argentinada isə bu göstəricilər mənfi olacaq.

Hesabatda qeyd olunub ki, inflyasiyanın davamlılığı əsas aşağı riskdir. Əsas inflyasiya güclü xidmət qiymətləri artımı və bəzi sektorlarda yüksək mənfəət fonunda yapışqanlığını sübut edir. Daha yüksək faiz dərəcələrinin təsiri bütün iqtisadiyyatda getdikcə daha çox hiss olunur və məhdudlaşdırıcı pul siyasəti zəruri olsa da, xüsusilə yüksək borcu olan ölkələrdə maliyyə zəifliyini daha bariz şəkildə ortaya çıxarır. Bu fonda inflyasiyanın aşağı salınması, fiskal siyasətin tənzimlənməsi və dayanıqlı artımın təşviq edilməsi zərurəti siyasətçilər üçün əhəmiyyətli problemlərdir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının baş iqtisadçısı Klare Lombardellinin sözlərinə görə, fiskal siyasət məhsuldarlığı artıran dövlət investisiyalarına, o cümlədən yaşıl keçidə təkan verən işçi qüvvəsi təklifi və bacarıqlarının artırılmasına üstünlük verməlidir. O əlavə edib ki, əmək və məhsul bazarlarında məhdudiyyətləri azaltmaq, özəl investisiya və məhsuldarlıq artımını yenidən canlandırmaq üçün yenilənmiş islahat səyləri davamlı həyat standartlarını yaxşılaşdıracaq və mövcud aşağı artım perspektivindən yaxşılaşma prosesini gücləndirəcək.

***“Xalq qəzeti”***

## Həsrətdən vüsala

**İkinci Qarabağ müharibəsindəki ilk ciddi uğurumuz Cəbrayıl rayonu ilə bağlıdır. Bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bu, Silahlı Qüvvələrimizə əlavə güc və inam verdi.**

Ordumuz öz tarixi missiyasını digər yerlərdə də uğurla icra etdi. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev deyib: “Ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik”.

Bu qələbədən sonra Cəbrayıl rayonunda genişmiqyaslı bərpa-quruculuq işlərinə başlandı. Şəhər və kəndlərin, sənaye və kənd təsərrüfatı obyektlərinin, müasir sosial infrastrukturların təməli qoyuldu. Bunlar Cəbrayıla qayıdacaq əhalinin rifahının daha da yaxşılaşdırılması üçün yeni iş imkanları yaradacaq.

# “Biz qayıdıb gəldik, doğma ocaq!”

Cəbrayıla qayıtmaq, öz ata-baba yurdunda yaşamaq istəyənlər isə çoxdur. Həmsöhbətim yazıçı-jurnalist Ramilə Qurbanlıdır.

**– Cəbrayıl işğaldan azad olunduqdan sonra kəndimizə getmişdim. Evimizi görəndə çox həyəcanlandım. Bacım da mənimlə idi. Son dəfə bu evdən, həyətdən məcburən onunla birlikdə çıxmışdıq. Bacımın 15, mənim 23 yaşım vardı. Dayanmışıq abad qoyub getdiyimiz viranə həyətimizin qarşısında. Viranəsini gördüyümüzə sevinirik də… Bir addım içəri ata bilmirik. Evimizdən qalan qırıq daşlara, qaməti əyilmiş tut, budaqları qocalmış alça ağaclarına baxırıq, onlar da bizə baxırlar. Sanki “Haradaydınız? – soruşurlar, – bizi qoyub hara getmişdiniz?”**



“Heç bilirsiniz, başımıza nələr gəldi, nələr yaşadıq?” – deyə ürəyimdə cavab verirəm, özümüzə haqq qazandıracaq söz axtarıram, tapmıram. Hər iki tərəf eyni “həyatı yaşayıb”, həm düşmən əlindən yurdunu qoyub çıxmağa məcbur olan biz, həm də bizsiz əsirlikdə qalan yurd…

… 70 yaşlı atamla anam köçkün həyatında yenidən ev tikdilər, yurd qurdular. İndi köhnə dədə-baba yurdunda ev tikməyə ömür vəfa edəcəkmi? İnsan bir ömürdə neçə dəfə ev qurar… Bu nə taledir yaşadıq?

**– Ramilə xanım, köçkün düşdüyünüz o günü necə xatırlayırsan?**

– 1993-cü ilin avqustun 17-si axşam saat 20 radələri olardı. Nə biləydik ki, avqustun 18-də ermənilər tərəfindən Füzulinin, 23-də isə Cəbrayılın mərkəzi işğal ediləcək. Hələlik, hər iki rayonun camaatını hansı qüvvələrsə təlaşa salıb çıxardırdılar torpaqlarından. Qatarda iynə atsaydın, yerə düşməzdi. İnsanların üzündə yalnız dəhşət vardı, kimsə başqası ilə maraqlanmırdı, hamı öz canının hayında idi. İçi insan qarışıq köhnə çemodan, boxça, torba, çuvalla dolu qatar sürətlə irəliləyirdi. Hər stansiyada eyni mənzərə ilə rastlaşırdıq. Adi halda bu qatar səhər alatoranında Bakıya çatardı. Bu dəfə elə olmadı. Qatar alatoranda hələ İmişlidə idi, arada hərəkət edərək Saatlıya, Sabirabada çatıb, sonra bir də İmişliyə qayıtmışdı. Sonralar öyrənəcəkdim ki, həmin gecə qaçqın dolu qatarın Bakıya girməməyi üçün yuxarıdan əmr verilib. O vaxt qatarın Bakıya getmədiyindən narazı qalan camaatın heç ağlına da gəlməzdi ki, onların böyük bir qismi–yəni, getməyə yeri olmayanlar ömürlərinin xeyli hissəsini elə bu vaqonlarda yaşamalı olacaqlar. Burada körpə böyüdəcək, gəlin gətirəcək, qız köçürəcəklər...

Qatarın irəli-geri hərəkəti daha çox söz-söhbətə, şayiələrə, təlaşa əsas verirdi. Hələ Xocalı soyqırımının xofundan ayılmamış insanlar özlərinin “Xocalı dəhşəti”ni yaşayacaqlarından çox qorxurdular. Bəlkə də məqsədli şəkildə təlaş yaradanlar, vəziyyəti gərginləşdirənlər də vardı.

Qatar İmişli, Saatlı, Sabirabad arasında üç gün, üç gecə o tərəf bu tərəfə gedib-gəldi. O üç gün ərzində 22 yaşıma qədər görmədiyim dəhşətləri yaşadım.

…Çox çətinliklə maşınla Bakıya gəldik. Tələbə yataqxanamızda Şuşa, Laçın qaçqınları məskunlaşmışdılar. Bizim otağımız, əşyalarımız hamısı onların idi artıq. İtirdiklərinin müqabilində heç nə olan əşyaları onlardan geri istəyə bilməzdim.

Qardaşımın evinin açarı məndə idi. Qapını açıb içəri keçdik. Qonşu dedi ki, Üzeyir sizin arxanızca İmişliyə gedib. Yazıq qardaşım, axşama yorğun, həm də dəli vəziyyətdə evə gəlib çıxdı.

**– Uzun illərdən sonra Aşağı Maralyanı gördün, necə qarşıladı?**

– Böyük Mərcanlı kəndini keçəndən sonra yerimdə rahat otura bilmirdim. Buradan Aşağı Maralyana qədər yolun hər iki tərəfi ağaclıq idi. Çox sevirdim bu yolu, uşaqlıqda elə bilirdim dünyanın ən gözəl yoludur. İndi o ağaclardan əsər-əlamət yoxdur. Yalnız quru yol var. Amma həmin anda dünyanın ən gözəl yolu idi mənim üçün.

Uzaqdan görünən bina doğmalığı, istiliyi ilə çəkirdi məni… İnana bilmirdim ki, məktəbimizin binasıdır, kəndə çatmışıq. Yeganə salamat bina odur, qalanlarından ancaq daş qırıntıları qalıb. Ən məsum illərimin yadigarı, atamın, anamın müəllim, bizim şagird kimi sevdiyimiz, məbəd bildiyimiz məktəb. Buranın əzəməti daşında-sementində deyil. Ağlımızda və ürəyimizdəki yeri əzəmətlidir. Məktəbdə indi sərhədçilərimiz yerləşiblər, yaxşı təmir olunub.

Onun yaxınlığından axan “Gavur” arxını görməyə tələsdim, yox idi, yeri, çalası zibilliklərlə dolmuşdu. Təkcə insan, bəşər düşməni deyil bu torpağı işğalda saxlayanlar, həm də kainatın düşmənidirlər. Bulaqları, çayları, kanalları qurudub, yaşıllıqları məhv edib, yurdları talayıb, torpağa sitəm ediblər…

İdarənin binasından iki daş hörgü qalıb – onu da gördüm. O bina da məktəb binası kimi, 1986–87-ci illərdə təhvil verilmişdi, yeni bina idi.

İdarədən sonra nənəmgilin həyətidir. Qamış basıb, həyət görünmür. Qamışlıqdan keçmək olar, minalardan keçmək olmur. Dabanımı qaldırıb mümkün olduğu qədər baxdım. Nənəmin səsi gəldi qulaqlarıma – “ay bala, o pilləkənlərdən yıxılacaqsan, çıxma ora”.

İkinci mərtəbə kərpicdəndir, yarısına qədər qalır, pilləkənlər yarıda qırılır. Gördüyüm bu oldu. Həyətə girə bilsəm, yəqin daha çox görərdim, bəlkə nənəmin qab-qacağı da gözə dəyərdi. Qəribədir, paslanmış, çürümüş nə isə tapmaq adama sevinc gətirərmiş...

Gördüm ki, Vilayət müəllimgilin ikimərtəbəli evindən heç bir nişanə qalmayıb. Qonşularımızın evləri də eyni vəziyyətdə idi. Arabir cırcıramaların səsi sakitliyi pozurdu, lap o uzaq, xoşbəxt, qayğısız uşaqlıqda olduğu kimi…

“Bircə kəndimizi, evimizi görsəydim…” deyən, həsrəti çəkənlərə bircə sözüm var. Mən də çox ah-zarını çəkdim, getdim ki, görüm. Kənddən, yurddan, evdən nə qalmışdısa, gördüm. Amma o kəndimizi, evimizi görmədim…

O kənd, o yurd, o evlər bizdən qoparılıb, qoparılmış uşaqlığımız, gəncliyimizlə birgə çox uzaqlarda bir işıq zərrəsi kimi öləziyib və sönüb…

Daha gözəl kənd, daha gözəl evlər tikiləcək, gedəcəyik, görəcəyik, yaşayacağıq… amma o bizdən qoparılanı heç nə və heç kim qaytara bilməyəcək…

Artıq həsrətə də son qoyuldu. 28 il müddətində aparılan danışıqlar nəticəsində əldə edilməyən tarixi ədalət məhz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığı sayəsində qısa zamanda bərpa olundu. Haqq-ədalət öz yerini tapdı. Tezliklə cəbrayıllılar öz doğma yurduna qayıdacaq, rifah içində yaşayacaqlar. O gün isə yaxındadır.

***Pünhan ƏFƏNDİYEV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

# Türkcə şeir yazan şəhid leytenant

## *Nakam şair Murad Nağıyev*

**Haqqında söhbət açmaq istədiyimiz şəhid leytenant Murad Mayıl oğlu Nağıyev Qazax rayonunda doğulub. O, Bakının Bakıxanov qəsəbəsindəki 271 saylı nömrəli məktəbdə 8-ci sinfi bitirdikdən sonra, 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul imtahanlarında iştirak edib, yüksək nəticə göstərdiyinə görə Türkiyənin Kuleli Hərbi Liseyinə seçilib. 2015-ci ildə Türkiyədə Kara Harp Okuluna daxil olub. 2016-cı ildə təhsilini Heydər Əliyev adına Ali Hərbi Akademiyada davam etdirib. Müxtəlif yerlərdə hərbi təlimlərdə və toplantılarda fərqlənib. 2020-ci ildə Bakı yaxınlığında yerləşən "N" saylı hərbi hissəyə təyinat alıb.**



Leytenant rütbəsi ilə tank taborunda taqım komandiri, tank komandiri kimi xidmətini davam etdirib. Vətən müharibəsi başlanan ilk gündən ön cəbhəyə yollanıb. Murad Nağıyev tank komandiri olaraq Kənd Horadizin alınmasında şücaət göstərib, Füzuli, Cəbrayıl, Zəngilan və Hadrut istiqamətlərindəki döyüşlərdə düşmənin xeyli sayda strateji obyektini, zirehli texnikasını və 50-yə yaxın şəxsi heyətini məhv edib, hərbi texnikasını qənimət götürüb. Əsgər yoldaşları deyir ki, Murad həmişə özünü qabağa atıb. O, sürdüyü tankı heç kimə verməyib.

Ailədə üç qardaşdan ən kiçiyi olan Murad yumruq boyda ürəyinə Vətən boyda sevgi sığdırıb. Son sözlərini qardaşı Orxana yazıb: "Qardaşım, mən gedirəm, haqqınızı halal edin. İnşallah, görüşərik, öpürəm hamınızı".

Oktyabrın 11-də Cəbrayıl ərazisindəki döyüş zamanı düşmənin uzaqdan idarə olunan tank əleyhinə raket zərbəsi nəticəsində şəhid olub. Oktyabrın 20-də Bakıdakı İkinci Fəxri xiyabanda dəfn olunub. 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.

Anası Xavər Məmmədli Murad üçün çox darıxdığını söyləyir:

– Murad Türkiyəyə gedəndən sonra üzünü çox az gördük. Balamdan doymadım ki… Burada iki ay xidmət etmişdi ki, müharibə başladı. Şəhidliyinə bir gün qalmış qardaşı ilə danışıb, arzularını dilə gətirib. Sevdiyi qız vardı, onunla ailə qurmaq istəyirdi. Oğlum sanki qayıtmayacağını hiss edirdi. Hər sözünün sonunda "əgər qayıda bilsəm…" – deyirdi. Yolunu çox gözlədik, amma qayıtmadı".

### İSTANBUL VE HAYAT

*Yeni bir gün başlat hayatta.*
*Sabah güneş kendini*
*göstermeye başlar,*
*Sonsuz ufuklarda.*
*İlk ışıklar akseder deniz üstünde.*
*Öylece izlemeye başlarsın*
*güneşin doğuşunu,*
*Sonra dayanamazsın*
*bu güzellik karşısında,*
*İçini bir ferahlık kaplar.*
*Yüzün güler, hayran*
*kalırsın bu eşsizliğe.*
*Her şey uçuverir aklından,*
*Kilitlenip kalırsın bu manzaraya,*
*Ama uzun sürmez bu güzellik,*
*Hayat gibi güzel görünür ilk başta.*
*Ve bitti artık bu doyumsuz güzellik,*
*Acı vermeye başlamıştır*
*çok sevdiğin ışıklar.*
*Gözlerin kamaşır,*
*dayanamazsın, bakamazsın,*
*Sonra yüzün yanmaya başlar.*
*Bir tokat yemiş gibi yüzün yanar,*
*Evet bir tokat, hayattan*
*yediğin bir tokat.*
*Ne tuhaf değil mi?*
*İlk önce aldanıp sonra yanmak.*

**Murad NAĞIYEV**

Murad uşaq yaşlarından riyaziyyata və incəsənətə maraq göstərib, müxtəlif musiqi alətlərində ifa etməyi öyrənib. Üstün zəkasına və yüksək riyazi nəticələr göstərdiyinə görə hərbi liseydəki müəllimləri ona "riyaziyyat dahisi" deyirmişlər. Ancaq Murad poeziyaya daha çox könül verib, Azərbaycan və türkcə şeirlər yazıb. Qələm təcrübələri müxtəlif ədəbiyyat çevrələrində bəyənilib və "Kardeş Kalemler" jurnalında, həmçinin "Ədəbiyyat qəzeti"ndə dərc olunub.

2021-ci ildə şair Barat Vüsal şəhid leytenantın xatirəsinə "Muradım mənim" adlı şeirinin qələmə alıb. Ötən ilin yazında Murad Nağıyevin şərəfli həyatından və şanlı döyüş yolundan bəhs edən, onun şeirlərinin də daxil edildiyi "Murad" adlı kitab işıq üzü görüb. Şəhidin "Fikrim hey ondadır" şeirinə bəstələnən musiqi səsləndirildikdən sonra təhsil aldığı məktəbin şagirdləri onun şeirlərini söyləyiblər.

Muradına yetməyən, dünyadan vaxtsız köçən Murad Nağıyevin həyat yolunu onun öz gözlərinin "pəncərə" sindən seyr edən Kamran Ağabalayevin nakam şairin şeirlərini səsləndirdiyi, "Qayıtsaydım" sənədli filmi isə 2022-ci ilin oktyabr ayında paytaxtın Park Cinema Alov Qüllələri kinoteatrında nümayiş olunub. Bu təsirli filmin çəkilişləri Bakı, Şuşa, İstanbul və İzmir şəhərlərində həyata keçirilib. Muradın türk ləhcəsində yazdığı şeirlərdən birini təqdim edirik.

**Əli NƏCƏFXANLI,**
**AYB-nin üzvü**



## ŞUŞADANMI GƏLİRSƏN?

*Qarabağ döyüşçüsü, alakollu Ruslan İmanquliyevə həsr olunur*

***Şuşadanmı gəlirsən,***
***Azərbaycan əsgəri?..***
***Qoy öpüm palçıqlı çəkmələrindən,***
***Yoxsa yağış yağıb Şuşaya dünən?***

***Nə yaxşı gəlmisən yağışdan çıxıb,***
***Nə yaxşı gəlmisən savaşdan çıxıb –***
***Hava günəşlidir Gəncədə bu gün...***
***Sən Div balasısan,***
***Aslan parçası,***
***Sən Div oğlusan...***
***Yüz ildir, min ildir***
***"Divin canı şüşədədir" – deyirlər,***
***Otuz il gözlədi o can şüşədə,***
***Əsir-yesir oldu canım Şuşada...***
***MEYDAN SULAMISAN***
***şüşədən çıxıb....***

***Nə yaxşı gəlmisən Şuşadan çıxıb...***
***Keçib Kəlbəcərdən, keçib Laçından,***
***Keçib Cəbrayıldan, Ağdamdan keçib***
***Nə yaxşı Bakıya gəlib çıxmısan...***
***Görüb çəkmələrin Cıdır düzünü,***
***Qoy öpüm palçıqlı çəkmələrindən...***
***Yəqin yağış yağıb Şuşaya dünən...***
***Palçığı çəkmənə sürtüm üzümü,***
***Palçığı çəkmənin silim tozunu...***
***Hava günəşlidir Bakıda bu gün...***

**Akif ƏHMƏDGİL**

**Milli Mətbuat və Jurnalistika Günü tədbirləri sırasında dünyasını dəyişmiş ustad qələm sahiblərinin yad edilməsi də mediamızın qədirbilənlik ənənələrindəndir. Builki peşə bayramında Azərbaycan Mətbuat Şurasında milli jurnalistikamızda özünəməxsus dəst-xətti ilə seçilmiş, mətbu sözə məsuliyyəti ilə tanınmış təcrübəli redaktor, kəsərli söz sahibi, Əməkdar mədəniyyət işçisi Şakir Yaqubovun "Yaddaşa son səyahət" kitabının təqdimat mərasimi keçirildi.**

# Sözün sərrafı, jurnalistikanın cəfakeşi




Əslində, bu toplantı 9 ay əvvəl dünyasını dəyişmiş tanınmış media xadiminin xatirəsini anma günü kimi də əlamətdar oldu. Bu günlərdə işıq üzü görmüş kitabda istedadlı jurnalistin 2017–2020-ci illərdə dərc edilmiş publisistik qeydləri toplanıb.

Mərasimi giriş sözü ilə açan AMŞ İdarə Heyətinin sədri Rəşad Məcid Azərbaycan jurnalistikasında özünəməxsus yeri və izi olan Şakir Yaqubovu belə səciyyələndirdi: "Şakir Yaqubov təpədən dırnağa jurnalist, mətbu sözün böyük cəfakeşi idi. O, istedadlı qələm sahibi, müxtəlif janrlarda yazılmış bir neçə kitabın, saysız-hesabsız qəzet məqaləsinin müəllifi olmaqla yanaşı, həm də mahir redaktor idi. Ustad redaktorun qələmi ilə ən zəif yazılar da ətə-qana doldurularaq qəzet səhifələrinə çıxmaq hüququ qazanırdı. İstedadlı jurnalistin həmkar və dostlarının təşəbbüsü ilə 2017–2020-ci illərdə dərc edilmiş publisistik qeydlərindən ibarət "Yaddaşa son səyahət" kitabı bu sənəti özünə həyat yolu seçənlər, xüsusilə, gənc jurnalistlər üçün dəyərli mənbədir. Heç də təsadüfi deyildir ki, onun yaradıcılıq çeşməsindən su içən, zəngin təcrübəsindən bəhrələnən jurnalistlər Şakir Yaqubov yetirməsi olduqları ilə fəxr edirlər".

Şakir Yaqubovu təmsil etdiyi nəsilin sənət müəllimi və qayğıkeş dostu xatırlayan "Yaddaşa son səyahət" kitabının tərtibçi-redaktoru Elşən Əliyev mərhum müəllifin gənc yazarlara örnək sayıla biləcək publisistikasının tədqiq olunacağına ümid etdiyini bildirdi. Daha sonra tədbirə moderatorluq edən MŞ Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu mərhum sənətkarın yüksək insani keyfiyyətlərindən, onun azərbaycançılıq ideyasına sadiqliyindən, eləcə də sözə böyük məsuliyyətlə yanaşmasından ətraflı söhbət açdı, keçmiş iş yoldaşı barədə xatirələrini söylədi.

Şakir Yaqubovun yetirmələrindən Azər Qaraçənli, Müsəllim Həsənov, Süleyman Qaradağlı, Şərif Ağayar, İmran Bədirxanlı onun peşəkar qəzetçi, tələbkar redaktor, qayğıkeş pedaqoq olduğunu söylədilər. Mərhum sənətkarla "Səhər" qəzetində çiyin-çiyinə çalışmış Zemfira Ələkbərova, Svetlana Şıxəliyeva da Ş.Yaqubov haqqında ürək sözlərini söylədilər.

"Yaddaşa son səyahət" kitabının təqdimat mərasimində Şakir Yaqubovun ailə üzvləri də iştirak edirdi. Qızları Aynur və Aysel ataları ilə bağlı xatirələrini dilə gətirdilər, həmçinin tədbirin təşkilatçılarına, kitabın ərsəyə gəlməsində əməyi olanlara minnətdarlıqlarını bildirdilər.

Xatırladaq ki, Şakir Yaqubov dövri mətbuatda işıq üzü görmüş çoxsaylı publisistika nümunəsinin müəllifi, bir sıra elmi əsərlərin tərcüməçisi, sənədli kitabların və elmi-kütləvi nəşrin redaktoru olub. Tanınmış jurnalistin müxtəlif janrlarda, o cümlədən idman mövzusunda yazıları ayrı-ayrı toplulara daxil edilib.

Fədakar qələm sahibi Azərbaycan Mətbuat Şurasının "Ali Media" mükafatına, "Qızıl qələm" və "Həsən bəy Zərdabi" yaradıcılıq mükafatlarına layiq görülmüş, 10-dək yaradıcılıq müsabiqəsinin qalibi olmuşdu.

**İ.HƏSƏNQALA,**
**"Xalq qəzeti"**

# Həyatımızın 10 illik "Ədəbi proses"i

**Zəmanənin, dövrün düşüncə tərzinin poetik aynası olan ədəbi proses bilavasitə ədəbi inkişafla bağlıdır. Bu baxımdan Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Ədəbi proses" elmi-yaradıcılıq müşavirəsinin 10 illik yubileyinə həsr olunmuş tədbirdə əvvəlcə məhz ötən 10 ildə Ədəbiyyat İnstitutunda işıq üzü görmüş əsərlərdən ibarət sərgiyə baxışın keçirilməsi təsadüfi deyildi.**

Müşavirəni giriş sözü ilə açan AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli XX əsrin 70-ci illərinin sonlarında Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas alim, AMEA-nın müxbir üzvü Yaşar Qarayevin təşəbbüsü ilə ilk dəfə "Ədəbi proses" müşavirələrinin keçirildiyini və materiallarının çap olunduğunu vurğuladı. Bildirdi ki, "Ədəbi proses" elmi-yaradıcılıq müşavirəsi sonuncu dəfə 1984-cü ildə keçirilib. Otuz il sonra, müstəqillik dövrünün açdığı geniş imkanlar sayəsində Ədəbiyyat İnstitutunda bərpa edilən müşavirələr Sovet dövründə keçirilənlərdən fərqli olaraq müstəqillik dövrünün elmi, mədəni, ictimai fikir sahəsində yaratdığı yeniliklər və ədəbi mühitin daha geniş şəkildə prosesə cəlb olunması üçün geniş zəmin yaradıb.

İsa Həbibbəyli "Ədəbi proses" yaradıcılıq müşavirəsinin hər il özündən əvvəlki ilin ədəbi prosesini janrlar üzrə təhlil etdiyini və orada gedən dinamikanı, problemləri, çatışmazlıqları göstərməyə çalışdığını, həmçinin alimlərimizin çıxış yolları haqqında öz təklif və tövsiyələrini irəli sürdüklərini qeyd etdi.

Ötən 10 il ərzində keçirilən yaradıcılıq müşavirələrinin kitablarda, toplularda, eləcə də məqalələr şəklində ictimaiyyətə təqdim olunduğunu deyən AMEA rəhbəri dedi ki, həmin məruzələr M.F.Axundzadənin dövründən bu günə qədər Azərbaycanda geniş həcmə malik olan ən elmi-nəzəri şəkildə yazılmış mükəmməl tənqid icmallarıdır.



Akademik Azərbaycan Yazıçılar Birliyi ilə Ədəbiyyat İnstitutu arasında əlaqələrin hazırda çox yüksək səviyyədə olduğunu və bu münasibətlərin yazıçılıq mühitinə də müsbət təsir göstərdiyini vurğuladı. Son zamanlarda sosial şəbəkələrin də "Ədəbi proses"ə qoşulduğunu müşahidə etmişəm. Builki müşavirədə sosial şəbəkə ədəbiyyatından da ayrıca məruzənin dinlənilməsi planlaşdırılıb. Beləliklə, "Ədəbi proses" format olaraq elmi konfransdan ədəbi hərəkata çevrilib. Bununla bərabər, ədəbi prosesçilər ifadəsi meydana gəlib, gənclər arasında elmlər doktorları və fəlsəfə doktorları yetişib. "Ədəbi proses" müzakirələri Azərbaycan elmində yeni bir cərəyanın da yaranmasında iştirak edib. Artıq ədəbiyyatımızda neologizm, realizm, postmodernizm kimi, akademizm də müşahidə olunur. Bunun da öz yaradıcıları, təmsilçiləri vardır. Bunların sırasında İsa Həbibbəylini, Rafael Hüseynovu, Teymur Kərimlini, Hamlet İsaxanlını, Kamal Abdullanı, Məmməd Əliyevi və başqalarını qeyd etmək olar".

Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar bildirdi ki, bədii yaradıcılıq – poeziya, nəsr, dramaturgiya və onların təhlili, tənqidi, araşdırılması ədəbiyyatın iki qanadıdır və bu iki qanad olmasa, ədəbiyyat quşu fəzaya qalxa bilməz, normal ədəbi proses gedə bilməz. Ədəbiyyatşünaslıq elmi ilə Azərbaycan Yazıçılar Birliyi sıx əlaqələrin olduğunu, akademik İsa Həbibbəylinin AMEA-ya rəhbərlik etməsindən sonra bu münasibətlərin daha da genişləndiyini deyən Anar "Ədəbi proses" müşavirəsinin yubiley tədbirinin AYB-də keçirildiyinə görə akademiyanın prezidentinə minnətdarlığını bildirib.

Müşavirədə "İlin ədəbi mənzərəsi" mövzusunda məruzə ilə çıxış edən filologiya elmləri doktoru Elnarə Akimova "Şuşa ili"ndə milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunması istiqamətində estetik bir dönəmin başlandığını vurğuladı. 2022-ci ildə ədəbiyyatla bağlı əksər işlər daha çox Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən verilən dörd sərəncamın icrasına köklənməklə gerçəkləşdi: Şuşanın 270, Xurşidbanu Natəvanın 190, Hüseyn Cavidin 140, Əhməd Cavadın 130 illiyi ilə bağlı müxtəlif humanitar instansiyalarda tədbirlər keçirildi. Ədəbi mühitin Azərbaycan ədəbiyyatına qazandırdığı dəyərlərdən söhbət açan E.Akimova ötən ilin önəmli ədəbiyyat xəbərlərini iştirakçıların diqqətinə çatdırdı. Bu gün ədəbiyyatda olanların, ziyalıların üzərinə ədəbiyyatın, sözün işığını öləziməyə qoymamaq kimi böyük missiyanın düşdüyünü qeyd etdi.

Filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı "Uşaq ədəbiyyatı" mövzusunda məruzəsində qeyd etdi ki, Ədəbiyyat İnstitutunda hər il keçirilən "Ədəbi proses" yaradıcılıq müşavirəsində uşaq ədəbiyyatı, onun ayrı-ayrı janrları haqqında xüsusi məruzələr edilir.

2017-ci ildə institutda Uşaq ədəbiyyatı şöbəsinin yaradılması yazarlarla bu sahənin tədqiqatçılarının müntəzəm ünsiyyəti tənəzzülünü yaşayan uşaq ədəbiyyatının inkişafına bir təkan verdi: "Əgər on il əvvəl biz uşaq ədəbiyyatının az sayda olan nümunələrindən danışırdıqsa, indi artıq Altun, Ting, Çıraq, Üç alma, Leylək, Tutu, Balabilgə, Libra, Qələm, Simurq, Dəyər, Mücrü, Günəş, İzə, Ağıllı bala və bu kimi çoxsaylı nəşriyyatların fəaliyyətindən bəhs edirik".

Aygün Bağırlı 2022-ci ilin Azərbaycanda "Şuşa İli" kimi qeyd olunduğunu və uşaq ədəbiyyatının yaradıcılarının da Zəfəri yeni yaşamış xalq kimi, çoxdandır bu mövzuya təşnə kimi Qarabağ mövzusunda, qələbə mövzusunda, savaş və şəhidlik mövzusunda xeyli ədəbi-bədii nümunələr yaratdığını bildirdi. Zəfər sevinci ilə yanaşı, müharibə, onun acısı, uşaqların həyatında yaratdığı böyük boşluqların da şeirlərdə öz əksini tapdığını bildirdi: "Rafiq Yusifoğlu "Şar və balaca qız" şeirində bir şəhid övladının atasının müharibəyə getməzdən əvvəl üfləyib ona verdiyi şarı gecə-gündüz qorumasından, əlindən yerə qoymamasından bəhs edir:

***Gör necə möhkəm tutub,***
***Bu qız şarın sapını?!***
***Çünki bu şar azaldır,***
***Körpənin əzabını...***

Məruzəçi bu gün uşaq ədəbiyyatının gözəl, dəyərli nümunələrinin yalnız təsvir, tərənnüm, maarifləndirmək, estetik zövq aşılamaq xarakteri daşımadığını, eyni zamanda, milli məfkurənin, azərbaycançılıq ideologiyasının formalaşması, Vətənə, torpağa, tarixi-mənəvi bağlara dərindən bağlanmaq kimi milli-mənəvi düşüncənin inkişafına təkan verdiyini, ümumilikdə, dünyanı qorumağı təlqin etdiyini dedi.

Daha sonra AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Ədəbi tənqid", filologiya üzrə fəlsəfə doktoru Azər Turanın "Poeziya", filologiya üzrə fəlsəfə doktoru Maral Yaqubovanın "Nəsr", filologiya üzrə fəlsəfə doktoru Aynurə Mustafayevanın "Dramaturgiya", filologiya elmləri doktoru Vaqif Yusiflinin "Ədəbi gənclik" mövzularında məruzələri dinlənildi, ədəbiyyat nümunələrinin gözəl örnəklərindən bəhs edildi.

Sonda həyatda, cəmiyyətdə, bütövlükdə, insanın daxili dünyasında gedən rəngarəng proseslərin bədii ədəbiyyatda əks olunması üçün geniş imkanlar yaradan ədəbi prosesin ümumi inkişafa töhfələri qeyd olundu.

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

## Beynəlxalq həyat

# Krım körpüsü Ukraynanın hədəfindədir

### Zelenski bu qurğunu qanunsuz tikilmiş obyekt adlandırıb



**Ukrayna dronlardan istifadə etməklə Krımın Krasnoqvardeysk rayonunda yerləşən infrastruktur obyektlərinə hücum edib. Bu barədə yarımadanın rəhbəri Sergey Aksyonov məlumat verib. O deyib: “Fövqəladə Hallar Nazirliyi mümkün fəsadların aradan qaldırılması üçün hadisə yerindədir. Bütün müvafiq xidmətlər işləyir”.**

Krım körpüsündə də vəziyyət gərginləşib, avtomobillərin hərəkəti müvəqqəti olaraq dayandırılıb. Körpüdə və yoxlama zonasında olan insanlar sakitliyə və nəqliyyat təhlükəsizliyi əməkdaşlarının göstərişlərinə əməl etməyə çağırılıb.

Bu, körpü üçün hələ də təhlükənin olduğundan xəbər verir. Ukrayna tərəfi onu çox təhlükəli düşmən obyekti adlandırır, zərərsizləşdirilməsini vacib sayır. Ukrayna Prezidenti Volodimir Zelenski bu barədə “Aspen” Təhlükəsizlik Forumunda danışıb: “Krım körpüsü ukraynalı hərbçilər üçün hədəfdir. Onu zərərsizləşdirmək lazımdır, çünki işğalçılar ondan müharibə üçün istifadə edirlər. Krım körpüsü, sadəcə, “kiçik logistik yol” deyil, çünki onun köməyilə rus qoşunları sursat alır və bütün yarımadanı hərbiləşdirir. Bizim üçün bu, qanundankənar, beynəlxalq hüquq və qüvvədə olan normalardan kənar tikilmiş düşmən obyektidir. Ona görə də bizim məqsədimiz budur. Sülh deyil, müharibə gətirən istənilən məqsəd zərərsizləşdirilməlidir”.

Ukraynanın körpünü zərərsizləşdirmək üçün isə imkanları genişlənir. Onun uzaqməsafəli raketlərdən sonra, “F-16” döyüş təyyarələri almaq imkanları genişlənir. Artıq Amerika Birləşmiş Ştatları, “F-16” döyüş təyyarələrinin Kiyevə tədarükü prosesi ilə bağlı ukraynalı pilotların təlimi məsələsini mümkün qədər tez həll etməyə çalışır. ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan bu barədə “Aspen” Universitetinin Kolorado ştatında davam edən təhlükəsizlik forumunda Ukrayna–Rusiya müharibəsi və xarici siyasətlə bağlı suala cavab verərkən deyib. Onun sözlərinə görə, Ukraynanın “F-16” qırıcı təyyarələrindən səmərəli istifadə etməsi üçün lazım olan təlimlərin başlaması üzrə səylər davam edir. ABŞ 2023-cü ilin sonuna qədər “F-16” qırıcılarını Ukraynaya vermək niyyətindədir.

Ceyk Sallivan ukraynalı pilotların hazırlığının nə vaxt başlayacağını deməsə də, bunun aylar deyil, həftələr ərzində həyata keçəcəyini və texniki məsələlərin artıq həll olunduğunu bildirib.

Qərb ölkələri də “F-16” qırıcılarını Kiyevə köçürə bilər, çünki əksər ölkələr indi daha müasir “F-35” modellərinə keçir.

Hadisələrin belə gərgin fonunda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ukraynalı həmkarı Volodimir Zelenski arasında telefon danışığı olub. Onlar Qara dəniz taxıl sazişinin uzadılması məsələsini müzakirə ediblər.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin müharibənin başa çatması üçün səy göstərdiyini bildirib. Volodimir Zelenski isə Rusiyanın sazişdən çıxması səbəbindən dünyanın ərzaq böhranı ilə üzləşə biləcəyini vurğulayıb.

Xatırladaq ki, 2022-ci il iyulun 22-də İstanbulda Ukrayna taxılının, habelə Rusiyanın aqrar məhsullarının və gübrəsinin beynəlxalq bazara çatdırılması üzrə sənədlər paketi imzalanıb. 2023-cü il iyulun 17-də Rusiya sazişdən çıxdığını elan edib və Qara dəniz təşəbbüsünə yalnız razılaşmanın Rusiyaya aid hissəsi reallaşacağı halda qayıdacağını bildirib.

Ukrayna və Rusiya taxıl və digər ərzaq məhsullarının ən böyük ixracatçılarıdır. Bu ölkələrdən tədarük zəncirinin qırılması dünya bazarında ərzaq qiymətlərinin bahalaşmasına səbəb ola bilər.

# Avropa İttifaqı Rusiya aktivlərini müsadirə edə bilmir

### Hüquqi problemlər və Avropa valyutasına inamsızlıq buna mane olur

**Avropa İttifaqı (Aİ) Rusiya aktivlərinin müsadirəsi və onların Ukraynaya verilməsi ilə bağlı razılığa gələ bilmir. Bu məsələnin həllinə hüquqi problemlər və Avropa valyutasına etimadın sarsılması mane olur. Bu barədə “The Economist” yazır.**



Aİ avroya inamın azalacağından qorxduğu üçün Avropanın “Euroclear” depozitarında toplanmış Rusiya aktivlərini müsadirə etməkdən qorxur. Avropa Mərkəzi Bankının (AMB) fikrincə, Rusiya Mərkəzi Bankının aktivlərinə qarşı hər hansı addım dünyanın mərkəzi bankları tərəfindən əmanət kimi saxlanılan avropa valyutasının və dövlət istiqrazlarının etibarını sarsıda bilər. Çünki etibarın azalması ilə dünya ölkələri öz aktivlərini avroda və istiqrazlarda saxlamaqda maraqlı olmaz.

“The Economist” qeyd edib ki, Rusiya aktivlərinə sahib olan özəl şirkətlərə vəsaitləri daha yüksək gəlirli investisiyalara köçürmək və mənfəəti Aİ fonduna köçürmək təklif olunub. Lakin hüquqi risklərin yüksək olması səbəbindən bu variant nəzərdən keçirilməyib. Nəşrin məlumatına görə, birtərəfli həbs də beynəlxalq hüququn bütün normalarını pozduğu üçün rədd edilib. Məsələ ondadır ki, ölkə hüquqi toxunulmazlığa sahibdir. Ona görə də sanksiyalardan ancaq Rusiyanı fərqli hərəkətə sövq etmək üçün istifadə oluna bilər və aktivlərin müsadirəsi bu hərəkətlərdən kənara çıxır.

İyunun 21-də avstriyalı nazir Aleksandr Şallenberq bildirib ki, sanksiyalara görə dondurulmuş Rusiya aktivlərindən sui-istifadə halları istisna edilməlidir, çünki bu cür hərəkətlərə məhkəmədə etiraz etmək olar.

*P. ƏFƏNDİYEV, “Xalq qəzeti”*

# Uşaqlar üçün sağlamlıq düşərgəsi

**Naxçıvanın Ağbulaq İstirahət Mərkəzində uşaqlar üçün təşkil edilmiş “Diabet mənim dostumdur” istirahət-sağlamlıq düşərgəsi maarifləndirici sonluqla başa çatıb. Toplantıda rəsmi şəxslərlə yanaşı, Bakı şəhərindən dəvət olunmuş həkimlər, uşaqlar və onların valideynləri iştirak edibər.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbir iştirakçılarını salamlayaraq bildirib ki, Naxçıvanda 2023-cü il ərzində səhiyyə sahəsində aparılan islahatlar öz bəhrəsini verməkdədir. Səlahiyyətli nümayəndə diabetli uşaqlara müraciət edərək deyib: “Diabet heç zaman sizin həyatınızda maneəyə çevrilməməlidir. Yaxşı oxumalısınız, dərslərinizdə hər zaman uğurlar qazanmalısınız ki, biz və valideyinləriniz də sizinlə fəxr edək”.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqdisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”ndan bəhs edən Fuad Nəcəfli bu tarixi sənəddə şəhər və rayonlarda səhiyyə xidmətinin keyfiyyətinin yaxşılaşdırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, sağlamlığının qorunması istiqamətində həyata keçiriləcək tədbirlərin də geniş yer aldığını söyləyib.

Sonda bildirilib ki, Naxçıvanda ilk dəfə təşkil edilən düşərgə uşaqlara, onların sağlamlığına verilən dəyərin ifadəsidir və belə layihələr ardıcıl olaraq davam etdiriləcək.

*“Xalq qəzeti”*

## Beynəlxalq elmi məclis

# Kardioloqların Bakı konqresi

**“Heydər Əliyev İli" çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən silsilə tədbirlər davam etdirilir. Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) təşəbbüsü ilə “Müasir kardiologiya: nailiyyətlər və innovativ yeniliklər” mövzusunda keçirilən beynəlxalq elmi-praktik konqres də ümummilli liderin 100 illiyinə həsr olunmuşdur. Tədbirdə Səhiyyə Nazirliyinin və Milli Məclisin Səhiyyə komitəsinin, Nərimanov Rayon İcra Hakimiyyətinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəhbər işçiləri, həmçinin Azərbaycan, Türkiyə, Rusiya, İsrail, Almaniya, Gürcüstan və Litvanın tanınmış elm xadimləri iştirak ediblər.**






ETKİ-nin 45 illik yubileyi ilə əlaqədar hazırlanmış sənədli film nümayiş olunub.

İnstitutun direktoru Gülnaz Dadaşova ulu öndərin həyat və fəaliyyətinin gələcək nəsillərə çatdırılması baxımından vacibliyini qeyd edərək Heydər Əliyevin təşəbbüsü ilə yaradılan ETKİ-nin tarixi yoluna nəzər salıb.

Bildirib ki, bu tibb müəssisəsi ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə açılıb və ilk gündən instituta akademik Cahangir Məmməd oğlu Abdullayevin adı verilib. C.Abdullayev Əməkdar Elm xadimi fəxri adına layiq görülmüş, “Qırmızı Əmək Bayrağı” ordeni ilə təltif edilmiş kardioloq olub. Azərbaycan Tibb Universitetində “Akademik C.Abdullayev” adına təsis edilən təqaüd təhsildə fərqlənən əlaçı tələbələrə təqdim olunur.

**G.Dadaşova daha sonra deyib:**

– Böyük alimin adını daşıyan və 1979-cu ildən fəaliyyətə başlamış Kardiologiya İnstitutu ötən müddət ərzində böyük inkişaf yolu keçmiş və hazırda güclü elmi potensiala və klinik-praktik təcrübəyə malikdir. Fəaliyyət göstərdiyi müddətdə istər klinik, istərsə də elm sahəsində öz töhfələrini vermiş və verməkdə davam edir. İnstitut xeyriyyə aksiyaları ilə tanınıb. Son 1 il ərzində rəhbərliyin təşəbbüsü ilə ölkə ərazisində uşaq sığınacaqlarında, ahıllar evlərində, eyni zamanda, şəhid və qazi ailələri üçün aksiyalar keçirilib.

Son illər fəaliyyətində çoxsaylı uğurlara imza atan Elmi-Tədqiqat və Kardiologiya İnstitutu (ETKİ) tibb elminin inkişafına töhfələr verməkdə davam edir. 2023-cü ilin fevral ayında “Heydər Əliyev İli”nə həsr olunmuş Azərbaycanda ilk dəfə keçirilən kardioonkologiya sahəsində beynəlxalq konfrans bu baxımdan xüsusi əhəmiyyət kəsb edib. Görülən mühüm işlərdən bəhs edən direktoru keçirilən beynəlxalq konqresin ölkəmizdə kardiologiyanın inkişafına böyük töhfə verəcəyini bildirib. Qeyd etmək lazımdır ki, müəssisədə yüksək ixtisaslı, təcrübəli, peşəkar, təkmilləşmə kursları keçmiş yüksək səviyyəli həkim kollektivi çalışır, eyni zamanda, elmi-tədqiqat işləri aparılır. Son ildə effektiv və məqsədyönlü fəaliyyət sayəsində institutun maddi-texniki bazası yenilənmiş, bütün şöbələr yeni və müasir avadanlıqlarla təchiz olunmuşdur.

400-ə yaxın həkimin iştirakı ilə keçirilən beynəlxalq konqresdə tibbdə yeni istiqamət – kardiologiyanın aktual elmi və praktiki aspektlərinə dair məruzələr dinlənilib. Sonra mövzularla bağlı müzakirələr aparılıb və suallar cavablandırılıb.

Digər çıxış edənlər də ulu öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən söz açıblar və konqresin əhəmiyyəti haqqında iştirakçılara dolğun məlumat veriblər. Qeyd edək ki, konqres çərçivəsində iştirakçılar üçün “Kardiak anatomiya”, “EKQ”, “EXO KQ” və “CPR” kursları keçirilib.

Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

*Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”*

# Naxçıvan Teatrı Türkiyədə

**Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi Türkiyədən Naxçıvan Dövlət Milli Dram Teatrının 140, Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş qastrol səfərindən qayıdıb.**



Kollektiv qastrol günlərində türkiyəli dramaturq Mehmet Ümit Görgülünün “Cibimizdəki cənnət” əsəri əsasında hazırladığı “Cibimizdəki dəlilik” psixoloji komediyasını qardaş ölkənin Ege bölgəsinin İzmir, Sardes və Foça şəhərlərində teatrsevərlərə təqdim edib. Truppa Ege bölgəsində antik teatrın yaradıldığı Sardesdə keçirilən VIII Beynəlxaq Dionis Teatr və Təlim Düşərgəsinə də qatılıb.

Azərbaycanı təmsil edən teatrın aktyorları türkiyəli mütəxəssislərin təşkil etdiyi təlimlərdə iştirak ediblər. Teatrın direktor müavini Səməd Canbaxşiyev Naxçıvan teatrının tarixi, yaradıcılıq ənənələri və bu günü ilə bağlı iştirakçılara geniş məlumat verib. O, qastrol səfərində məqsədin iki ölkə arasında mədəni əlaqələrə töhfə vermək və Azərbaycan teatr ənənələrini türkiyəli teatrsevərlərə təbliğ etmək olduğunu vurğulayıb.

Sardesdəki açıq hava altındakı meydanda “Kosa-kosa” oyunu, “Xına yaxdı” mərasimi və “Tənzərə” yallısı ilə tamaşaçılar qarşısında çıxış edən kollektiv qədim türk folklorunun Azərbaycanda bu gün də yaşadıldığını göstərib. Oyundan sonra yerli tamaşaçılar belə oyunların bir zamanlar onlarda da olduğunu, lakin bu gün unudulduğunu söyləyiblər. Onlar milli ənənəni yaşatdıqları üçün Naxçıvan aktyorlarına təşəkkür ediblər.

Qastrol səfərinin sonunda türkiyəli dramaturq Mehmet Ümit Görgülü Naxçıvan Teatrının kollektivinə əsərini peşəkar səviyyədə hazırlayıb təqdim etdiklərinə görə təşəkkürünü bildirib. O, Azərbaycan teatr sənətinin yüksək səviyyədə olduğunu vurğulayıb.

Xatırladaq ki, Mehmet Ümit Görgülünün “Cibimizdəki dəlilik” əsərinin rejissoru, musiqi tərtibatçısı və baş rolunun ifaçısı Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Səməd Canbaxşiyev, rəssamı Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Səyyad Bayramovdur. Tamaşada rolları gənc aktyorlar Məmməd Mehdiyev, Ələsgər Quliyev, Uğur Nəsirli, Mehri Nəbiyeva, Ləman Vəliyeva, Vəfa Qurbanova, Mirqabil Əkbərov, Amil Yusifov və Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov ifa edilər.

**Səbuhi HƏSƏNOV, Naxçıvan**


# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nəzdində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi

### Təhsil şəbəkəsinin genişləndirilməsi, proqram təminatının, həmçinin İP telefoniya, məlumat hesablama cihazının və bu tipli digər avadanlıqların satın alınması üçün

# TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Tenderdə iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən malgöndərənlər iştirak haqqını həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 1.000 (bir min) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- malgöndərənin tenderdə iştiak üçün müraciət ərizəsi;
- malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, Nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin qüvvədə olma tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır);
-malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış;
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;
- iddaiaçının hansı sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;

Hər bir iddiaçı ixtisas göstəriciləri üzrə aşağıdakı məlumatları təqdim etməlidir:

İxtisas uyğunluğu sənədləri:

- podratçının müvafiq sahədə peşəkarlığı və təcrübəsi;
- podratçının maliyyə vəziyyətinin uyğunluğu.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Siyahısı yuxarıda göstərilən və iddiaçının tender təklifini təşkil edən sənədlər tender komissiyasına aşağıdakı qaydada çatdırılmalıdır:

İddiaçının texniki təklifi əsli və surəti ilə eyni bir zərfə qoyulmaqla, qiymət təklifi təklifin bank təminatı ilə birlikdə əsli və surəti isə digər zərfə qoyulmaqla zərfləri imzalayıb möhürləyir, sonra isə texniki və qiymət təklifləri olan zərfləri başqa bir xarici zərfə qoyaraq, xarici zərfi imzalayıb möhürləyərək əsas şərtlər toplusunun məlumat xəritəsində göstərilən vaxtdan gec olmayaraq qeyd edilən ünvana göndərirlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı daxil olmaqla) 7 avqust 2023-cü il saat 17.00-a qədər satınalan təşkilatın ünvanına-qurumun inzibati binası, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospekti 909-cu məhəllə, maliyyə və iqtisadiyyat şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 8 avqust 2023-cü il saat 17.00-da qurumun inzibati binasında iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 153 (30269) 23 iyul 2023-cü il, bazar
veb-sayt: www.xalqqazeti.az

## İdman xəbərləri

### “Qarabağ” UEFA reytinqində irəliləyib



***Son 5 mövsümdə toplanan xalların cəminə əsasən UEFA reytinqində Azərbaycan klublarından ən yüksək pilləni “Qarabağ” tutur. UEFA Çempionlar Liqasının I raundunda Cəbəllütariq komandası “Linkoln”u hər iki görüşdə məğlub edən Ağdam təmsilçisi 4 pillə irəliləyib. Qurban Qurbanovun yetirmələri 24.500 xalla 61-ci yerə yüksəliblər. “Qarabağ” reytinqdə “Monako” (Fransa) və “Fənərbağça” (Türkiyə) kimi klubları geridə qoyub.***

“Qarabağ”dan sonra ən yaxşı göstəriciyə malik Azərbaycan klubu “Neftçi”dir. 2 pillə geriləyən “ağ-qaralar” 9.500 xalla 5 komanda ilə birlikdə 137-ci pilləni bölüşdürür. Reytinqdə geriləyən “Qəbələ”4.500 xalla 265-cidir.

Azərbaycan çempionatının digər iştirakçıları “Sabah”, “Zirə”, “Şamaxı”, “Sumqayıt” və “Səbail” hərəyə 1.500 reytinq xalı ilə 343-cü yeri bölüşdürürlər.

“Turan Tovuz”, “Kəpəz” və yenidən elitaya qayıdan “Araz-Naxçıvan” 424 klub sırasına düşməyiblər.

### III Avropa Oyunlarının mükafatçıları ilə görüş

***Azərbaycan Boks Federasiyasının (ABF) prezidenti Sahil Babayev Polşada keçirilən III Avropa Oyunlarında medal qazanan boksçularla görüşüb.***



ABF-dən “Xalq qəzeti”nə bildiriblər ki, federasiya prezidenti multitidman yarışında gümüş mükafata sahib olan Məhəmməd Abdullayev (+92 kq) və bürünc medala layiq görülən Murad Allahverdiyevi (80 kq) Azərbaycanı beynəlxalq arenada uğurla təmsil etdikləri üçün təbrik edib və yeni nailiyyətlər arzulayıb.

O bildirib ki, 42 ölkənin qatıldığı yarışda 2 mükafata sahib olmaq, eyni zamanda, fəxri kürsüyə yüksələn boksçularımızın “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya qazanması gərgin məşqlərin bəhrəsidir. Kişilərdən ibarət komandamızın medal sıralamasında “Top-7”də yer almasını uğur adlandıran federasiya prezidenti yarışda digər milli üzvlərinin də əzmkarlıq nümayiş etdirdiklərini vurğulayıb. O, Olimpiadaya vəsiqələrin sayının artacağına və boksçularımızın növbəti böyük turnirlərdə üçrəngli bayrağımızı yüksəklərə qaldıracağına inam ifadə edib.

Boksçular çıxış etdikləri yarışlar, qatıldıqları təlim-məşq toplanışları və uğura gedən yoldan danışıblar. Onlar bildiriblər ki, əsas hədəf Olimpiya Oyunlarında medal qazanmaqdır.

### “Qarabağ”ın azarkeşləri ikincidir



***Tribunalardan UEFA Çempionlar Liqasının I təsnifat mərhələsinin cavab oyunlarını izləyən azarkeşlərin sayı açıqlanıb.***

“Qarabağ”ın Bakıda Cəbəllütariqin “Linkoln” klubuna 4:0 hesabı ilə qalib gəldiyi oyun azarkeşlərin sayına görə siyahıda ikinci yerdədir. Bakı Olimpiya Stadionundakı matça 19 453 nəfər azarkeşlik edib.

Ən çox tamaşaçı sayı “Makkabi” (Hayfa, İsrail) - “Hamrun” (Malta) oyununda qeydə alınıb. İsrail klubunun 2:1 hesabı ilə qalib gəldiyi qarşılaşmanı 28 613 nəfər canlı izləyib.

Xatırladaq ki, “Qarabağ” Çempionlar Liqasının II təsnifat mərhələsində Polşanın “Rakuv” klubu ilə qarşılaşacaq. İlk oyun iyulun 26-da səfərdə, cavab görüşü isə bir həftə sonra evdə keçiriləcək.

***L.SABİRQIZI, “Xalq qəzeti”***

## Texnologiya yenilikləri




### “ChatGPT”nin “yaddaş”ı silinməyəcək

**“OpenAI” şirkəti süni intellektli “ChatGPT” çatbotuna yeni “xüsusi təlimatlar” funksiyasını əlavə edib.**

“ChatGPT”də hər dəfə sorğu başladılan zaman yaddaş silinir və keçmişdə danışılanlar unudulurdu. Lakin əlavə edilən yeni funksiya sayəsində artıq təfərrüatları təkrar xatırlatmağa ehtiyac olmayacaq. Belə ki, “xüsusi təlimatlar” adlanan bölməyə daxil edilən məlumatlar daimi yaddaşda qalacaq.

Məsələn, xüsusi təlimatlar bölməsində “Mən üçüncü sinif müəllimiyəm” yazılsa, istənilən axtarış zamanı o, bu təlimata uyğun yaş qrupu üçün cavab verəcək. Qısacası, bütün lazımi kontekst və məlumatları bölmədə qeyd etməklə işlər asanlaşacaq.

Qeyd edək ki, yeni funksiya əlçatandır. Lakin hələlik Avropa İttifaqı və Böyük Britaniyada istifadə etmək mümkündür.

***Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”***

### “Queen” qrupu “Brit Billion Award” mükafatını alıb

**“Queen” qrupu Böyük Britaniyada 1 milyard dinləməyə görə “Brit Billion Award” mükafatını alıb. Hesablamanı “Official Charts Company” şirkəti aparıb. Bu xəbəri “Variety” nəşri yayımlayıb.**



Mükafat Brayan Mey və Rocer Teylora verilib. “Queen” qrupu, ötən əsrin 70-ci illərinin ortalarından 90-cı illərinin ortalarına qədər ən geniş şöhrət qazanan ingilis rok qrupudur, albomlarının ümumi dünya tirajı 300 milyonu ötüb. Qrupun “We Will Rock You” və “We Are the Champions” mahnıları müasir dünyanın ən məşhur rok vokal inciləridir.

***Ə.DOSTƏLİ, “Xalq qəzeti”***

## Maraq dünyamız

### “Kompüter” insan idi...

**İlk elektron kompüterlər ixtira olunmazdan əvvəl ABŞ-da “kompüter” sözü stolüstü hesablama maşınında mürəkkəb tapşırıqlar üzrə əməliyyatlar aparan işçiyə aid edilirdi. Əksər hallarda hesablamaları qadınlar aparırdı.**



İkinci Dünya müharibəsi zamanı hərbi məqsədlər üçün hesablamalara ehtiyac olduğu üçün “insan kompüter”lərin sayı artdı. Müharibə bitdikdən sonra onların bir çoxu əsl proqramçı oldu. Beləliklə, məsələn, ENIAC-ın (Elektron Rəqəmsal İnteqrator və Kalkulyator) ilk aparıcı proqramçıları 6 qadın idi.

Xatırladaq ki, müasir kompüterlərin əsas iş prinsipləri XX əsrin 40-cı illərində ABŞ alimləri Con fon Neyman, Q. Qoldsteyn və A. Beris tərəfindən verilib. Həmin prinsiplər 1946-cı ildə ABŞ-də ENİAC adlı universal kompüterin yaradılması ilə həyata keçirilib. Bu tarix müasir kompüter texnikasının yaranma tarixi hesab olunur. Elə həmin vaxtdan etibarən kompüter texnikası və texnologiyası yüksək sürətlə inkişaf etməyə başlayıb.

Keçmiş SSRİ-də isə element bazalı mikroelektronika və inteqral sxemlərin əsasında EC EHM və başqa elektron hesablama maşınları yaradılıb.

### Plastik yeyən bakteriya

**Plastik yeyən bir bakteriya var! Onu alman alimləri aşkar ediblər. “Pseudomonas sp” adlı bakteriya nisbətən yaxınlarda aşkar edilib. Bu bakteriyalar poliuretan molekullarını bir yerdə saxlayan kimyəvi bağlara hücum edir, onları parçalayır və bu birləşmələrdən özünə həyat enerjisi yaratmaq üçün istifadə edir.**



Poliuretandan əsasən ayaqqabı, bəzi növ sintetik parçalar, konki üçün təkərlər və digər məhsulların istehsalında istifadə olunur. Bir çox digər plastik növlərindən fərqli olaraq, qızdırıldıqda ərimir, ona görə də təkrar emal edilmir və ondan istifadə edilmiş əşyalar zibilliyə atılır və ətrafı çirkləndirir. Yeni bakteriyanın bu problemin aradan qaldırılmasında istifadə olunacağı gün heç də uzaqda deyil.

Alimlərin plastikin parçalanmasını sürətləndirən “təbii düşmənləri” kəşf etməsi ilk dəfə deyil. Bir neçə il əvvəl Yaponiya alimləri butulkaların hazırlanmasında istifadə olunan plastik növü olan PET-i parçalayan ferment aşkar ediblər.

Qeyd edək ki, bakteriyaların sənaye miqyasında istifadəsi hələ sınaqdan keçirilməyib.

### Saturnun 1 ili Yerdən 30 dəfə uzundur

**Saturn Günəş sistemimizin ikinci ən böyük planetidir (ən böyüyü Yupiterdir). O qədər böyükdür ki, hətta kiçik bir teleskopla da görünə bilər. Onun 60-dan çox peyki var, dəqiq sayı isə hələ məlum deyil. “Titan” adlanan ən böyük peyk Pluton və Merkuri planetlərindən daha böyükdür. O, Günəş sistemindəki ikinci ən böyük peykdir.**



Saturnun diametri 120 min kilometrdir və kütləsi Yerdən 95 dəfə ağırdı. Onun bir günü cəmi 10 saat 14 dəqiqədir, lakin bu planetdə 1 il Yerin 30 ilidir.

Planetin məşhur halqaları 1610-cu ildə astronomlar tərəfindən kəşf edilib. Halqalar diametri bir neçə millimetrdən on metrə qədər olan buz hissəciklərindən ibarətdir. Saturnun halqalarının diametri 250 min kilometr, qalınlığı isə bir kilometrdən azdır.

1979-cu ildə ABŞ-ın “Pioner-11” avtomatik planetlərarası stansiyası tarixdə ilk dəfə Saturn yaxınlığında uçub. Planetdə küləyin sürəti saatda 1800 kilometrə çatır. Buna planetin yüksək fırlanma sürəti və qeyri-sabit atmosferi səbəb olur.

### Dünya sən nə qəribəsən...



1. Yer kürəsinin ən quraq yeri Antarktidanın Quru Vadiləridir, burada 2 milyon ildir yağıntı yoxdur.

2. Afrika əhalisi ən çox dildə danışan qitədir. Onların sayı 2 mini keçir. Bunlardan ən nadiri bikya dilidir. 1998-ci ildə Kamerun və Nigeriya sərhədində yerləşən kənddə yalnız 87 yaşlı bir qadın bu dildə danışırdı.

3. İstanbul dünyada 2 qitədə yerləşən yeganə şəhərdir.

4. Kosta Rikanın nizami ordusu yoxdur.

5. Kanadada dünyanın qalan hissəsindən daha çox göl var.

6. Ən kiçik dövlətlər: Vatikan 0,44 kv.km. Əhalisi 770 nəfər; Monako 1,9 kv. km. Əhalisi 32 min nəfər; Nauru 21 kv. km. Əhalisi 13 min nəfər; Tuvalu 25 kv. km. Əhalisi 12 min nəfər; San Marino 61 kv. km. Əhalisi 29 min nəfər.

***P.ƏFƏNDİ, “Xalq qəzeti”***

## Sağlamlıq

### Qanqal qaraciyərin “dost”udur

***Qanqal demək olar ki, Azərbaycanın bir çox bölgələrində, xüsusilə, yol kənarlarında günəşli sahələrdə yetişir. Mütəxəssislər onun insan orqanizminə bir çox faydaları olduğunu aşkar ediblər.***



Hələ qədim zamanlarda yaşlı insanlar cavanlara bərkiməmiş qanqalın gövdəsini soyub yeməyi tövsiyə ediblər. Bu bitkinin bir çox xəstəliklərə faydalı olduğunu deyiblər. Azərbaycanda köhnə kişilər elə çöllərdəcə bu bitkinin baş hissəsini yığıb, gövdəsinin nazik qabığını soyub yeyirlərmiş.

Qanqal qaraciyərin toxumalarını yeniləyir, onu zərərli maddələrdən təmizləyərək piylənməsinin qarşısını alır. Ondan sarılıq keçirən insanlarda yaranan qaraciyər xəstəliklərinin müalicəsində (Karsil adlı preparatın tərkibi qanqaldır) istifadə etmək tövsiyə olunur.

Təcrübədə sübut olunub ki, qanqal yemək temperaturu aşağı salır, bədəndə yaranan sinir ağrılarını azaldır. Yarpaqlarını qaynadıb, suyuna bal qatıb içmək isə malyariya xəstəliyində xeyirlidir. Qanqalın immun sistemi xəstəlikləri üçün də faydaları var.

Bitki damar tutulması səbəbilə yaranan xəstəliklərdə də təsirli vasitədir. Ondan alkoqol asılılığını müalicə etmək üçün istifadə oluna bilər.

***Z.HÜSEYNLİ, “Xalq qəzeti”***

## Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyulun 23-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək.Gecə 20-25°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı, 759 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət gecə 65-75, gündüz 35-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək, lakin gündüz bəzi şimal və qərb rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 35-40°, dağlarda gecə 11-16°, gündüz 19-24° isti olacaq.

***Q.QASIMOV, “Xalq qəzeti”***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4603
SİFARİŞ 1793
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00